RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 142 (9021) CÜMƏ AXŞAMI, 7 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Ramana yeni simada

Prezidentin tapşırığı ilə qəsəbədə yenidənqurma işləri həyata keçirilib, yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələr işıqlandırılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub. AZƏRTAC xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov qəsəbədə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

→ 2

## Vətənə ürəkdən bağlılıq

Dünyadakı həmvətənlərimizin Azərbaycan sevgisi İkinci Qarabağ müharibəsində bir daha təntənəli şəkildə nümayiş olundu

Ruhumuzun diriliş, milli kimliyimizin oyanış günü kimi tarixə həkk olunan 44 günlük Vətən müharibəsi illərdir zəfərə, qalibiyyətə susamış Azərbaycan xalqını dünyanın dörd bir yanında ayağa qaldırdı. Xalqımız tariximizin heç bir dönəmində rastlanmayan həmrəylik nümayiş etdirərək, haqq savaşımız uğrunda irəli atıldı, bu Zəfər tağının hörülməsində hər kəsin zərrə də olsa payı oldu.

→ 5

## Ermənistan tərəfindən İrəvan şəhərinin sonuncu tarixi nümunəsi də məhv edilməkdədir

Azərbaycanın elm və ictimai xadimləri Təpəbaşı məhəlləsi ilə bağlı UNESCO-ya müraciət ünvanlayıblar

Uzun illərdir ki, Ermənistanda Azərbaycan xalqının tarixi-mədəni irsi dağıdılır, saxtalaşdırılır.

→ 4

# Hərbi zəfərin siyasi rəmzi

İlham Əliyev bir il öncə iqtisadi rayonların yeni bölgüsünü müəyyənləşdirməklə həm də tarixi ədaləti bərpa etdi



→ 6

## "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Pakistan İslam Respublikasının Xaricdə Yaşayan Pakistanlılarla İş və İnsan Resurslarının İnkişafı Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il mayın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Pakistan İslam Respublikasının Xaricdə Yaşayan Pakistanlılarla İş və İnsan Resurslarının İnkişafı Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2022-ci il*

## Cəmiyyətin aparıcı qüvvəsi

Tələbələrimiz "Texnofest"də nəyə qadir olduqlarını bir daha nümayiş etdirdilər

Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Həmin qüvvəni isə yalnız yüksək elm və təhsillə, qabiliyyət və bacarıqla reallaşdırmaq mümkündür.

→ 8

## Taxıl sahələrinin 72,6 faizində biçin yekunlaşıb

Ölkə üzrə 177,7 min hektardan çox sahədə yay şumu aparılıb

Bölgələrdə taxıl biçini davam edir. Artıq ölkə üzrə payızlıq taxıl əkini sahələrinin 72,6 faizində biçin başa çatıb. Sahələrdən 2 milyon 163 min 875 ton məhsul yığılıb. O cümlədən arpa sahələrinin 88 faizində biçin tam yekunlaşıb. Hazırda əsas biçin buğda sahələrində aparılır.

→ 9

## İnkişafa hədəflənən yeni reallıqlar

Qəhrəmanlar o adamlardır ki, həyat üçün şücaət göstərir, qurub-yaradır, ölümə qalib gəlirlər. Müzəffər Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində ölümə qalib gələrək düşmənin 30 illik hiyləsini yendi...

→ 6

## Yayın istisi yox, qidası təhlükəlidir

Təkcə meyvə və tərəvəzlərdən deyil, hətta sudan belə zəhərlənmə halı qeydə alına bilər

Qida zəhərlənmələri halları fəsil tanımadan hər kəsin başına gələ bilər. Zəhərlənmələr isə qidanın keyfiyyətsizliyi, yararlılıq müddətinin keçməsi, saxlanma şəraiti və ya tərkibindəki hər hansı maddəyə qarşı allergik reaksiya ilə bağlı olur.

Mövsümlə əlaqədar zəhərlənmə verən qidalar fərqli olur. Məsələn, yay aylarında mövsümi meyvələr, dondurma, hətta sudan belə zəhərlənmə halı qeydə alınır. Sudan zəhərlənmə qəribə səslənsə də, amma plastmas qablarda açıq havada, günəş şüaları altında qalmış suların tərkibində dəyişiklik getdiyi üçün belə hallar müşahidə olunur. Buna əsas səbəb suyun saxlanma şəraitidir. Ümumiyyətlə, isti aylarda qida zəhərlənmələrinin başlıca səbəbi məhsulun düzgün temperaturda və şəraitdə saxlanılmaması olur.

Yay aylarında zəhərlənmə halları ilə bağlı həkimə müraciətlər artır. Qida zəhərlənməsinin inkubasiya dövrü bir neçə saat çəkə bilir. Zəhərləndikdə isə əsas müşahidə olunan simptomlar zəiflik, halsızlıq, ürək bulanması, qusma, ishal və bədən hərarətinin qalxmasıdır.

→ 12

## Ermənistanın "Şimal-Cənub" dəhlizinə qoşulmaq ümidi puç olur

Ermənistan uzun müddətdir ki, "Şimal-Cənub" dəhlizinin ərazisindən keçməyə can atır və bunu özü üçün xilas yolu kimi görür. Bu dəhliz Hindistandan Orta Şərq və Qafqaza kimi uzanaraq Mərkəzi Asiya və Avropanı birləşdirir. Gəmi, quru və dəmir yolları Hindistanın Mumbay limanı ilə İranın Bəndər Abbas limanlarını, həmçinin Bakı, Həştərxan, Moskva, Sankt-Peterburq yollarını birləşdirərək Skandinaviyaya kimi uzanır.

İran, Hindistan və Rusiyadan əlavə, bu nəqliyyat şəbəkəsi Azərbaycan, Belarus, Qırğızıstan, Qazaxıstan, Ukrayna, Türkiyə, Tacikistan, Oman, Suriya və Bolqarıstan arasında da inteqrasiyanı asanlaşdırır. Ermənistan dəhliz üzrə magistral yolun ərazisindən keçməsinə çalışır. Amma Ermənistanda bu magistral yolun tikintisinə Asiya İnkişaf Bankı ilə ilk kredit sazişinin imzalandığı 2009-cu ildə başlanılsa da, indiyə qədər hansısa ciddi iş görülməyib.

Ötən dövr ərzində "Şimal-Cənub" yolunun cəmi 5-6 faizi tikilib. Yolun yalnız 31 kilometrlik hissəsi, yəni İrəvan-Artaşat (19,6 km) və İrəvan-Aştarak (11,4 km) hissələri hazırdır. Yolun bu hissələri qəbul və təhvil aktı olmadan və bəzi qeyd-şərtlərlə 2016-cı ildə istifadəyə verilib.

→ 12

## Son 6 ildə ilk görüş

Əlcəzair Prezidenti Fələstinin iki aparıcı təşkilatının liderlərini - Mahmud Abbasla İsmayıl Haniyəni bir araya gətirdi

Əlcəzairdə Fələstinin FƏTH (Fələstin Milli Qurtuluş Hərəkatı) və HƏMAS (İslami Müqavimət Hərəkatı) qruplaşmalarının liderləri Mahmud Abbas və İsmayıl Haniyə arasında son 6 ildə ilk şəxsi görüş təşkil olunub. Fələstin mətbuatının verdiyi məlumata görə, danışıqlar Əlcəzair Prezidenti Əbdülməcid Tebbunun himayəsi altında keçirilib.

FƏTH və HƏMAS liderləri sonuncu dəfə 2016-cı ildə şəxsən görüşüblər. Mahmud Abbasın ozamankı həmsöhbəti HƏMAS-ın digər lideri Xalid Məşəl olub.

Fələstinin iki aparıcı təşkilatı arasında münaqişə 2007-ci ildə HƏMAS-ın Qəzza bölməsində hakimiyyəti ələ keçirməsi və Mahmud Abbasın başçılıq etdiyi Fələstin Milli Administrasiyasının oradan çıxarılması nəticəsində baş verib. İki qruplaşma arasında 2007-ci ildə qanlı toqquşmalar baş verəndən Qəzzada və Qərb Sahilində fələstinlilər ayrılıqda idarə olunurlar.

Bundan bir il əvvəl HƏMAS işğal olunmuş ərazilərdə keçirilən parlament seçkilərində qalib gəlmişdi və Qəzzada FƏTH idarəçiliyinə son qoyaraq, orada öz hakimiyyətini gücləndirmişdi.

FƏTH və HƏMAS-ı barışdırmaq və Fələstinarası birliyin bərpası üçün dəfələrlə cəhdlər edilsə də, indiyədək uğurlu nəticə verməyib. Həmçinin 16 ildən artıqdır ki, Fələstində ümumi seçkilər təşkil etmək mümkün olmayıb.

→ 7

# Ramana yeni simada

## Prezidentin tapşırığı ilə qəsəbədə yenidənqurma işləri həyata keçirilib, yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələr işıqlandırılıb












**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub. AZƏRTAC xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov qəsəbədə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.**

**Bünyad QASIMOV:** Cənab Prezident, bu, yeni işıqlandırma sistemidir.

**Prezident İlham ƏLİYEV:** Qənaətlə işləyir?

**Bünyad QASIMOV:** Cənab Prezident, bunlar yerli, Azərbaycanda istehsal olunan divarüstü işıqlardır. Bütün kənd 100 faiz tam işıqlıdır.

**Prezident İlham ƏLİYEV:** İşıqlandırılıb. İş yerləri də yaradılıb.

**Bünyad QASIMOV:** 300 iş yeri artıq mövcuddur. Planlaşdırmışıq ilin sonuna qədər 450-yə qədər iş yeri açdıraq.

Bildirildi ki, Ramana qəsəbəsində yenidənqurma işləri yekunlaşıb, qəsəbədaxili yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələrin işıqlandırılması həyata keçirilib. Qəsəbənin Həsənbəy Zərdabi, Xanlar, Mirzəağa Əliyev, Əbdürrəhim bəy Haqverdiyev və qəbiristanlıqətrafı küçələri tamamilə yenilənib. Həmçinin ərazi tullantılardan təmizlənib.

Diqqətə çatdırıldı ki, Ramana qəsəbəsi Abşeron ərazisində turizm marşrutlarına daxil edilə biləcək abidələrlə zəngindir. Onlardan biri qəsəbənin girişində əzəməti ilə diqqəti cəlb edən, XII-XIV əsrlərə aid olduğu bildirilən Ramana qalası yüksək nöqtədə yerləşir. Ehtimal edilir ki, divarlarının hündürlüyü 15 metr olan qala müdafiə məqsədilə tikilib və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Məşhur "Koroğlu", "Nəsimi" və "Babək" filmlərinin müəyyən səhnələri Ramana qalasında çəkilib.

Dövlət başçısı qalada aparılan bərpa işləri ilə tanış oldu.

Ramananın qədim abidələrindən biri də Novruzqulu hamamıdır. Prezident İlham Əliyevə bu qədim hamam barədə də məlumat verildi. Bildirildi ki, keçmişdə hamamda dörd quyu fəaliyyət göstərsə də, indi onlardan üçü mövcuddur. Novruzqulu Babakişi oğlunun adını daşıyan hamam Abşeron yarımadasında yeganə tikilidir ki, onun sənədləri toplanıb və təsdiqlənib. Hamamın binasında keyfiyyətli bərpa işləri görülüb.

Qeyd edilib ki, Ramanada yenidənqurma işləri zamanı ətraf mühitin qorunması, qəsəbənin ekoloji vəziyyəti prioritet məsələlərdən biri olub.

Dövlət başçısına Ramanada əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər barədə də məlumat verildi. Qeyd edildi ki, qəsəbədə xalçaçılıq müəssisəsi və satış mağazası açılıb. Yaradılan yeni iaşə və xidmət obyektlərində məhsulların istehsalı və satışı həyata keçirilir. Bu obyektlər müştərilərə yüksək səviyyədə xidmət göstərmək, onların rahatlığını təmin etmək üçün zəruri vasitələr və avadanlıqlarla təchiz olunub.

Məlumat verildi ki, Pirşağıda hazırlanan quru meyvələrin satışı da Ramanada həyata keçiriləcək. Səyyar satış obyektləri və köşklərin quraşdırılması ilə məşğulluğun artırılmasına nail olmaq, həmçinin yerli əhali və turistlərin ehtiyaclarını qarşılamaq mümkündür.

Ramanada reallaşdırılan layihələrdən biri də vertikal bağçılıq layihəsidir. Layihənin məqsədi özünüməşğulluğun artırılmasına, aztəminatlı ailələrin daha çox gəlir əldə etməsinə və ailə təsərrüfatlarının inkişafına dəstək olmaq, həmçinin yaşıllıqların genişləndirilməsinə, bitkiçiliyin və kənd təsərrüfatı məhsulları emalının inkişafına töhfə verməkdir.

Dövlət başçısı Ramanadakı evlərdən birinin həyətində qəsəbə sakini ilə söhbət etdi.

**Prezident İlham ƏLİYEV:** Salam, necəsən?

**Sakin:** Sağ olun, yaxşıyam.

**Prezident İlham ƏLİYEV:** Sənin evindir?

**Sakin:** Bəli. Yeni abadlaşdırılmış Ramana kəndimizə xoş gəlmisiniz. Hər zaman Siz gələsiniz.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol.

**Sakin:** Gördüyünüz bu evdə şəhid əmim Allahverdi Allahverdiyev qalıb.

**Prezident İlham ƏLİYEV:** Birinci Qarabağ müharibəsi şəhidi?

**Sakin:** Bəli, Birinci Qarabağ müharibəsinin veteranı Fərzəli Fərzəliyev babamdır, əmim də var Namiq Allahverdiyev, o da müharibə veteranıdır.

*Ardı 3-cü səh.*

# Ramana yeni simada

## Prezidentin tapşırığı ilə qəsəbədə yenidənqurma işləri həyata keçirilib, yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələr işıqlandırılıb

*Əvvəli 2-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Sən bu işlə də məşğul olursan?

**Sakin:** Bəli, cənab Prezident.

**Bünyad QASIMOV:** Damcı üsulu ilə suvarmadır.

**Prezident İlham ƏLİYEV:** Çiyələkdir?

**Bünyad QASIMOV:** Bəli, çiyələkdir. Yenidir, 10-15 gün olar. Bir-iki aydan sonra buralar hamısı yaşıl olacaq, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı.

**Bünyad QASIMOV:** Qışda göyərti, yayda da çiyələk əkilir.

**Prezident İlham ƏLİYEV:** Görürəm bu ev də, həyəti də təmir olunub.

**Bünyad QASIMOV:** Ümumiyyətlə, Sizin tapşırığınıza və göstərişinizə əsasən evlərin damları, qapıları, divarları, darvazaları əsaslı təmir edilib. Şəhid və veteran ailələrinin evlərinə xüsusi diqqət yetirilib.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Sağ olun.

Ramana həm də ovdanları ilə məşhurdur. Qəsəbədə bərpa olunan tarixi abidələrdən biri də el arasında 40 pillə adlanan su ovdanıdır. Azərbaycan ərazisində, Abşeron yarımadasında və ona qonşu ərazilərdə ovdanlara daha çox təsadüf edilir. Bu yerlərdə içməli su mənbələri çox az olduğundan XVI-XVIII əsrlərdə içmək üçün yararlı olan lay sularından istifadə edilməsi məsələsi aktuallaşıb və ovdanlar yaradılıb. Bu qurğuların tikintisi XX əsrə qədər davam edib.

Prezident İlham Əliyevə su ovdanında görülən təmir-bərpa işləri barədə məlumat verildi.

Ramana sakinlərinin həm sağlam həyat tərzi, həm də asudə vaxtlarını səmərəli keçirmələri üçün qəsəbədə İdman mərkəzi inşa olunub. Mərkəzdə qapalı idman zalı, minifutbol meydançası yaradılıb.

Dövlət başçısı Ramana İdman Mərkəzində yaradılan şəraitlə də tanış oldu.


























# Milli Məclisin Sədri Sahibə Qafarova videokonfrans formatında seçicilərin növbəti qəbulunu keçirib

**Milli Məclisin Sədri, 98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat Sahibə Qafarova iyulun 6-da seçicilərin növbəti qəbulunu keçirib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, videoqəbulda seçicilərin müraciətləri dinlənilib, onları narahat edən məsələlərlə bağlı lazımi tədbirlər görülüb.

Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, rifah halının daha da yaxşılaşdırılması, şəhid ailələrinin və qazilərin sosial problemlərinin həlli daim diqqət mərkəzindədir. Bununla bağlı mütəmadi tədbirlər həyata keçirilir.

Milli Məclisin Sədri videoqəbulda regionlarda həyata keçirilən abadlıq və quruculuq işlərinin regionlarımızın inkişafı baxımından əhəmiyyətindən danışıb. Bildirib ki, regionlarımızın inkişaf etdirilməsi ilə yanaşı, hazırda 44 günlük Vətən müharibəsində qazandığımız böyük Qələbə nəticəsində işğaldan azad olunmuş ərazilərimizdə sürətli və genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Azərbaycan bütün bu işləri öz vəsaiti və imkanları hesabına həyata keçirir.

Videogörüşdə seçicilərin müraciətlərində əksini tapan bir sıra məsələlər yerində həll olunub, bir qisim müraciətlərin isə araşdırılması üçün aidiyyəti orqanlara sorğular göndərilib.

# Azərbaycanın Daxili İşlər Nazirliyi Türkiyənin hüquq-mühafizə orqanları ilə münasibətlərin inkişafına böyük önəm verir

Azərbaycan və Türkiyə respublikalarının Daxili İşlər nazirlikləri arasında Bakıda keçiriləcək polis əməkdaşlığı üzrə 7-ci işçi görüşdə iştirak etmək üçün Türkiyənin Daxili İşlər Nazirliyinin Emniyyet genel müdirinin müavini, general-mayor Resul Holoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 6-da nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan nazir Türkiyə ilə Azərbaycan arasında əlaqələrin, strateji əməkdaşlığın və qarşılıqlı münasibətlərin getdikcə daha da dərinləşdiyini məmnunluqla vurğulayıb. Azərbaycan Respublikasının son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan sabitliyin yaradıldığını, onun dönməzliyinin təmin olunduğunu qeyd edən nazir bildirib ki, kriminogen durumun tam nəzarətə götürülməsi, sabitliyin bərpası ilk növbədə vətəndaşlarımızın, həmçinin əcnəbilərin, o cümlədən türkiyəli iş adamlarının respublikamızda təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradıb.

Qeyd olunub ki, Azərbaycanın Daxili İşlər Nazirliyi qardaş Türkiyənin hüquq-mühafizə orqanları ilə münasibətlərin istər ikitərəfli, istərsə də çoxtərəfli formatda inkişaf etdirilməsinə böyük önəm verir. Bu əlaqələrin normativ-hüquqi bazası ilk növbədə qarşılıqlı hüquqi yardım göstərilməsi, təcrübə mübadiləsi, dostluq və strateji əməkdaşlığın hərtərəfli inkişaf etdirilməsi barədə dövlətlərarası müqavilələrə əsaslanır.

Nazir Vilayət Eyvazov polis əməkdaşlığı üzrə keçirilən işçi görüşlərinin Daxili İşlər nazirlikləri arasındakı əlaqələrin daha da genişlənməsinə təkan verəcəyinə əminliyini ifadə edib.

Nümayəndə heyətinin rəhbəri general-mayor Resul Holoğlu görüşə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın hər hansı iki dövlət arasındakı əlaqələrə bənzəmədiyini vurğulayaraq, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən məmnunluğunu ifadə edib.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə bir sıra digər məsələlər də müzakirə edilib.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki səfiri Cahit Bağçı da iştirak edib.

## Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

İyulun 5-i gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutublar.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

## Silah təmiri sexi fəaliyyətə başlayıb

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "Bakı Qaz Tikinti Detal" Zavodunun bazasında yaradılan "N" hərbi hissəsi Azərbaycan Ordusunda mövcud tank və zirehli avtomobil texnikasının, raket-artilleriya silahlarının müharibə və sülh şəraitində əsaslı təmiri üzrə ixtisaslaşdırılıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, təmir zamanı texnoloji ardıcıllığa riayət olunur, texnikanın mühərrikinə, hərəkət hissəsinə, rabitə avadanlıqlarına və silahlarına tələb olunan qaydada zəmanət verilir. "N" hərbi hissəsinin tərkibində fəaliyyət göstərən və yeni istifadəyə verilən silah təmiri sexində əsasən raket-artilleriya silahlarının, onların avadanlıqlarının, geritəpmə qurğusunun və digər hissələrinin təmiri təmir texnologiyasına uyğun həyata keçirilir.

Sexdə təmir olunan bütün silahlar təmirdən sonra poliqon sınaqlarında atışla yoxlanılır.

Qeyd edək ki, yeni təmir sexi istifadəyə verilən hərbi hissə 1992-ci ildən fəaliyyət göstərir.

# Bakıda Azərbaycan-Türkiyə əməkdaşlığına həsr olunmuş xüsusi sessiya keçirilib

İyulun 6-da Bakıda Azərbaycan-Türkiyə əməkdaşlığına həsr olunmuş "Caspian Energy Forumu"n xüsusi sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən "Caspian Energy Club"un (CEC) sədri və qrupun baş icraçı direktoru Telman Əliyev sessiyanın əhəmiyyətinə toxunaraq bu gün keçirilən görüşdə əsas məqsədin Azərbaycan və Türkiyə sahibkarlarına dəstək olduğunu bildirib: "Son illər Azərbaycan ilə Türkiyə arasında münasibətlər yüksələn xətlə inkişaf edir. İki qardaş ölkə arasında ticarət dövriyyəsi artıb. Bugünkü xüsusi sessiyada Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB), "Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri" İctimai Birliyi (TÜİB) və CEC arasında memorandum imzalanacaq. Memorandum çərçivəsində "Caspian Energy Forumu" artıq Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan və Avropa İttifaqı ölkələri arasında sahibkarların birgə forumuna çevriləcək".

Sonra çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı bugünkü tədbirin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb və qeyd edib ki, dünyanın geosiyasi dəyişikliyinə uyğun Türkiyə-Azərbaycan münasibətlərinin səviyyəsi Türk Dövlətləri Təşkilatına örnəkdir.

Onun sözlərinə görə, Qarabağ Zəfəri Türkiyə-Azərbaycan münasibətləri baxımından, bölgə baxımından mühüm əhəmiyyətə malikdir: "Qarabağ Zəfəri 44 gündə qazanılıb, Bakının azad edilməsi də 45 gün ərzində əldə edilib. 44 Azərbaycan tarixində simvolik rəqəmdir. Türkiyə və Azərbaycan geopolitik dəyişikliyi yaxşı bilir. Bu geopolitik dəyişikliyə uyğun bir əməkdaşlıq modeli inkişaf etdirilib".

Səfir həmçinin xatırladıb ki, 2021-ci ilin iyunun 15-də Qafqazın incisi olan Şuşada Bəyannamə imzalanıb və siyasi iradə ortaya qoyulub: "Bu Bəyannamənin imzalanması ilə strateji əməkdaşlığımız artıq müttəfiqlik səviyyəsinə çatıb. Bu sənəd hər iki ölkənin Milli Məclislərində təsdiq edilib və Türkiyə Azərbaycan arasındakı münasibətlərin hər sahədə genişləndirilməsi və dərinləşdirilməsinə töhfə vermək, əgər bu münasibətlərin önündə əngəllər varsa, əngəllərin aradan qaldırılması üçün işlərin aparılmasına dair bir təlimatdır".

Sonra çıxış edən Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) rəhbəri Yusif Abdullayev bildirib ki, iki ölkə arasında ticarət əlaqələri durmadan inkişaf edir. Belə ki, cari ilin yanvar-may aylarında ticarət dövriyyəsinin həcmi 2,45 milyard ABŞ dolları olub və bu da ötən ilin eyni dövrü ilə müqayisədə 31,4 faiz çoxdur.

Yusif Abdullayev diqqətə çatdırıb ki, Azərbaycanın azad edilmiş ərazilərində fəaliyyət göstərmək üçün 1200-dən çox müraciət daxil olub. Bu müraciətlər KOBİA vasitəsilə qəbul edilir: "Müraciətlərdən 400-ə yaxını xarici ölkələrə məxsus təşkilatlardır. Onlardan da 100-ü Türkiyə şirkətləridir. İstərdim ki, bu rəqəm daha da artsın. Ölkələrimiz arasında ticarət əlaqələri durmadan inkişaf edir".

AZPROMO-nun rəhbəri xatırladıb ki, ötən il Azərbaycanın Türkiyəyə ixracı 12 faiz artaraq 4,7 milyard ABŞ dolları olub. Türkiyə şirkətləri bu vaxtadək 300-ə qədər dövlət layihələrində iştirak edib və onun həcmi 17 milyard ABŞ dollarına çatıb.

Tədbir çərçivəsində ATİB, TÜİB və CEC arasında anlaşma memorandumu imzalanıb. Memorandumu ATİB-in İdarə Heyətinin sədr müavini Mürsəl Rüstəmov, TÜİB-in İdarə Heyətinin sədri Hüseyn Böyükfırat, CEC adından Telman Əliyev imzalayıblar.

Tədbirdə həmçinin memorandumda imzalanan qələmlər auksiona çıxarılıb. Satılan qələmlərdən əldə olunan məbləğ "YAŞAT" Fonduna ianə ediləcək.

Tədbir "Azərbaycan və Türkiyə şirkətlərinin regionların inkişafında rolu" və "Azərbaycan və Türkiyə sahibkarlarının beynəlxalq arenada əməkdaşlığı" mövzularında öz işini davam etdirib.

# Gənclər fondunun yenidən formalaşdırılmış Müşahidə Şurasının ilk iclası



Prezident İlham Əliyevin 2022-ci il 7 iyun tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Gənclər Fondunun yenidən formalaşdırılmış Müşahidə Şurasının ilk iclası keçirilib.

Fondun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Müşahidə şurasının sədri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyevin rəhbərliyi ilə keçirilən iclasda şuranın yeni üzvləri və fondun icraçı direktoru iştirak ediblər.

Əvvəlcə Fondun Müşahidə Şurasının sədri və yeni üzvləri göstərilən etimada görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Y.Məmmədəliyev iclasda vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətləri gənclərin yüksəksəviyyəli təhsil almaları, xalqımızın zəngin ənənələri, milli-mənəvi dəyərləri ruhunda yetişmələri, ölkənin ictimai-siyasi, mədəni həyatına, dövlət idarəçiliyinə cəlb olunmaları, fəal və sağlam həyat tərzi sürmələrini təmin etməkdən ibarətdir.

Sonra Gənclər fondunun dövlət gənclər siyasətinin səmərəli icrasına töhfə verməsi istiqamətində gördüyü işlərə nəzər yetirilib, fondun 10 illik fəaliyyətinə dair hesabat və bu müddət ərzində icra olunmuş genişmiqyaslı müxtəlif proqramlar barədə təqdimatlar dinlənilib. Həmçinin cari il üzrə fəaliyyət planı çərçivəsində dövlət başçısı tərəfindən 2022-ci ilin "Şuşa ili" elan olunması ilə əlaqədar gənclər təşkilatları və gənclərin iştirakı ilə keçiriləcək tədbirlər planı müzakirə olunub.

İclasda fondun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə bir sıra tənzimləyici sənədlərə və fondun strukturuna dəyişikliklər edilməsi ilə bağlı qərar verilib.

Müşahidə şurasının qərarı ilə fond tərəfindən gənclər üçün yeni formatda fərdi qrant müsabiqəsi elan edilib və bununla bağlı elan fondun müvafiq internet resurslarında (internet səhifəsi, GENCAPP - mobil tətbiq və sosial şəbəkələrdə) yerləşdirilib.

Qeyd edək ki, Müşahidə şurasının yeni tərkibinə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, təhsil nazirinin müavini Muxtar Məmmədov, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) sədri Azər Əliyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədri Pərviz Mirələmli, Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) İdarə Heyətinin üzvü Emiliya Bayramova, Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının (ASAP) İdarə Heyətinin üzvü Bəxtiyar İslamov daxildirlər.

# Ermənistan tərəfindən İrəvan şəhərinin sonuncu tarixi nümunəsi də məhv edilməkdədir

## Azərbaycanın elm və ictimai xadimləri Təpəbaşı məhəlləsi ilə bağlı UNESCO-ya müraciət ünvanlayıblar

**Uzun illərdir ki, Ermənistanda Azərbaycan xalqının tarixi-mədəni irsi dağıdılır, saxtalaşdırılır.**

Bir zamanlar qədim Azərbaycan torpaqlarında dövlət yaradan erməni vandalları zaman keçdikcə həmin ərazilərdən yerli əhalini qovmaq üçün bütün vasitələrdən istifadə etdilər, hər cür hiyləyə əl atdılar, qırğınlar törətməkdən, günahsız insanları kütləvi şəkildə qətlə yetirməkdən belə çəkinmədilər. Elə təkcə ötən əsrdə müxtəlif vaxtlarda azərbaycanlıların deportasiya olunmasına nail oldular. Məqsəd də həmin yerləri tamamilə ələ keçirib azərbaycanlılarsız qoymaq idi. 1980-ci illərin sonlarında buna nail oldular. Minlərlə azərbaycanlını doğma yurdundan, isti ocağından didərgin saldılar. Azərbaycanlıların izlərinin o yerlərdən silinməsi üçün qəddarlıqla həyata keçirilən işlər 1990-cı illərdən daha geniş vüsət aldı.

Həmin illərdə Ermənistan xarici ölkələrdən aldığı yardımlar sayəsində müstəqilliyinə yeni qovuşmuş, hələ tənəzzülə uğramış iqtisadiyyatını dirçəltməyə, ordusunu qurmağa macal tapmamış Azərbaycana qarşı növbəti torpaq iddiaları irəli sürdü. Hədəfində bu dəfə Qarabağ və Şərqi Azərbaycan torpaqları var idi. 1990-cı illərdə Ermənistan həmin əraziləri də işğal etdi.

2020-ci ildə müzəffər Azərbaycan Ordusu Qarabağı və Şərqi Zəngəzur erməni əsirliyindən xilas etdi. Erməni vandalizminin miqyası yalnız Azərbaycan xalqını deyil, bütün dünyanı heyrətə saldı. Otuz ilə yaxın işğal altında saxladıqları əraziləri xarabalığa çevirmiş, nəinki evləri, inzibati binaları, hətta təkcə Azərbaycan xalqı üçün deyil, bütün bəşəriyyət üçün müstəsna tarixi əhəmiyyətə malik olan abidələri uçurub dağıtmışdılar.

Təəssüf ki, Azərbaycan tarixində, mədəniyyətində müstəsna yeri olan qədim İrəvan şəhəri uzun illərdir ki, eyni aqibəti yaşayır. Beynəlxalq qanunlara əhəmiyyət verməyən, dünya cəmiyyətinin qınağından çəkinməyən ermənilər tərəfindən İrəvan şəhərində Azərbaycan irsi bir əsrdir ki, sistemli şəkildə dağıdılır. Artıq Azərbaycanın milli-mədəni, tarixi irsinin sonuncusu olan Təpəbaşı məhəlləsi məhv edilməkdədir.

Ermənistanın paytaxtı İrəvan şəhərində yerləşən Təpəbaşı məhəlləsi ərazisində xalqımızın irsinə qarşı həyata keçirilən mədəni soyqırım ilə bağlı Azərbaycanın elm və ictimaiyyət xadimləri UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlayıblar. 102 nəfər tanınmış elm və ictimai xadim imzaladığı müraciətdə UNESCO-nun bütün dünyada bəşəriyyət üçün müstəsna dəyər hesab olunan mədəni və təbii irsin müəyyən edilməsini, qorunmasını və mühafizəsini təşviq etməyə çalışdığı vurğulanıb. Bildirilib ki, bu, UNESCO tərəfindən qəbul edilmiş müxtəlif konvensiyalarda öz əksini tapıb. Ümumdünya irsinə aid olan obyektlər yerləşdikləri ərazidən asılı olmayaraq, bütün dünya xalqlarına məxsusdur: "Tarixi şəhərlər və bu şəhərlərin əraziləri cəmiyyətin təkamülünü və onun mədəni kimliyini təsvir edən məkan formasiyalarıdır. Onlar böyük təbii, yaxud süni mühitin bir hissəsidir və bir-birindən ayrıla bilməz. Tarixi şəhərlər onları formalaşdıran keçmişin canlı sübutudur".

Müraciətdə hazırda Ermənistanın paytaxtı İrəvan şəhərində yerləşən maddi-mədəni irs nümunələrinin yaşının heç 200 ilə də çatmadığı, səbəbləri tarixşünaslıqda bəlli olsa da, dünya ictimaiyyətinin bundan xəbərsizliyi diqqətə çatdırılıb. Bəs nə üçün bu şəhərdə yaşı 200 ilə yaxın və daha çox olan heç bir maddi mədəniyyət nümunələri yoxdur və ya qalmayıb? Bu sualın cavabı aydın şəkildə müraciətdə verilib: "Bu abidələr Azərbaycan xalqına məxsus maddi-mədəni irs nümunələri olduğundan ermənilər tərəfindən məhv edilmiş və günümüzə qədər gəlib çatmamışdır.

Bu gün Ermənistanın paytaxtı İrəvan şəhərində Azərbaycan xalqına məxsus sonuncu maddi-mədəni irs nümunələri də məhv edilmək üzrədir. Bu müraciət Sizin rəhbəri olduğunuz mötəbər təşkilatı Azərbaycan xalqının bütün dünya xalqlarına məxsus olan sonuncu maddi-mədəni irsini xilas etmək üçün səfərbər olmağa dəvət edən həyəcan siqnalıdır".

Müraciətdə tarixi faktlar nəzərə çatdırılıb, İrəvan şəhərinin qala istisna olmaqla Şəhər, Dəmirbulaq və Təpəbaşı hissələrinə bölündüyü, hər birində də şəhər yaranandan XX əsrin əvvəllərinədək azərbaycanlıların yaşadıqları qeyd olunub. Vurğulanıb ki, xalqımız XIX-XX əsrlər ərzində indiki Ermənistanın ərazisində azərbaycanlılara qarşı məqsədyönlü və mərhələli şəkildə həyata keçirilən etnik təmizləmə nəticəsində böyük milli faciə yaşayıb. Nəticədə indi Ermənistan adlanan dövlətin ərazisində heç bir azərbaycanlı qalmayıb. Müraciətdə daha sonra qeyd olunub: "Zaman-zaman Azərbaycan xalqına qarşı aparılan qeyri-insani siyasət Ermənistan tərəfindən Azərbaycan abidələrinə qarşı da davam etdirilib. Nəticə etibarilə Azərbaycan xalqının İrəvan şəhərində mövcud olmuş İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi, Zal xan məscidi, Dəmirbulaq məscidi, Sərtip xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər məscidi, Qantar (bazarı) karvansarası, Hacı bəyim hamamı, Hacı Əli hamamı, Axund Şeyxülislam hamamı və bu kimi bir çox digər dini və tarixi abidələri məhv edilib. Hazırda İrəvanda mövcud olan iki məscidi - Hacı İmamverdi məscidi və Göy məscidi isə Ermənistan fars məscidi adlandıraraq taleyin hökmünə buraxıb. Bu gün XVII əsrə aid olan Hacı İmamverdi məscidi tamamilə yox olmaq üzrədir".

Azərbaycan xalqının tarixinin saxtalaşdırılması məqsədilə daha bir addım 2006-cı ildə atılıb. Ermənistanda təsdiq edilən İrəvan şəhərinin baş planında fars memarlığı kimi təqdim olunan azərbaycanlılara məxsus memarlıq nümunələrinin yerləşdiyi altı ərazi göstərilib. Müraciətdə vurğulanıb: "2006-cı ildə həmin ərazilərin ümumi ölçüsü 29 hektar idi. Onlardan bu gün yalnız Təpəbaşı hissəsi (16 hektar) qalmaqdadır. Cəmi 16 il ərzində Ermənistanda Azərbaycan xalqına məxsus memarlıq üslubunda tarixi şəhər sayıla biləcək 13 hektar sahə tamamilə məhv edilərək yerində müxtəlif infrastrukturlar inşa olunub".

UNESCO-nun Baş direktoru Odre Azuleyin diqqətinə çatdırılıb ki, Təpəbaşı məhəlləsi İrəvan şəhərinin günümüzə qədər gəlib çatmış yeganə tarixi nümunəsidir: "Tarixən azərbaycanlıların yaşadığı və hazırda 16 hektara qədər kiçildilən Təpəbaşı məhəlləsi günümüzdə məhv olmaq və yer üzündən silinmək təhlükəsi ilə üz-üzədir. Ermənistanda azərbaycanlıların yaratdıqları maddi-mədəni irs haqqında məlumatlar gizlədilir və hissə-hissə dağıdılır. Ermənistan rəhbərliyi artıq bir müddətdir ki, Təpəbaşı hissəsini tamamilə dağıdaraq yerində müasir yaşayış binaları inşa etməyi planlaşdırır. Onlar bu yolla bir zamanlar İrəvanın əsas sakinləri olan azərbaycanlıların sonuncu nişanəsini - tarixi kodunu məhv etmək istəyirlər".

Nəzərə çatdırılıb ki, Təpəbaşı hissəsinin taleyi ilə bağlı erməni ictimaiyyəti ilə Ermənistan dövləti arasında uzun illərdir müzakirələr gedir, lakin bütün bu müzakirələrdə Azərbaycan xalqının maddi-mədəni irsi məhvə məhkum edilir.

Müraciətdə bildirilib ki, 2022-ci il 4 fevralda Azərbaycan, Fransa, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurasının rəhbərinin videoformatda görüşünün nəticəsi olaraq həm də UNESCO-nun Ermənistana və Azərbaycana missiyalarının həyata keçirilməsi planlaşdırılıb, Azərbaycan cəmiyyəti uzun zamandır bu xəbəri gözləyirdi: "Biz UNESCO-ya müraciət edərək xahiş edirik ki, səfər zamanı öz üzərinə öhdəlik götürən Ermənistanın paytaxtı İrəvanda yerləşən tarixi Təpəbaşı məhəlləsi də missiyanın gedəcəyi ünvanlardan biri olsun. Ümid edirik ki, UNESCO-nun missiyasının fəaliyyətinə Ermənistanda maneə törədilməyəcəkdir.

Bu səbəbdən hələ də Azərbaycan xalqının İrəvan şəhərində tamamilə yer üzündən silinməmiş yeganə memarlıq kompleksində Ermənistanın və Azərbaycanın səlahiyyətli idarələri ilə əməkdaşlıq edərək tarix və mədəniyyət abidələrinin hazırkı vəziyyətini qeydə almağa və gələcək monitorinqi, onun nəticələrinin dərcini təmin etməyə təcili ehtiyac var".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın elm və ictimaiyyət xadimləri İrəvandakı Təpəbaşı məhəlləsində xalqımızın tarixi-mədəni irsinə qarşı soyqırımı ilə bağlı UNESCO-ya müraciət ünvanlayıblar

Azərbaycanın elm və ictimaiyyət xadimləri Ermənistanın paytaxtı İrəvan şəhərində yerləşən Təpəbaşı məhəlləsi ərazisində Azərbaycan xalqının tarixi-mədəni irsinə qarşı həyata keçirilən soyqırımı ilə bağlı UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlayıblar. Müraciəti 102 nəfər tanınmış elm və ictimai xadim imzalayıb. AZƏRTAC müraciəti təqdim edir.

"Hörmətli Baş direktor.

UNESCO bütün dünyada bəşəriyyət üçün müstəsna dəyər hesab olunan mədəni və təbii irsin müəyyən edilməsini, qorunmasını və mühafizəsini təşviq etməyə çalışır. Bu, UNESCO tərəfindən qəbul edilmiş müxtəlif konvensiyalarda öz əksini tapıb. Ümumdünya irsinə aid olan obyektlər yerləşdikləri ərazidən asılı olmayaraq, bütün dünya xalqlarına məxsusdur.

Tarixi şəhərlər və bu şəhərlərin əraziləri cəmiyyətin təkamülünü və onun mədəni kimliyini təsvir edən məkan formasiyalarıdır. Onlar böyük təbii, yaxud süni mühitin bir hissəsidir və bir-birindən ayrıla bilməz. Tarixi şəhərlər onları formalaşdıran keçmişin canlı sübutudur.

Hazırda Ermənistanın paytaxtı İrəvan şəhərində yerləşən maddi-mədəni irs nümunələrinin yaşı heç 200 ilə də çatmır. Bunun səbəbləri tarixşünaslıqda bəlli olsa da, dünya ictimaiyyəti bundan xəbərsizdir. Bəs nə üçün bu şəhərdə yaşı 200 ilə yaxın və daha çox olan heç bir maddi mədəniyyət nümunələri yoxdur və ya qalmayıb? Sualın cavabı çox sadədir. Bu abidələr Azərbaycan xalqına məxsus maddi-mədəni irs nümunələri olduğundan, ermənilər tərəfindən məhv edilmiş və günümüzə qədər gəlib çatmamışdır.

Bu gün Ermənistanın paytaxtı İrəvan şəhərində Azərbaycan xalqına məxsus sonuncu maddi-mədəni irs nümunələri də məhv edilmək üzrədir. Bu müraciət Sizin rəhbəri olduğunuz mötəbər təşkilatı Azərbaycan xalqının bütün dünya xalqlarına məxsus olan sonuncu maddi-mədəni irsini xilas etmək üçün səfərbər olmağa dəvət edən həyəcan siqnalıdır.

İrəvan şəhəri qala istisna olmaqla Şəhər, Dəmirbulaq və Təpəbaşı hissələrinə bölünürdü. İrəvanın bu hissələrinin hər birində şəhər yaranandan XX əsrin əvvəllərinə qədər azərbaycanlılar yaşayıblar.

Azərbaycan xalqı XIX-XX əsrlər ərzində indiki Ermənistanın ərazisində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə nəticəsində böyük milli faciə yaşayıb. Bu milli faciə mərhələli şəkildə həyata keçirilib və nəticədə indi Ermənistan adlanan dövlətin ərazisində heç bir azərbaycanlı qalmayıb. Min illər boyu öz torpağına bağlı olan azərbaycanlılar doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalıb, Azərbaycan xalqına məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılaraq viran edilib. Zaman-zaman Azərbaycan xalqına qarşı aparılan qeyri-insani siyasət Ermənistan tərəfindən Azərbaycan abidələrinə qarşı da davam etdirilib. Nəticə etibarilə, Azərbaycan xalqının İrəvan şəhərində mövcud olmuş İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi, Zal xan məscidi, Dəmirbulaq məscidi, Sərtip xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər məscidi, Qantar (bazarı) karvansarası, Hacı bəyim hamamı, Hacı Əli hamamı, Axund Şeyxülislam hamamı və bu kimi bir çox digər dini və tarixi abidələri məhv edilib. Hazırda İrəvanda mövcud olan iki məscidi - Hacı İmamverdi məscidi və Göy məscidi isə Ermənistan fars məscidi adlandıraraq taleyin hökmünə buraxıb. Bu gün XVII əsrə aid olan Hacı İmamverdi məscidi tamamilə yox olmaq üzrədir.

2006-cı ildə Ermənistanda təsdiq edilən İrəvan şəhərinin baş planında fars memarlığı kimi təqdim olunan azərbaycanlılara məxsus memarlıq nümunələrinin yerləşdiyi altı ərazi göstərilmişdir. 2006-cı ildə həmin ərazilərin ümumi ölçüsü 29 hektar idi. Onlardan bu gün yalnız Təpəbaşı hissəsi (16 hektar) qalmaqdadır. Cəmi 16 il ərzində Ermənistanda Azərbaycan xalqına məxsus memarlıq üslubunda tarixi şəhər sayıla biləcək 13 hektar sahə tamamilə məhv edilərək yerində müxtəlif infrastrukturlar inşa olunub.

Tarixi İrəvan şəhəri XX əsrdə ən böyük dağıntılara məruz qalan şəhərlərdən biridir. Onun XX əsrdə dağıdılması siyasi məqsədlər daşımış və müasir İrəvan şəhərinin indiki simasının qurulmasına xidmət etmişdir. Tədqiqatlar bu şəhərin dərin qatlarında hələ də Azərbaycan şəhərinə aid məlumatların qaldığını söyləməyə imkan verir. Lakin Ermənistan üzərində yaşadığı bu tarixi məkanın torpaq altında qalan mədəni irsini qəbul etmədiyi üçün dağıntıları bu qatlarda da davam etdirir. Buna sübut kimi 2003-cü ildə İrəvan şəhərinin Respublika meydanında aparılan qazıntı işlərini də göstərmək olar. Belə ki, Ermənistan rəhbərliyi qazıntı nəticəsində torpaq altında qalmış azərbaycanlı-müsəlman memarlığının nümunələri aşkar olunan zaman qəfildən abidənin üzərini yenidən torpaqla örtmək tapşırığı verib. Ermənistan hökuməti bütün beynəlxalq normaları və qanunvericiliyi pozaraq bu aktı törədib.

Hörmətli Baş direktor.

İrəvan şəhərinin tarixini bu gün özündə əks etdirən və azərbaycanlıların mədəni irsinin yeganə sübutu olaraq qalan məkan Təpəbaşı məhəlləsidir. Təpəbaşı (ermənilər Kond adlandırırlar) İrəvan şəhərinin günümüzə qədər gəlib çatmış yeganə tarixi nümunəsidir. Bu hissə öz yaddaşında İrəvanın XVII əsrdən müasir dövrümüzə qədər olan tarixi kodunu daşımaqdadır. Tarixən azərbaycanlıların yaşadığı və hazırda 16 hektara qədər kiçildilən Təpəbaşı məhəlləsi günümüzdə məhv olmaq və Yer üzündən silinmək təhlükəsi ilə üzüzədir. Ermənistanda azərbaycanlıların yaratdıqları maddi-mədəni irs haqqında məlumatlar gizlədilir və hissə-hissə dağıdılır. Ermənistan rəhbərliyi artıq bir müddətdir ki, Təpəbaşı hissəsini tamamilə dağıdaraq yerində müasir yaşayış binaları inşa etməyi planlaşdırır. Onlar bu yolla bir zamanlar İrəvanın əsas sakinləri olan azərbaycanlıların sonuncu nişanəsini - tarixi kodunu məhv etmək istəyirlər.

Təpəbaşı Azərbaycan mədəniyyəti, o cümlədən bəşər mədəniyyəti üçün son dərəcə önəmli əhəmiyyət kəsb edir. Tarixi İrəvan şəhərinin özəyi sayılan bu hissə vahid tarixi-şəhərsalma mühitini özündə əks etdirir.

Şəhərin Təpəbaşı hissəsinə ermənilərin köçürülməsi Çar Rusiyasının 1828-ci ildən sonra qonşu dövlətlərdən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi siyasəti ilə başlayıb. Təkcə bu köçürmə nəticəsində cəmi 374 nəfər İrandan, 18 nəfər isə Türkiyədən gələn erməni İrəvan şəhərinin Təpəbaşı hissəsində azərbaycanlı ailələrin evlərinə müvəqqəti olaraq yerləşdirilib. Köçüb gələn ermənilər sonradan Təpəbaşıda yerləşən Xan bağı adı ilə tanınan yerdə onlara ayrılmış torpaq sahələrində məskunlaşdırılıblar. Göründüyü kimi, 190 il öncə baş vermiş bu ilk etnik təmas Təpəbaşı hissəsinin etnik tərkibini dəyişə bilməyib və əzəldən bəri orada yaşayan azərbaycanlılar yenə də daimi sakinlər olublar.

XIX əsrin I yarısında Təpəbaşı hissəsində yerləşən küçə və məhəllələrin adları Azərbaycan adları idi. Məsələn, Dərəkənd, Axund, Xan bağları, eləcə də Əsəd bəy, Adalyar, Təpəbaşı, İmarət və Daşlı küçələrini sadalamaq olar. Hazırda Ermənistan milli arxivində saxlanılan kameral təsvirlər həmin küçə və məhəllələrin 190 il öncə inventarlaşdırılmasını və etnik tərkibini göstərən sübutlardır. Təpəbaşı öz memarlığı və tarixi ilə Azərbaycan tarixinin bir hissəsini təşkil edirdi.

Bunu İrəvan şəhərinin sonrakı dövrlərə aid planlarında da görmək mümkündür. Belə ki, 1831-1832-ci illərə aid kameral təsvirlər göstərir ki, şəhərin Təpəbaşı hissəsindəki məhəllə və küçələr sonrakı dövrlərdə də eyni adla və eyni etnik tərkiblə qalmışdır. İstər 1880-ci illərə aid şəhər planı, istərsə də B.Mehrabovun 1906-1911-ci illərə aid İrəvan şəhərinin planı deyilənləri bir daha sübut edir. Təpəbaşı hissəsində mövcud olan küçə adları XX əsrin əvvəllərində də Azərbaycan dilində adlandırılırdı. Bütün bunları dövrün arxiv sənədləri də təsdiqləyir. XIX əsr boyunca ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsinə baxmayaraq, İrəvan şəhərinin əhalisinin etnik tərkibində yenə də azərbaycanlıların üstünlük təşkil etdiyi aydın görünür.

Vaxtilə azərbaycanlılardan ibarət olan bu məhəllənin etnik tərkibi tarixin üç mərhələsində (1918-1920-ci, 1948-1953-cü, 1988-ci il illər) süni şəkildə dəyişdirilib və bu gün ermənilərdən ibarət monoetnik məhəlləyə çevrilib. Burada yaşayan insanlar özlərini yerli irəvanlı adlandırsalar da, onların çox kiçik bir qismi daha öncədən bu ərazidə yaşadığına dair sübutlar gətirə bilir. Lakin burada yaşayanların böyük hissəsi 1920-ci illərdə hələ İrəvan adlandırılan şəhərə qonşu dövlətlərdən köçürülən ermənilərdən ibarətdir. Həm Ermənistan, həm də Azərbaycan arxivlərində bunu sübut edən minlərlə sənəd saxlanılmaqdadır.

Ermənistan dövləti Təpəbaşıda yerləşən Hacı İmamverdi (Təpəbaşı) məscidinin tarixini saxtalaşdıraraq fars məscidi kimi dövlət qeydiyyatına alsa da, abidənin qorunması ilə bağlı heç bir tədbir görülmür və onun uçulub dağılmasına şərait yaradılır.

Uzun illərdir ki, Təpəbaşı hissəsinin taleyi ilə bağlı erməni ictimaiyyəti ilə Ermənistan dövləti arasında müzakirələr getməkdədir. Lakin bütün bu müzakirələrdə Azərbaycan xalqının maddi-mədəni irsi məhvə məhkum edilir.

2022-ci il 4 fevral tarixində Azərbaycan, Fransa, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurasının rəhbərinin videoformatda görüşünün nəticəsi olaraq həm də UNESCO-nun Ermənistana və Azərbaycana missiyalarının həyata keçirilməsi planlaşdırılıb. Azərbaycan cəmiyyəti uzun zamandır bu xəbəri gözləyirdi.

Biz UNESCO-ya müraciət edərək xahiş edirik ki, səfər zamanı öz üzərinə öhdəlik götürən Ermənistanın paytaxtı İrəvanda yerləşən tarixi Təpəbaşı məhəlləsi də missiyanın gedəcəyi ünvanlardan biri olsun. Ümid edirik ki, UNESCO-nun missiyasının fəaliyyətinə Ermənistanda maneə törədilməyəcəkdir.

Bu səbəbdən hələ də Azərbaycan xalqının İrəvan şəhərində tamamilə Yer üzündən silinməmiş yeganə memarlıq kompleksində Ermənistanın və Azərbaycanın səlahiyyətli idarələri ilə əməkdaşlıq edərək tarix və mədəniyyət abidələrinin hazırkı vəziyyətini qeydə almağa və gələcək monitorinqi, onun nəticələrinin dərcini təmin etməyə təcili ehtiyac var.

İnanırıq ki, Siz öz nüfuzunuz və səylərinizlə beynəlxalq konvensiyalarda müəyyən edilmiş prinsiplərə uyğun olaraq İrəvan şəhərində Azərbaycan abidələrinin bütöv və təhlükəsiz mühafizəsi, bərpası, konservasiyası və s. üzrə məsuliyyəti Ermənistanın öz üzərinə götürməsinə töhfə verəcəksiniz. Belə olduğu təqdirdə bəşəriyyətin maddi-mədəni irsinin tərkib hissəsi olan İrəvan şəhərinin tarixi Təpəbaşı məhəlləsi növbəti vandalizmdən xilas edilmiş olacaq.

Biz - aşağıda imza edənlər Sizdən xahiş edirik ki, İrəvan şəhərinin Təpəbaşı hissəsində tarixən azərbaycanlılara məxsus olmuş məhəllə sisteminin və bu məhəllələrdə mövcud olan abidələrin dağılmasının qarşısının alınmasında və onların xüsusi qorunma altına alınmasına kömək edəsiniz.

**MÜRACİƏTİ İMZALAYANLAR:**

***Arif Həşimov,***
*Texnika üzrə elmlər doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, AMEA-nın prezidenti vəzifəsini icra edən*

***Gövhər Baxşəliyeva,***
*Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti*

***İsa Həbibbəyli,***
*Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti*

***Yaqub Mahmudov,***
*Tarix üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü*

***Şahin Mustafayev,***
*Tarix üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü, AMEA-nın Şərqşünaslıq İnstitutu*

***Nərgiz Axundova,***
*Tarix üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü, AMEA-nın Tarix İnstitutu*

***Nailə Vəlixanlı,***
*Tarix üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi*

***Anar İsgəndərov,***
*Tarix üzrə elmlər doktoru, professor, Milli Məclisin deputatı*

***Əziz Ələkbərli,***
*Filologiya üzrə fəlsəfə doktoru, dosent, Milli Məclisin deputatı*

*və digərləri. Cəmi 102 imza*



# Vətənə ürəkdən bağlılıq

## Dünyadakı həmvətənlərimizin Azərbaycan sevgisi İkinci Qarabağ müharibəsində bir daha təntənəli şəkildə nümayiş olundu

Ruhumuzun diriliş, milli kimliyimizin oyanış günü kimi tarixə həkk olunan 44 günlük Vətən müharibəsi illərdir zəfərə, qalibiyyətə susamış Azərbaycan xalqını dünyanın dörd bir yanında ayağa qaldırdı. Xalqımız tariximizin heç bir dönəmində rastlanmayan həmrəylik nümayiş etdirərək, haqq savaşımız uğrunda irəli atıldı, bu zəfər tağının hörülməsində hər kəsin zərrə də olsa, payı oldu.

Tək ölkəmizin daxilində deyil, onun hüdudlarından kənarda yaşayan soydaşlarımız da bu amal uğrunda birləşərək beynəlxalq aləmə səsimizi çatdırmaq, həqiqətlərimizi anlatmaq üçün informasiya cəbhəsində mübarizəyə başladılar, müxtəlif aksiyalar düzənlədilər və ayaq açıb yeriməyə çalışan erməni yalanlarının qarşısında keçilməz səddə çevrildilər, Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" haqq nidasına dəstək verdilər.

Elə bu möhtəşəm birlik sayəsində də Azərbaycan xalqı 2020-ci ilin 8 noyabrını, Vətən qibləmiz Şuşanın azadlığı - Qarabağ Zəfəri kimi möcüzəvi tarixə çevirərək salnamələrə qızıl hərflərlə yazdı.

### Həmrəyliyin qürur tarixi

Azərbaycanda diaspor quruculuğunun banisi Ümummilli Lider Heydər Əliyevdir. Bu fenomen şəxsiyyətin azərbaycançılıq ideyasının uğurlu inkişafında və həmrəylik zirvəsinə ucalmasında müstəsna xidmətləri olub.

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib. Həmin vaxtdan bütün dünyada azərbaycanlılar bu günü böyük sevinc və qürurla bayram kimi qeyd edirlər.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Milli həmrəyliyimizin nümayişi olan bu möhtəşəm qurultayda Ümummilli Lider nitqində bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır deyə xüsusi vurğulamışdı. Vaxtilə Ümummilli Liderin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı həmrəyliyimizin əsas kod cümləsi kimi bu gün də dillər əzbəridir.

### 20 illik fəaliyyət gündəliyi

Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası da irəli sürüldü, 5 iyul 2002-ci ildə isə Heydər Əliyevin fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Prezident İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli sərəncamı ilə isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi, dövlət başçısının 2018-ci il 5 iyul tarixli fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradıldı. Fond bu illərdə 200-ə yaxın diaspor təşkilatının sənədlərinin həmin ölkələrin qanunvericiliyinə uyğun tərtib edilməsinə və qeydiyyatdan keçməsinə dəstək göstərdi, 100-dən çox layihəni maliyyələşdirdi.

Azərbaycan diasporunun birliyinə nail olunması və sistemli işin təşkil edilməsi məqsədilə 2019-2023-cü illər üçün Strateji Yol Xəritəsi hazırlandı. Məhz vahid ideya və maraqlar uğrunda dövlət-diaspor əməkdaşlığının inkişafı, qüvvələrin ümumi məqsəd naminə birləşməsi, xüsusən, böhranlı vəziyyətlərdə düşünülmüş çevik planın olması istiqamətində iş aparıldı. Bu iş istər koronavirus pandemiyası, istərsə də Vətən müharibəsi dönəmində sistemli şəkildə həyata keçirildi.

### 30 ölkə, on minlərlə diaspor üzvü, 300-dən artıq aksiya

Bu istiqamətdə ən mühüm və strateji məsələlərdən biri də Azərbaycan və Türk diasporunun birgə fəaliyyətinin təmin olunmasıdır. Qardaş ölkələrimizin dövlət başçıları daim bu məsələyə xüsusi diqqət yetiriblər.

Ötən il iyunun 15-də Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsinə uyğun olaraq, Azərbaycan və Türk diasporları arasında qarşılıqlı əməkdaşlıq, dəstək və həmrəylik fəaliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.

Onu da bildirək ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün təşkil olunan mitinq və aksiyalarda Azərbaycan və Türk diasporunun on minlərlə üzvü yüksək fəallıq nümayiş etdirib. Xüsusi vurğulamaq lazımdır ki, "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində, həmçinin 2020-ci ilin Tovuz döyüşləri və Vətən müharibəsi zamanı Avropanın 30 ölkəsində on minlərlə diaspor üzvünün iştirakı ilə 300-dən artıq aksiya keçirilib.

Diaspor gənclərinin fəallığının artırılması, milli kimliyin qorunub-saxlanılması və liderlik potensialının inkişaf etdirilməsi məqsədilə Azərbaycan Diaspor Gəncləri şəbəkəsi formalaşdırılıb. Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımızın da diqqət və qayğı ilə əhatə olunmasına daim həssas münasibət göstərir. 2020-ci ildə Nazirlər Kabineti "Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi qaydası"nı təsdiqləyib. Komitə ilə rahat əlaqə yaratmaq üçün müasir informasiya texnologiyaları tətbiq edilib və qurum "Elektron hökumət" portalına inteqrasiya olunub.

### "Qarabağ" adlı həftəsonu Azərbaycan məktəbləri fəaliyyətlərini genişləndirir

Hazırda dünyanın 31 ölkəsini əhatə edən və 130 diaspor təşkilatını özündə birləşdirən 14 Koordinasiya Şurası, 12 ölkədə 18 Azərbaycan Evi fəaliyyət göstərir. COVID-19 pandemiyası ilə əlaqədar sərhədlərin bağlanması ilə, eləcə də Ukraynada baş verən hadisələrlə əlaqədar təxliyə olunan soydaşlarımız Azərbaycan evlərinə üz tutublar.

Eləcə də COVID-19 pandemiyası zamanı Dövlət Komitəsi tərəfindən fasiləsiz fəaliyyət göstərən qərargah yaradılıb, Koordinasiya şuraları və Azərbaycan evləri gücləndirilmiş rejimdə çalışıblar. Pandemiya dövründə təkcə Dövlət Komitəsinin "qaynar xətt"inə 18 minə yaxın zəng, Azərbaycan evlərinə, Koordinasiya şuralarına ümumilikdə 51 ölkədən 9 minə yaxın müraciət daxil olub. Habelə 33 ölkə üzrə 6857 soydaşımıza maddi yardım edilib, sərhədlərin qapanması ilə əlaqədar azərbaycanlıların təxliyəsinə dəstək göstərilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə "Qarabağ" adlı həftəsonu Azərbaycan məktəbləri fəaliyyətlərini genişləndirir. Hazırda Ottava, Nant, Bern, Varşava, Stokholm, London kimi şəhərlərdə fəaliyyət göstərən "Qarabağ məktəbi"ndə yüzlərlə azərbaycanlı uşaq təhsil alır. Həmçinin 6-10 yaşlı azərbaycanlı uşaqlar üçün müasir üslubda hazırlanmış "Azərbaycan dili" dərsliyi çap edilərək xaricdəki soydaşlarımıza göndərilib.

### Zəfər titullu qurultay

Dünya azərbaycanlılarının ötən müddətdə baş tutan möhtəşəm qurultaylarının isə həmrəyliyimiz, milli maraqlar uğrunda təşkilatlanmağımız istiqamətində müstəsna əhəmiyyəti olub.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının II qurultayı Prezident İlham Əliyevin sərəncamına əsasən, 2006-cı ildə, III qurultayı 2011-ci ildə, IV qurultayı isə 2016-cı ildə keçirilib.

Dünya Azərbaycanlılarının V qurultayı isə tariximizə Zəfər qurultayı kimi fəxarətli titulla düşdü. Parlaq zəfərimizdən sonra, ilk dəfə 2022-ci ilin aprelində dünya azərbaycanlıları işğaldan azad olunmuş Qarabağda, Şuşada toplaşdılar, qurultay keçirdilər. 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonağın iştirak etdiyi Zəfər qurultayında dünya azərbaycanlıları bir daha öz sarsılmaz və əbədi həmrəyliklərini dünyaya bəyan etdilər.

Bu möhtəşəm tədbirdəki çıxışı zamanı Prezident İlham Əliyev xüsusilə vurğuladı ki, son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə: "Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, - onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, - azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır".

Şuşada baş tutan tarixi qurultayda dövlət başçısı onu da söylədi ki, biz hamımız - Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar - xüsusilə işğaldan azad edilmiş torpaqlara getmək üçün.

### Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqda uğurlu fəaliyyət

Bəli, Vətən müharibəsində diaspor nümayəndələrimiz yüksək təşkilatlanma və birlik nümayiş etdirərək, beynəlxalq ictimaiyyətə Azərbaycan həqiqətlərinin çatdırılmasında uğurlu fəaliyyət göstərdilər.

Həmvətənlərimizin arasındakı bu tarixi birlik hər ötən gün daha da möhkəmlənir və güclənir. Eyni zamanda bundan sonrakı fəaliyyətlərində də diaspor nümayəndələrimizin üzərinə son dərəcə mühüm vəzifə düşür. Çünki bu gün ön cəbhədə müharibə bitsə də, diplomatiya, informasiya sferasında hələ də savaş davam edir. Elə bu baxımdan xüsusilə xaricdə yaşayan azərbaycanlılar fəal olmalı və yaşadıqları ölkələrdə işlərini diaspor fəaliyyətindən lobbiçiliyə keçirmək istiqamətində möhkəm addımlar atmalıdırlar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR dirçəliş yolundadır



**44 günlük Vətən müharibəsində tarixi qələbədən sonra regionda, o cümlədən ölkəmizdə yeni hərbi, siyasi və iqtisadi reallıqlar yarandı və xüsusən sosial-iqtisadi sahədə həlli vacib olan məsələlər gündəmə gəldi. İlk növbədə işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üçün tədbirlər görmək lazım idi və bu səbəbdən Prezident İlham Əliyev bir sıra mühüm qərarlar qəbul etdi.**



# Hərbi zəfərin siyasi rəmzi

**İlham Əliyev bir il öncə iqtisadi rayonların yeni bölgüsünü müəyyənləşdirməklə həm də tarixi ədaləti bərpa etdi**

Şanlı zəfərin yaratdığı yeni reallıqlardan biri də iqtisadi rayonların bölgüsünün yenilənməsi oldu. Bu yenilik işğaldan azad edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi, eləcə də əhalinin doğma torpaqlarına qayıdışı üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasını şərtləndirən prioritet məsələ idi.

Bütün bunları əsas tutaraq Prezident İlham Əliyev 2012-ci il iyulun 7-də yeni fərman imzaladı. Bu tarixi sənədlə Azərbaycanın mövcud iqtisadi rayonlarının sayı 10-dan 14-ə yüksəldi.

## Regionların inkişafı - 19 ildə 4 dövlət proqramının uğurlu icrası

Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra - 1991-ci ildən bu zamanadək regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları 10 iqtisadi rayon üzrə həyata keçirilirdi. 30 il ərzində Ermənistanın işğalı altında qalmış ərazilərdə yerləşən Ağdam və Füzuli rayonlarının bir hissəsi, keçmiş Dağlıq Qarabağ ərazisinə daxil olan ərazilər və Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər rayonları bu proqramların təsir dairəsindən kənarda qalmışdılar.

Buna baxmayaraq, ötən müddət ərzində digər şəhər və rayonların davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası nəticəsində ölkəmizin sosial-iqtisadi potensialı və əhalinin, o cümlədən hər zaman dövlət tərəfindən böyük diqqət və qayğı ilə əhatələnən qaçqın və məcburi köçkün ailələrinin rifah halı köklü şəkildə yüksəlib.

Bu bir həqiqətdir ki, 2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yeni inkişaf konsepsiyasına uyğun müasir iqtisadi inkişaf strategiyası həyata keçirilməyə başlanıldı. Dövlət başçısının prezidentlik fəaliyyətində verdiyi ilk fərmanlar da məhz sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri və regionların sosial-iqtisadi inkişafı haqqında oldu.

Bu strategiyanın həyata keçirilməsində, o cümlədən ölkənin regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində qəbul edilmiş dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə) böyük əhəmiyyət kəsb etmişdir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır. Bu dövlət proqramları sayəsində regionların siması büsbütün dəyişmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətinin daha da gücləndirilməsinə və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına əsaslı zəmin yaratmışdı.

**1991-2021-ci illərdə mövcud olmuş iqtisadi rayonlar:**

1. Abşeron
2. Quba-Xaçmaz
3. Dağlıq Şirvan
4. Şəki-Zaqatala
5. Aran
6. Gəncə-Qazax
7. Yuxarı Qarabağ
8. Kəlbəcər-Laçın
9. Lənkəran
10. Naxçıvan

**Müasir iqtisadi rayonların yeni bölgüsü:**

1. Bakı
2. Naxçıvan
3. Abşeron
4. Dağlıq Şirvan
5. Gəncə-Daşkəsən
6. Qarabağ
7. Qazax-Tovuz
8. Quba-Xaçmaz
9. Lənkəran-Astara
10. Mərkəzi Aran
11. Mil-Muğan
12. Şəki-Zaqatala
13. Şərqi Zəngəzur
14. Şirvan-Salyan

Hazırda isə işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.

## Yeni iqtisadi rayonların - Qarabağ və Şərqi Zəngəzurun tərkibinin müəyyənləşdirilməsi

İşğaldan azad edilmiş ərazilər üzrə yaradılan yeni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tərkibinin müəyyənləşdirilməsi isə Prezidentin fərmanında aydın şəkildə izah edilib. Dövlət başçısı qeyd edib ki, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edib.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla, özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik olan qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması zərurətini ortaya çıxarıb.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edib.

Beləliklə də, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarının daxil olduğu Şərqi Zəngəzur və Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil olmaqla, Qarabağ iqtisadi rayonları yaradılıb.

Bununla da iqtisadi rayonlarımızın sayı 14-ə yüksəlib. Ötən müddət ərzində Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar yaradıb. Zəngəzur dəhlizi vasitəsilə Naxçıvan Muxtar Respublikasına və qardaş Türkiyəyə çıxış təmin olunacaq. Bu da Şərqi Zəngəzur iqtisadi rayonunun həm də strateji, coğrafi baxımdan əhəmiyyətini göstərən amillərdən biridir.

Yəni İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunu yaratmaqla həm də tarixi ədaləti bərpa etdi. Eyni zamanda Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması Azərbaycan dövlətinin Qərbi Zəngəzura qayıdış hədəfinin də rəsmi elan edilməsi hesab oluna bilər. Bununla İlham Əliyev dövlətin gələcək strategiyasını açıq elan edib.

Əvvəlki təsnifatda Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları mövcud idi. Lakin yeni təsnifatda Qarabağ bölgəsində yerləşən rayonlar Qarabağ iqtisadi rayonunda yer alır. Şərqi Zəngəzur isə həmin bölgənin iqtisadi potensialından istifadə edilməsi və genişləndirilməsi baxımından vacibdir. Qarabağ iqtisadi rayonunun həm sənaye, həm turizm, həm də aqrar sektorda böyük potensialı var, Şərqi Zəngəzur da kifayət qədər böyük imkanlara malik iqtisadi rayondur.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misli görünməmiş tikinti-quruculuq və bərpa işləri, müxtəlif təyinatlı sosial-infrastruktur layihələri, böyük qayıdışın reallaşmasını təmin edəcək yaşayış sahələrinin tikintisi Prezidentin bir il öncə imzaladığı tarixi fərmanın uğurlu göstəricisidir. Yəni bu sənəd iqtisadi rayonların yeni bölgüsü, xüsusən Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına mühüm töhfə verib.

Dünya bazarında neftin qiymətinin artması ilə dövlət büdcəsində edilən dəyişiklik də bu prosesin daha da sürətlənməsinə real zəmin yaradıb. Qeyd edək ki, dövlət büdcəsindən işğaldan azad edilmiş torpaqlarımızdakı bərpa və quruculuq işləri üçün həm 2021, həm də 2022-ci ildə 2,2 milyard manat vəsait ayrılıb. Büdcəyə edilən dəyişiklikdən sonra bu vəsaitin həcmi daha 470 milyon manat artırılıb. Beləliklə, son iki ildə işğaldan azad olunmuş ərazilərdəki işlərlə bağlı bütövlükdə 4 milyard 870 milyon manat vəsaitin ayrılması göstərir ki, dövlət Qarabağ və Şərqi Zəngəzuru tezliklə dünyanın ən gözəl məkanlarından birinə çevirəcək.

Bir sözlə, İlham Əliyevin bu fərmanı qalib sərkərdənin tarixi və siyasi uzaqgörənliyinin daha bir nümunəsi kimi dəyərləndirilməlidir. Çünki iqtisadi rayonların yeni bölgüsü strateji yanaşma və Azərbaycanın uğurlu sabahı ilə bağlı daha nikbin proqnozlara əsas verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İnkişafa hədəflənən yeni reallıqlar

Qəhrəmanlar o adamlardır ki, həyat üçün şücaət göstərir, qurub-yaradır, ölümə qalib gəlirlər. Müzəffər Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində ölümə qalib gələrək düşmənin 30 illik hiyləsini yendi...

Düşmən bu 30 ildə təkcə torpaqlarımızı işğal edib insanlarımızı yurdlarından didərgin salmamışdı. Həm də işğal etdikləri ərazilərdə hər nə var idisə, tar-mar edib həyatı dondurmuşdular. Yağının keçdiyi, "məskən saldığı" o torpaqlarda yalnız viran qalmış evlər, xarabazarlıqlar qalmışdı. Əslində, ermənilər törətdikləri vəhşiliklərlə xislətlərini, mahiyyətlərini ortaya qoymuşdular. Bəlkə də ermənilər bu torpaqların sahibi olmadıqlarını, gəldikləri kimi bir gün də gedəcəklərini dərk etmişdilər. Amma insanlığa yaraşmayan vəhşiliklərindən də əl çəkməmişdilər.

Bu gün qalib Azərbaycan əsgərinin keçdiyi o torpaqların hər qarışına yenidən həyat verilir. Yollar çəkilir, kəndlər salınır, infrastruktur bərpa edilir... Bütün dünya Qarabağa süngü ilə deyil, ürəklə, diləklə gəldiyimizi görür, niyyətimizi anlayır. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı siyasət, işğaldan azad olunmuş torpaqlarda gördüyü abadlıq-quruculuq işləri onun tarixə yaradıcı Prezident kimi düşdüyünü təsdiqləyir.

## İradə zəfərin başlıca səbəbidir

Azərbaycan əsgərinin dönməzliyi, cəsarəti döyüş meydanında göstərdiyi hünər, Ali Baş Komandanın qətiyyəti, dəmir iradəsi və aparılan ardıcıl, praqmatik siyasət zəfərimizin başlıca səbəbi oldu. 44 günlük Vətən müharibəsi zamanı və qazanılan böyük qələbədən sonra da yalnız ermənilərlə yox, onları himayə edən havadarları ilə də mübarizə apardığımız heç kimə sirr deyil. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş ermənilər onlara lobbiçilik edən bir sıra oturuşmuş dövlətləri müxtəlif vasitələrlə Azərbaycana təzyiq göstərməyə çalışdıqları mürəkkəb bir zamanda Azərbaycan Prezidenti çox mühüm bir fərman imzalayaraq iqtisadi rayonların yeni bölgüsünü təsdiq etdi. Dövlət başçısı bu fərmanı ilə ölkə iqtisadiyyatının idarə edilməsinin strateji mexanizmlərinin yenilənməsinə start verdi. Prezidentin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocavənd, Şuşa və Tərtər rayonlarının daxil olduğu Qarabağ iqtisadi rayonu, eləcə də Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarını əhatə edən Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı.

Fərmanda qeyd edilir ki, işğaldan azad olunmuş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu tədbirlərin daha səmərəli təşkilində yeni iqtisadi rayonlaşmanın strateji əhəmiyyəti böyükdür.

Yeni bölgüdə məqsəd həmin ərazilərin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməkdir.

## Tarixi dəyərlərə sədaqət

Bu fərmanla ölkə Prezidenti tarixi dəyərlərə sədaqət hissini bir daha nümayiş etdirdi. Tarixdən məlumdur ki, Zəngəzur qəzası 1861-ci ildə yaradılmışdır. Azərbaycan Demokratik Cümhuriyyətinin qəzalarından biri də Zəngəzur adlandırılmışdır.

Ərazisi 7892 kvadrat kilometr olan, Qafan, Gorus, Qarakilsə, Mehri, Zəngilan, Qubadlı və Laçın rayonunun bir hissəsini əhatə edən Zəngəzur qəzasında XX əsrin əvvəllərində azərbaycanlıların yaşadığı 313 kənd, ermənilərin isə yaşadığı 1 kənd mövcud idi. 44 günlük Vətən müharibəsində bu ərazinin 4505,5 kvadrat kilometri düşmən işğalından azad olunmuşdur. Azərbaycanlıların vaxtilə kompakt halında yaşadıqları Zəngəzurun qərb hissəsi - Qafan şəhəri, Gorus, Qarakilsə və Mehri rayonları təəssüf ki, indi Ermənistan ərazisi hesab edilir. 1920-ci il dekabrın 1-də qəbul edilən qərarla Zəngəzuru Ermənistana veriblər. Sovetlər birliyi dönəmində ermənilər Zəngəzur adını xəritədən silməyə çalışıb, həmin ərazilərdə yeni rayonlar yaradıb, tarixi abidələrimizi məhv edib saxtalaşdırsalar da, Zəngəzuru yaddaşımızdan silə bilmədilər.

"Şərqi Zəngəzur" iqtisadi rayonunun yaradılması həm də tarixi ədalətin bərpasıdır. Eyni zamanda belə bir iqtisadi rayonun yaranması həm də dünya ictimaiyyətinə verilən ciddi bir mesajdır. İstər-istəməz Şərqi Zəngəzur ifadəsini eşidən hər kəs bu ərazilərin Qərbi və onun tarixi keçmişi ilə də maraqlanır. Zəngəzur Avrasiyanı birləşdirən mühüm strateji əhəmiyyətli bir məkandır. Mərkəzi Asiyanın qapısıdır. Elə sovetlərin bu ərazilərimizi vaxtilə bizdən alıb ermənilərə verməkdə məqsədləri də bu qapını üzümüzə bağlamaq idi. Bir məqsədləri də Türkiyə ilə aramızda bufer zonası yaratmaq idi. Zəngəzur dəhlizinin geosiyasi və geostrateji baxımdan əhəmiyyətini qeyd edərək 31 mart 2021-ci ildə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında çıxışında Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli Bəyanatda, xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda böyük siyasi qələbəmizdir... Qədim Azərbaycan torpağı olan Zəngəzur, indi türk dünyasının birləşməsi rolunu oynayacaq".

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması iqtisadi qüdrətimizə güc qatıb. Bu gün həmin rayonlara sürətlə yol çəkilir. Laçında beynəlxalq hava limanı tikilir. Zəngilanın nəhəng logistik mərkəzinə çevriləcəyi şübhəsizdir. Kəlbəcər rayonu faydalı qazıntıları ilə məşhurdur. Necə deyərlər, yerin altı da, üstü də qızıldır. Bu rayonlarda turizmin inkişafı üçün hər cür şərait var. Hazırda Prezident İlham Əliyevin nəzarəti altında bu ərazilərdə sürətlə quruculuq və tikinti işləri gedir. Bu iki yeni iqtisadi rayonun yaranmasında strateji məqsəd Zəngəzur dəhlizi vasitəsilə Qərblə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi durur. Sözsüz ki, reallaşmaqda olan proqram ölkəmizin rəqabət qabiliyyətini yüksəltməklə siyasi və iqtisadi qüdrətini də dəfələrlə artıracaqdır.

Qurmaq, yaratmaq, dövlətimizin sülhpərvərliyinin, xalqımızın barış içində yaşamaq niyyətinin ən bariz ifadəsidir. Əgər ciddi hərbi məğlubiyyətə uğrayıb dalana dirənmiş Ermənistan Azərbaycanın sülh təklifləri ilə razılaşmayıb özünütəcrid yolunu seçəcəksə, bu yol onları növbəti fəlakətə aparacaq.



***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Baş nazirin müavini Şahin Mustafayev İranın energetika naziri ilə görüşüb

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev iyulun 6-da İran İslam Respublikasının energetika naziri Əli Əkbər Mehrabian ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında ali səviyyəli siyasi dialoqun mövcud olduğu qeyd edilib, iyunun 29-da Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin görüşünün önəmi vurğulanıb.

Azərbaycan ilə İran arasında müxtəlif istiqamətlərdə, xüsusilə də ticarət-iqtisadi, nəqliyyat, energetika, mədəniyyət sahələrində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Mütəmadi təmasların və qarşılıqlı səfərlərin münasibətlərin inkişafında rolu yüksək qiymətləndirilib.

Söhbət zamanı energetika sahəsində səmərəli əməkdaşlığın davam etdiyi diqqətə çatdırılıb. Azərbaycan ilə İran arasında elektrik enerjisinin plana uyğun olaraq mübadilə edildiyi bildirilib, iki ölkənin elektrik sistemlərinin birləşdirilməsi istiqamətində görülən işlər müzakirə olunub.

Eyni zamanda Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su-elektrik stansiyalarının tikintisinin gedişi, habelə bölgədə yaranmış yeni reallıqlar nəzərə alınmaqla həyata keçiriləcək bir sıra yeni layihələrə dair fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə daha da genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Azərbaycan və İran birgə enerji layihələrinin icrasını müzakirə ediblər





Energetika Nazirliyində energetika naziri Pərviz Şahbazov ilə İranın energetika naziri Əli Əkbər Mehrabian arasında geniş tərkibli görüş keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında ortaq tarixi və dost münasibətlərin inkişafına dövlət başçıları tərəfindən xüsusi önəm verildiyi qeyd edilib. Bu yaxınlarda Azərbaycan və İran Prezidentlərinin Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı çərçivəsində keçirilmiş görüşünün gələcək əməkdaşlıq üçün əhəmiyyətindən bəhs edilib. Bir çox sahələrdə olduğu kimi, ikitərəfli enerji əməkdaşlığı ilə bağlı da qarşıya mühüm vəzifələrin qoyulduğu və bu görüşün birgə həyata keçirilən enerji layihələrinin inkişafına töhfə verəcəyi bildirilib.

Görüşdə "Xudafərin" və "Qız qalası" hidroqovşaqları və su-elektrik stansiyaları layihəsinin icrasından irəli gələn məsələlər və atılacaq növbəti addımlar müzakirə edilib. Hidroqovşaqlar və su-elektrik stansiyaları ilə bağlı işlərin sürətləndirilməsinin vacibliyi vurğulanıb və inşa prosesinin tezliklə yekunlaşdırılmasının hər iki ölkə üçün əhəmiyyətli olacağı bildirilib.

Müzakirələr zamanı iki ölkənin energetika sahəsində əməkdaşlıq gündəliyində olan digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycanın xarici işlər naziri AQEM-in icraçı direktoru ilə görüşüb

İyulun 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) icraçı direktoru Kayrat Sarıbay ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov icraçı direktoru salamlayıb və Azərbaycanın AQEM çərçivəsində əməkdaşlığa əhəmiyyət verdiyini söyləyib. Nazir hazırkı dövrdə regional əməkdaşlıq formatlarının əhəmiyyətinin ön plana çıxdığını deyib. Bu xüsusda, Azərbaycanın da iştirakı ilə həyata keçirilən üçtərəfli əməkdaşlıq formatları, o cümlədən bu yaxınlarda Bakıda keçirilən Azərbaycan-Qazaxıstan-Türkiyə xarici işlər və nəqliyyat nazirlərinin konfransı qeyd edilib. Nəqliyyat bağlantı mövzusunun, eləcə də Şərq-Qərb Orta dəhlizin inkişafının önəm kəsb etdiyi vurğulanıb. İcraçı direktor Kayrat Sarıbay Azərbaycana səfər proqramının kifayət qədər maraqlı olduğunu, o cümlədən aidiyyəti qurumlarla keçirilən görüşlərinin AQEM üçün əhəmiyyət kəsb edən mövzular üzrə ətraflı məlumatın əldə edilməsi baxımından faydalı olduğunu ifadə edib. O, Azərbaycanın AQEM çərçivəsində hər zaman fəal iştirakını məmnunluqla qeyd edib. Nəqliyyat bağlantı mövzusunun AQEM üçün hazırda ən aktual məsələlərdən biri olduğunu söyləyən K.Sarıbay bu xüsusda Azərbaycanın konstruktiv mövqeyi ilə seçildiyini vurğulayıb.

Görüşdə tərəflər AQEM-in transformasiyası, qurumun fəaliyyətinin birgə maraq doğuran və aktual məsələlər üzrə istiqamətlənməsi, qarşıdan gələn Zirvə görüşünə hazırlıq, habelə regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Şeyxülislam Allahşükür Paşazadə Böyük Britaniyada keçirilən konfransda iştirak edib

İyulun 6-da Böyük Britaniyada Din və Etiqad Azadlığı üzrə Nazirlər Konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Britaniyanın dövlət naziri Lord Tariq Əhmədin dəvəti ilə konfransda iştirak edib.

Dünyanın bütün qitələrindən ümumiyyətlə 700-dən çox qonağın qatıldığı konfransın açılış mərasimində Uels şahzadəsi Çarlzın və Baş nazir Boris Consonun videomüraciətləri səsləndirilib.

Tədbirdə Britaniyanın xarici işlər naziri Liz Trass və müavini Lord Tariq Əhməd çıxış edərək din azadlığının əhəmiyyəti və antisemitizm, islamofobiya, induofobiya, xristianofobiya kimi meyillərin artmağa doğru olduğunu bildiriblər. Onlar söyləyiblər ki, nifrətə çağırışlar toqquşmalara və soyqırımlarına gətirib çıxarır.

Sonra Şeyxülislam Allahşükür Paşazadə Böyük Britaniyanın Baş nazirinin dəvətilə az sayda seçilmiş qonağın iştirak etdiyi "Dauninq Strit"də rəsmi qəbulda olub.

Səfər çərçivəsində şeyxülislam Anqlikan kilsəsinin lideri Arxiyepiskop Castin Velbi ilə də görüşüb. Arxiyepiskop Castin Velbi Şeyxülislam Allahşükür Paşazadəni gördüyünə şad olduğunu bildirib. Öz növbəsində Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə də onu Azərbaycana dəvət edib.

Daha sonra şeyxülislam dövlət naziri Vimbeldon lordu Tariq Əhməd ilə görüşüb. Allahşükür Paşazadə konfransa dəvətə görə Lord Tariq Əhmədə təşəkkür edib, Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını ona çatdırıb. Görüş zamanı nazir Tariq Əhməd Azərbaycan Prezidenti İlham Əliyevin apardığı din-dövlət siyasətini, Azərbaycanın uğurlarını yüksək qiymətləndirdiyini qeyd edib.

O, Allahşükür Paşazadə kimi dünya miqyasında dinlərarası dialoq sahəsində böyük xidmətləri olan şəxsin konfransda iştirakının tədbirə əlavə dəyər qatdığını qeyd edib. Qafqaz Müsəlmanları İdarəsinin sədri Lord Tariq Əhmədi Azərbaycana dəvət edib.

Həmçinin şeyxülislam konfransda iştirak edən Britaniya yəhudi icmasının baş ravvini Efraim Mirvis, BMT Baş katibinin müavini, Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anhel Moratinos, Simon Vizental Mərkəzinin rəhbəri Abraham Kuper, Qazaxıstanın informasiya və sosial inkişaf naziri Askar Omarov, Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaski, Özbəkistanın ədliyyə naziri Ruslanbek Davletov, Finlandiyanın müsəlman icmasının rəhbəri Atik Ali və başqaları ilə də görüşüb.

# Azərbaycan və Türkiyə arasında sosial müdafiə sahəsində əməkdaşlıq genişlənir

Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə Türkiyənin ailə və sosial xidmətlər naziri Dərya Yanık arasında videokonfrans formatında görüş olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev Azərbaycan və Türkiyə arasındakı sarsılmaz dostluq, qardaşlıq və xalqların birliyi amilinə əsaslanan strateji tərəfdaşlığın daim inkişaf etdiyini, bu sahədə iki qardaş ölkənin dövlət başçılarının birgə səylərinin mühüm rolunu vurğulayıb. 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin siyasi və mənəvi dəstəyinin hər bir Azərbaycan vətəndaşını qürurlandırdığını qeyd edib.

Nazir ötən dövrdə ölkəmizdə aparılan sosial islahatlar və onların müsbət nəticələri, DOST konsepsiyası, şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri, postmüharibə dövründə şəhid ailələri və qazilərlə əlaqədar sosial dəstək tədbirləri, sosial sahədə elektron texnologiyaların tətbiqi, əhaliyə göstərilən proaktiv xidmətlər və s. barədə məlumat verib.

S.Babayev ötən dövrdə iki qardaş ölkə arasında digər sahələrdə olduğu kimi, sosial xidmətlər sahəsində də formalaşan uğurlu əməkdaşlıqdan bəhs edib. Əlilliyi olan şəxslərin və ahılların, uşaq və qadınların, müharibə iştirakçıları və şəhid ailələrinin sosial rifahının təmin olunması istiqamətində əlaqələrin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

D.Yanık iki qardaş ölkə arasında əlaqələrin daim inkişaf etməsinin məmnunluq doğurduğunu bildirib. O, Türkiyənin sosial islahatlar sahəsində təcrübəsindən, əldə olunan uğurlardan bəhs edib.

Valideyn himayəsindən məhrum uşaqların müdafiəsi, ailələrə sosial dəstək tədbirlərinin həyata keçirilməsi, ailə əsaslı alternativ qayğı formalarının inkişaf etdirilməsi və bu sahədə aparılan digər islahatlarla bağlı əməkdaşlığın və məlumat mübadiləsinin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan Türkiyə arasında sosial müdafiə sahəsində ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri müqəddəs Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə islam aləminin ən əziz və müqəddəs günü, Uca Yaradana sədaqətin və İlahi Lütfün təcəllisi olan mübarək Qurban bayramı münasibətilə xalqımızı ürəkdən təbrik edib, Allah-Təaladan səadət və rifah, xeyirli və bərəkətli ömür arzulayıb.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təbrikdə deyilir: "Qarşıdan islam aləmi və xalqımızın müqəddəs günlərindən biri, Rəbbimizin insanlığa lütf və inayətinin rəmzi olan mübarək Qurban bayramı gəlir. Bütün səmavi dinlərin əziz tutduğu, Həzrət İbrahim əleyhissalamın əhdi və Həzrət İsmayıl əleyhissalamın adı ilə bağlı bu müqəddəs gün əsrlər boyudur ki, dünyamıza ümumbəşəri birlik və insanpərvərlik mesajını çatdırır.

Müsəlman aləmi üçün əziz olan mübarək Eyd-əl-Əzha ərəfəsində Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası ənənəvi olaraq Qurban bayramına dair tövsiyələrini çatdırmağı vacib bilir: Bildiririk ki, Qurban bayramına dair hökmlərə və şəri qaydalara əsasən, qurban kəsmək Məkkədə həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulub. Digər yerlərdə isə imkanı olan adamların qurban kəsmələri sünnət əməl, Qurban ətini fəqir və kasıb ailələrə paylamaq - böyük savab sayılır. Unutmaq lazım deyil ki, Uca Allah müqəddəs Qurani-Kərimdə qurbanlığın dəyərini deyil, xeyirxah və təmiz niyyətin əhəmiyyətini vurğulayır: "Onların (qurbanların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Ona çatan yalnız sizin təqvanızdır..." (Həcc; 37)

Adətən, qurbanlıq üçün qoyuna üstünlük verilir. Lakin keçi, inək və dəvəni də qurbanlıq üçün seçmək olar. Həmin ətin bölgüsündə hər kəs azaddır, hərçənd imkansızlara yardım etmək dinimizin ruhuna daha yaxındır, çünki belə davranmağı Əziz Peyğəmbərimiz (s) bizlərə tövsiyə edib. Qurbankəsmə ayini təmizlik və yüksək sanitariya şəraitində, münasib yerlərdə icra edilməlidir. Şəriət qaydalarına görə, qurban kəsilən heyvan sağlam və kəsimə yararlı olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa münasib sayılmır. Adətən, müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir ilə yaxın, öküz və inək bir və ya iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır. Şəriətə görə, heyvanın üzü qibləyə uzadılaraq, Qurban niyyəti ilə Allahın adı çəkilərək kəsilməsi vacibdir. Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə, digər hissə fəqir və kasıb ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur.

AMEA Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına, əsasən, Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq Qurban bayramı Zülhiccə ayının 10-na - Miladi təqvimlə iyulun 9-na təsadüf edəcəkdir. Şəriətə uyğun olaraq, Qurban kəsimi 9 iyul tarixindən başlayaraq 3 gün davam edə bilər. İyul ayının 9-da məscidlərimizdə birgə bayram namazları qılınacaqdır, inşallah.

Azərbaycanda Qurban bayramı günləri dövlət tərəfindən qeyri-iş günü elan edilib. Dövlətimizin dindarlara olan özəl diqqətinə görə təşəkkürümüzü bildirir, milli-mənəvi dəyərlərimizin hamisi dövlətimizin başçısı zati-aliləri İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı bayram münasibətilə təbrik edir, onlara dindarlarımızın xeyir-dualarını yetirir, dövlət-din münasibətlərinin yüksək səviyyədə inkişafı naminə xeyirxah səmərəli fəaliyyətlərində uğurlar arzulayırıq.

Hədislərdə qeyd olunduğu kimi, Qurban bayramının gecəsi və günü duaların qəbul olunduğu zamandır. Həmrəylik, yardımlaşma, mənəvi təmizlənmə rəmzi olan bu müqəddəs gündə Vətənimiz və millətimiz üçün dualar etməliyik. Şükürlər olsun ki, artıq ikinci ildir ki, xalqımız Qurban bayramını Zəfər ab-havasında qarşılayır. Həmd olsun Allaha ki, Azərbaycan xalqı müdrik dövlət öndəri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik erməni təcavüzünə son qoyaraq tarixi ədaləti, Azərbaycanın ərazi bütövlüyünü bərpa edib. Allah Vətən uğrunda, bu böyük Zəfər yolunda canlarından keçmiş, uca şəhidlik məqamına yüksəlmiş övladlarımıza rəhmət eləsin, qəhrəman qazilərimizə şəfa bəxş etsin, şanlı ordumuzun bütün əsgər və zabitləri üçün dilədiyimiz xeyir-dualar müstəcab olsun! Uca Allah Azərbaycan dövlətini və xalqını, onun müdrik rəhbərini hər zaman müzəffər etsin!

Bu əziz bayram münasibətilə Qafqaz Müsəlmanları İdarəsi və onun rəhbərliyi Azərbaycan xalqını və bütün dünya müsəlmanlarını təbrik edir, Qurban bayramının daşıdığı mənəvi dəyərlərə həmişə sadiq qalmağı Uca Yaradandan raz-niyaz ilə diləyir. Allah-Təala dua və ibadətlərinizi qəbul etsin, Qurban bayramınız mübarək olsun!"

# Son 6 ildə ilk görüş

## Əlcəzair Prezidenti Fələstinin iki aparıcı təşkilatının liderlərini - Mahmud Abbasla İsmayıl Haniyəni bir araya gətirdi





Əlcəzairdə Fələstinin FƏTH (Fələstin Milli Qurtuluş Hərəkatı) və HƏMAS (İslami Müqavimət Hərəkatı) qruplaşmalarının liderləri Mahmud Abbas və İsmayıl Haniyə arasında son 6 ildə ilk şəxsi görüş təşkil olunub. Fələstin mətbuatının verdiyi məlumata görə, danışıqlar Əlcəzair Prezidenti Əbdülməcid Tebbunun himayəsi altında keçirilib.

FƏTH və HƏMAS liderləri sonuncu dəfə 2016-cı ildə şəxsən görüşüblər. Mahmud Abbasın ozamankı həmsöhbəti HƏMAS-ın digər lideri Xalid Məşəl olub.

Fələstinin iki aparıcı təşkilatı arasında münaqişə 2007-ci ildə HƏMAS-ın Qəzza bölməsində hakimiyyəti ələ keçirməsi və Mahmud Abbasın başçılıq etdiyi Fələstin Milli Administrasiyasının oradan çıxarılması nəticəsində baş verib.

İki qruplaşma arasında 2007-ci ildə qanlı toqquşmalar baş verəndən Qəzzada və Qərb Sahilində fələstinlilər ayrılıqda idarə olunurlar.

Bundan bir il əvvəl HƏMAS işğal olunmuş ərazilərdə keçirilən parlament seçkilərində qalib gəlmişdi və Qəzzada FƏTH idarəçiliyinə son qoyaraq, orada öz hakimiyyətini gücləndirmişdi.

FƏTH və HƏMAS-ı barışdırmaq və Fələstinarası birliyin bərpası üçün dəfələrlə cəhdlər edilsə də, indiyədək bu, uğurlu nəticə verməyib. Həmçinin 16 ildən artıqdır ki, Fələstində ümumi seçkilər təşkil etmək mümkün olmayıb.

Mahmud Abbas və İsmayıl Haniyə arasındakı birbaşa əlaqəni isə küsülü Fələstin tərəflərinin barışdırılması istiqamətində növbəti cəhd kimi qiymətləndiriblər.

2017-ci ilin oktyabrında hər iki hərəkat Misirin paytaxtı Qahirədə Fələstin siyasi sisteminin parçalanmasını aradan qaldırmaq və bütövlüyünü bərpa etmək üçün saziş imzalayıb. O vaxt HƏMAS təşkilatına yaxın olan Fələstin Məlumat Mərkəzi əldə olunmuş saziş barədə məlumat yaymışdı. Təşkilatın təmsilçisi Sami əbu Zühri bildirmişdi ki, Qahirədə keçən danışıqlar "ciddi və məzmunlu" olub.

Həmin ərəfədə bu addımın Fələstin lideri Mahmud Abbasın tələbinə uyğun atıldığı vurğulanmışdı. Belə ki, ona tabe olan Qərb Sahili Fələstin administrasiyasında aparıcı rolu məhz FƏTH təşkilatı oynayır.

Qahirə görüşündən sonra Fələstinin ovaxtkı Baş naziri Rami Həmdallah Qəzzaya nadir sayılan səfər etmişdi. O bildirmişdi ki, Fələstin administrasiyası Qəzzada idarəçilik və təhlükəsizliklə bağlı məsələlərə görə məsuliyyəti üzərinə götürəcək.

Lakin buna baxmayaraq, razılaşmaların əsas hissəsi hələ də praktikada həyata keçirilməyib.

Xatırladaq ki, HƏMAS və bəzi hallarda bu təşkilatın hərbiləşdirilmiş qanadı İsrail, ABŞ, Aİ, Böyük Britaniya və digər ölkələr tərəfindən "terrorçu qrup" sayılır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***






Gənclik






● Qarabağ Azərbaycandır!



# Gənclərimiz həm də qəhrəmandırlar

**Gənclik sevgidir, ümiddir, arzudur, həyatdır. Harada gənclik varsa, orada işıq var. Gənclik bir millətin istiqbalı, bir dövlətin gələcək taleyinin təminatçısıdır. Gənclik gücdür, qüvvətdir, vətənin bir parçası, şərəfinin və qüdrətinin keşiyində duran mübariz əsgərdir. Gənclik 30 il işğal altında qalan torpaqları azad edən ordu, birliyimizin və gücümüzün rəmzi olan "dəmir yumruq"dur.**

Sağlam düşüncəyə, yüksək vətənpərvərlik hissinə və dərin elmi potensiala malik gənclik həm də millətin taleyidir. Ümummilli Lider Heydər Əliyev fəaliyyəti boyu gənclərlə işləməyə böyük önəm vermiş, yetişməkdə olan nəslin tərbiyəsi və gələcək perspektivləri üçün mümkün olan bütün imkanlardan istifadə etmişdir. Böyük rəhbər gənclərin dövlət işinə və idarəetmənin ən mühüm sahələrinə cəlb olunmaları üçün hər zaman yaşıl işıq yandırmış, onların hamisi olmuşdur. Ümummilli Lider gənclərə xitabən demişdir: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq".

Azərbaycan gəncliyi hər zaman üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirib. İstər müstəqilliyimizin qazanılmasında, istərsə də onun qorunub möhkəmlənməsində bu nəslin rolu istisnasızdır. Bir zamanlar ermənilərin Qarabağda separatçı hərəkətlərinə etiraz olaraq meydanlara yüz minlərlə gənc toplaşdığı kimi, torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən savaşa da minlərlə gəncimiz qoşuldu. İdman meydançalarında, musiqi yarışmalarında bayrağımızı qaldıran gənclərimiz həvəslə, daha ciddi və qətiyyətlə savaş meydanına yürüdülər. 44 gündə düşmənin təkcə hərb maşınının deyil, 200 ildən bəri beyinləri zəhərləyən, kin, nifrət püskürən çürük ideologiyası məhv edilərək tarixin arxivinə gömüldü. Təbii ki, bunlar heç də asan başa gələn işlər deyildi. Düzgün siyasət, doğru strategiya, gənclərlə aparılan qüsursuz iş nəticəsində mümkün oldu.

Ordumuz qədim Qarabağı düşmən işğalından azad etməklə xam xəyala düşmüş erməni ideoloqlarını qəflət yuxusundan oyatdılar. İndi onlar anlamağa məcburdurlar ki, yandırmaqla, uçurub dağıtmaqla, şəhərləri xarabazarlığa çevirməklə torpağa sahib çıxmaq olmaz. Şəhərlər də, torpaq da insanlar kimidir. Sevgi, həyat istəyir. Oğullarımız, gənclərimiz torpağa can verdilər. İşğaldan azad olunmuş ərazilərdə bu gün sürətlə abadlıq, quruculuq işləri aparılır. Biz Qarabağda tez bir zamanda bərpa işlərinə başlamaqla bir daha bütün dünyaya torpağın əsl sahibi olduğumuz mesajını verdik. Eyni zamanda dünyanın söz sahibləri, supergüclər anladılar ki, Azərbaycan xalqı sülhpərvər, tərəqqipərvərdir. Qanunlarımıza tabe olan, itaət edən hər kəs bizimlə birlikdə bu torpaqlarda sülh içində yaşaya bilər.

Qədim yurd yerlərimizi düşməndən azad etməyə gedən gənclik bu gün Qarabağda eyni həvəslə ermənilərin dağıdıb viran qoyduqları kəndləri, şəhərləri bərpa edirlər. Dağlardan, qayalardan, igidlərimizin keçdiyi yerlərdən indi Zəfər yolu keçir. Ermənilərin at oynatdığı, rəqs etdiyi Cıdır düzündə indi musiqi yarışmaları, festivallar keçirilir. Bütün bunlar Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl siyasətin, xalqla hakimiyyətin, Prezidentlə xalqın birliyinin nəticəsidir.

44 günlük Vətən müharibəsi təkcə bizə işğal olunmuş torpaqlarımızı, itirilmiş nüfuzumuzu, zədələnmiş milli qürurumuzu, kimliyimizi qaytarmadı. Biz həm də görmək istədiyimiz, illərdir arzusunda olduğumuz Prezidentimizi daha yaxşı tanıya bildik. Vətən müharibəsi olduqca qətiyyətli, tədbirli, qurduğu ordu ilə bizi qələbəyə aparan və ordusu ilə fəxr edən bir Ali Baş Komandanı, yenilməz bir sərkərdəni tanıtdı.

Bu gün Qarbağda tikinti, quruculuq, bərpa işləri ilə yanaşı, ordu quruculuğuna da xüsusi önəm verilir. Qazanılmış qələbəni daha təminatlı və əbədi etmək məqsədilə yeni, müasir komando hərbi hissələri yaradılır. Necə deyərlər, qurdla dost ol, amma dəyənəyi yerə qoyma. Bu günlərdə Kəlbəcər rayonunda yeni yaradılmış komando hərbi hissəsinin açılışında iştirak edən Müzəffər Ali Baş Komandan İlham Əliyev gənclərimizin xidmətlərini yüksək qiymətləndirərək demişdir: "Azərbaycan gəncləri vətənpərvər gənclərdir, Vətənə bağlıdır və Vətən müharibəsi bunu bütün dünyaya göstərdi. Bizi qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən gənclər etdilər. Öz canlarını fəda edərək, ölümə gedərək bunu etdilər. Əziz şəhidlərimizin xatirəsi daim bizim qəlbimizdə yaşayacaq".

Gənclik həyat deməkdir. Nə qədər ki gənclərimiz var, bir o qədər də həyat davam edəcək, yeni uğurlara imza atılacaq, qələbələr əldə ediləcək. Sözsüz ki, bizə yenə də sevinc yaşadan, uğur qazandıran gənclərimiz olacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● İstedadlar

# Bənzərsiz səsilə ölkəmizi təmsil edən gənc muğam ifaçısı



**Əslən Laçından olan Yusif Cəfərbəyli 2000-ci il sentyabrın 1-də Bakı şəhərində anadan olub. O, 2017-ci ildə Ş.Əfəndizadə adına 13 saylı tam orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) qəbul olunub. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistr pilləsi üzrə təhsil alır.**
**Yusif kiçik yaşlarından musiqiyə bağlanıb. Niyazi adına 22 saylı musiqi məktəbində Xalq çalğı alətləri şöbəsinin əvvəlcə tar, daha sonra isə xanəndəlik siniflərində təhsil alıb. İstər orta məktəbdə, istərsə də ali məktəbdə oxuduğu illərdə sosial-ictimai işlərdə fəallıq göstərən gənclərdən olub. Təhsil aldığı Azərbaycan Dövlət İqtisad Universitetində İqtisadçı Vətənpərvərlər Təşkilatının sədri kimi fəaliyyət göstərib.**

Dəfələrlə tələbələrlə cəbhə bölgəsinə səfərlər ediblər. 2019-cu ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və UNEC-in birgə təşkilatçılığı ilə həyata keçirilən "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası çərçivəsində cəbhə bölgələrinə gedib. Bu aksiyanın fəal iştirakçısı kimi müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən mükafatlandırılıb.

Universitetin Yaradıcılıq Mərkəzinin üzvü olan Yusif Cəfərbəyli musiqi sahəsində də böyük uğurlar əldə edib. 2016-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin birgə həyata keçirdiyi Nizami Gəncəvinin 875 illik yubileyinə həsr olunmuş incəsənət sahələri üzrə baxış-müsabiqəsində "N.Gəncəvinin sözlərinə ən yaxşı muğam ifası" nominasiyasında birincilik qazanıb.

2019-cu ildə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən "Tələbə Baharı" tələbələrin XII Ümumrespublika yaradıcılıq festivalında "Muğam" musiqi nominasiyasında II yerə, 2020-ci ildə isə XIII Ümumrespublika yaradıcılıq festivalında "Muğam" musiqi nominasiyasında I yerə layiq görülüb.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan olunması münasibətilə universitetin Yaradıcılıq mərkəzinin xətti ilə o, Türkiyənin paytaxtı Ankara şəhərində Nəsimiyə həsr olunmuş tamaşada Nəsiminin qəzəllərini muğam üstə ifa edib. İfası böyük alqışlarla qarşılanıb. O, Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən "Təşəkkürnamə" və üzərində Nəsiminin rəsmi olan bürünc xatirə pul nişanı ilə təltif edilib. Y.Cəfərbəyli bu illər ərzində bir sıra layihələrin həm iştirakçısı, həm də təşkilatçısı olub.

2018-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Səbail Rayon İcra Hakimiyyətinin birgə həyata keçirdiyi "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsində qrup rəhbəri seçilib və düşərgənin yekununda fəxri fərmanla təltif edilib.

Gənc tələbə Heydər Əliyev adına "Azərbaycan-Qazaxıstan" Respublika Dostluq Cəmiyyətinin üzvüdür və keçirilən tədbirlərdə fəal iştirak edir. Y.Cəfərbəyli 2018-ci ildə Azərbaycan Tələbələrinin II Qurultayına nümayəndə seçilib.

Bu günlərdə Türkiyənin İstanbul şəhərində "Azərbaycan-Türkiyə-Pakistan Gənclərinin Birinci Həmrəylik Forum"u keçirilib. Gənc muğam ifaçısı Yusif Cəfərbəyli Azərbaycan Respublikası Gənclər Fondu, Türkiyə Gənclik Vəqfi (TÜGVA) və "Pakistan-Türkiyə Dostluq Dərnəyi"nin birgə təşkilatçılığı ilə həyata keçirilən bu forumda iştirak edib. Forumun əsas məqsədi üç ölkə arasında mövcud olan dostluq, qardaşlıq əlaqələrinin gənclərin iştirakı ilə daha da möhkəmləndirilməsindən və üçtərəfli platforma vasitəsilə ölkə həqiqətlərinin beynəlxalq səviyyədə təbliğindən ibarətdir.

Yusif Cəfərbəyli deyir ki, gənclərin mötəbər məclisində 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun qazandığı qələbədən, tarixi Şuşa Bəyannaməsindən, eyni zamanda Türkiyə və Pakistan parlament sədrlərinin ötən il imzaladığı sənədin ölkələrimiz arasındakı münasibətlərin inkişafına verdiyi töhfədən danışılıb, bu sənədlərin üç ölkə gənclərinin daha sıx şəkildə əməkdaşlıq etməsi, birgə çalışması üçün zəmin yaratdığı qeyd olunub.

Forum çərçivəsində üç ölkənin tarixi və mədəni irsi, üçtərəfli əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri haqqında da təqdimatlar olub, yeni əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

Yusif Cəfərbəyli forumda çıxış edərək, 44 günlük Vətən müharibəsində şanlı ordumuzun qazandığı qələbə ilə bağlı fikirlərini söyləyib və öz ifasında xalq mahnılarımızı və milli-mənəvi sərvətimiz olan muğamlarımızı forum iştirakçılarına təqdim edib.

Səfər çərçivəsində iştirakçılar İstanbulun Haliç Universitetində "Şuşa-Türk Dünyasının Mədəniyyət Paytaxtı" mövzusunda fotosərginin açılış mərasiminə də qatılıblar. Onlar İstanbulda yerləşən Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkda Ulu Öndərin abidəsini ziyarət ediblər.

*E.YƏHYAYEV,*
*"Azərbaycan"*

● İnkişaf təhsildən başlayır

# Cəmiyyətin aparıcı qüvvəsi

## Tələbələrimiz "TEXNOFEST"də nəyə qadir olduqlarını bir daha nümayiş etdirdilər

**Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Həmin qüvvəni isə yalnız yüksək elm və təhsillə, qabiliyyət və bacarıqla reallaşdırmaq mümkündür.**

Azərbaycanın "TEXNOFEST" Aerokosmik və Texnologiya Festivalına evsahibliyi etməsi bütün dünyada əks-səda verdi. "TEXNOFEST" Festivalı ilk dəfə idi ki, Türkiyədən kənarda qeyd edilirdi və xarici ölkə kimi Azərbaycanın seçilməsi heç də adi fakt deyildi. Festival bir çox iştirakçılara yeni investisiya və biznes imkanlarının genişləndirilməsi şansı yaratdı. Azərbaycan gəncinin beyninin məhsulu olan belə innovativ təkliflərin beynəlxalq aləmə çıxarılması üçün ilk və uğurlu addım oldu.

### 6 müsabiqədə 8 mükafat

Festivalda SOCAR-ın Bakı Ali Neft Məktəbinin (BANM) tələbələri də iştirak etdilər. BANM "TEXNOFEST" Aerokosmik və Texnologiya Festivalının final mərhələsində 16 komanda və 2 startap layihəsi ilə təmsil olundu. 10 ildir tam ingilis dilində yüksəkixtisaslı kadrlar yetişdirən BANM-ın 6 komandası B kateqoriyası üzrə 6 müsabiqədə 8 mükafata layiq görüldü.

Ali təhsil ocağının qalib gələn tələbələri ilə görüşüb, onların təəssüratlarını öyrəndik. "İstiqlal" komandası festival çərçivəsində baş tutan "Cansat Model Peyk" yarışının qalibidir. Komanda bu müsabiqə üzrə final mərhələsində hazırladıqları peyk modelini səmaya buraxaraq birinci yeri tutub. Əlbəttə ki, bu nüfuzlu müsabiqənin qalibi olmaq, dövlət başçıları tərəfindən mükafatlandırılmaq gənclərimizə gələcəkdə daha böyük uğurlara imza atmalarına stimul verib.

Komanda BANM-ın Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan 5 tələbədən ibarətdir. Komandanın mentoru Bakı Ali Neft Məktəbinin məzunu və hazırda ali məktəbdə müəllim kimi fəaliyyət göstərən Ramil Şükürovdur. Birinci yerin qalibi olan komandanın mentoru qeyd edib ki, "TEXNOFEST" yarışı növbəti illərdə ölkəmizdə keçirilərsə, yenidən iştirak edəcəklər: "TEXNOFEST" yarışı Azərbaycanda ilk dəfə keçirilirdi. Bununla bağlı sosial şəbəkələrdən öyrəndik və qatılmaq qərarına gəldik. BANM-ın həm bakalavr, həm də magistr məzunu olmuşam. Hazırda isə doktorantura pilləsində təhsilimi davam etdirirəm. Bizə model hazırlamaqla bağlı tapşırıq verilmişdi. Bu model müəyyən tələblərə cavab verməli idi. Sözügedən model raket vasitəsilə 150 metr hündürlüyə qaldırılmalı və passiv enmə sistemi vasitəsilə yerə düşməli idi. Yarışda birinci yerin qalibi olduq".

"TEXNOFEST"in digər qalib BANM komandası isə "Atəşgah"dır. "Yaşıl Texnologiyalar" üzrə "TEXNOFEST"ə qoşulan komandanın üzvləri ali məktəbin kimya mühəndisliyi ixtisasında təhsil alan 3 tələbədir. Komandanın mentoru Bakı Ali Neft Məktəbinin məzunu Murad Rəhimovdur. Ümumiyyətlə, BANM-ın iki komandası I, iki komandası II, iki komandası isə III yerə sahib olub. Bununla yanaşı, təhsil ocağının iki komandası qatıldığı iki müsabiqə üzrə də mükafat alıb.



Bakı Ali Neft Məktəbi "Yaşıl texnologiyalar" müsabiqəsi üzrə Azərbaycan ali təhsil müəssisələri arasında ən çox təmsil olunan, finala yüksələn və mükafat alan ali təhsil ocağıdır. "TEXNOFEST"ə müraciət edən BANM-ın 33 komandasının 15-i bu müsabiqəyə layihə təqdim edib. Finala bu nominasiya üzrə yüksələn 10 komandanın 8-i BANM-ı təmsil edən komandalar olub. Bu isə Azərbaycan universitetləri arasında yalnız Bakı Ali Neft Məktəbinə aid göstəricidir. BANM finalda da bu müsabiqə növü üzrə fərqlənərək rekorda imza atmağı bacarıb. Belə ki, bu müsabiqə üzrə ilk üç yerin sahibi BANM-ın komandaları olub. Kimya mühəndisliyi ixtisasında təhsil alan 3 tələbə - Faiq Əliyev, Fatimə Məmmədova və Fərid Əliyev (kapitan) və mentoru BANM-ın məzunu olan Murad Rəhimovdan ibarət "Atəşgah" komandası "Yaşıl texnologiyalar" müsabiqəsinin qalibi seçilib.

### Kondisionerlərdən istifadəni azaldan, enerjiyə qənaət edən cihaz

Bu müsabiqə üzrə II yerə BANM-ın Kimya mühəndisliyi kafedrasının müdiri Əmir Rza Vəxşurinin mentorluq etdiyi, tələbələr Fidan Cəbrayılova (kapitan), Toğrul Əzizli, Çingiz Hacıyev, Fərid Hüseynli, Ruslan Həsənovdan ibarət "Murov" komandası layiq görülüb. Bu müsabiqə üzrə III yerin sahibi mentoru BANM-ın laboratoriya rəhbəri Nəsir Sultanov, məsləhətçisi ali məktəbin məzunu və əməkdaşı Elmar Əsgərzadə, üzvləri Güllü Hüseynli (kapitan), Zaur İmaməliyev, Kafyə Abzarova, Rəşad Əhmədovdan ibarət "Gülüstan" komandası olub.

Ali Məktəb "Cansat Model Peyk" müsabiqəsində də uğurla təmsil olunub. Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan Fidan Mahmudova, Səmra Hüseynova, Qeybulla Əliverdiyev, Kənan Bəgəliyev, Fuad Məmmədzadədən (kapitan) ibarət "İstiqlal" komandası hazırladığı peyk modelini səmaya buraxaraq "Cansat" Həvəskar Peyk Modelləşdirilməsi yarışının qalibi olub.

Fuad Məmmədzadə 1-ci yer qazanmış komandanın kapitanıdır. O bu cür yarışların ənənə halını almasını arzulayır.

### Robotun adını "Nilay-44" qoydular

BANM-ın "Oğuz" və "Həkəri" komandaları qatıldıqları iki müsabiqədə mükafata layiq görülüblər. Mentorluğunu Nicat Həsənovun həyata keçirdiyi, Nəzrin Qurbanova (kapitan), Firəngiz Hümbətova, İlqar Məmmədov, Gülüstan Abdullayeva, Ağamirzə Fətəliyev, Aysel Abdullayevadan ibarət "Oğuz" komandası "Robotexnika" müsabiqəsi üzrə II, "Planer" müsabiqəsi üzrə isə III yerə sahib olub.

"Oğuz" komandasının üzvü Ağamirzə Fətəliyev deyir ki, ərsəyə gətirdikləri robotun adını Vətən müharibəsində hər iki valideynini itirən Nilayın şərəfinə "Nilay-44" qoyduq: "Yarışlara iki kateqoriya üzrə qatılmışdıq. "Robotexnika" üzrə 2-ci, planer müsabiqəsində isə 3-cü yeri qazandıq. "Robotexnika" müsabiqəsində hörümçəyə oxşar altıayaqlı robot təqdim etdik. Əsas məqsəd dağıntıların altında insanların istifadə edə bilmədiyi ərazilərdən məlumat almaqdır. Gəncədə törədilən müharibə cinayəti nəticəsində çox sayda insan dağıntılar altında qalmışdı. Elə bu səbəbdən ərsəyə gətirdiyimiz robotun adını Vətən müharibəsində hər iki valideynini itirən Nilayın şərəfinə qoyduq".

İki kateqoriya üzrə qalib olan "Həkəri" komandasının kapitanı Cavid İsayev bu adı seçməkdə xüsusi bir səbəbin olduğunu dedi: "Komandamızın üzvlərindən biri zəngilanlı olduğuna və Həkəri çayı da Zəngilandan keçidiyinə görə komandamızın adını Həkəri qoyduq. Yarışmada iki kateqoriya üzrə iştirak etdik. Hər iki kateqoriya üzrə qalib olduq".

"Baku Skills" müsabiqəsi üzrə III yerin sahibi olan "Alfa" komandasının üzvləri arasında Bakı Ali Neft Məktəbinin Biznesin idarə olunması üzrə I kurs magistratura tələbəsi Aydın Cəfərov da təmsil edilib.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

# REGİONLAR



**Bölgələrdə taxıl biçini davam edir. Artıq ölkə üzrə payızlıq taxıl əkini sahələrinin 72,6 faizində biçin başa çatıb. Sahələrdən 2 milyon 163 min 875 ton məhsul yığılıb. O cümlədən arpa sahələrinin 88 faizində biçin tam yekunlaşıb. Hazırda əsas biçin buğda sahələrində aparılır.**

## Taxıl sahələrinin 72,6 faizində biçin yekunlaşıb



Taxıl biçini prosesində 1538 kombayn iştirak edir. Onlardan 645-i "Aqroservis" ASC-nin rayon bölmələrinin balansında olan kombaynlardır. Bu kombaynlar ilkin mərhələdə 50 hektaradək olan sahələrdə biçin aparırlar. Bundan başqa, biçinə fiziki və hüquqi şəxslərin özəl mülkiyyətində olan 893 kombayn cəlb edilib.

Bu günədək "Aqroservis" ASC-nin kombaynları ilə 277617 hektar, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kombaynlar ilə isə 426593 hektar sahə biçilib.

Bölgələrdə taxıl biçini başa çatmış sahələrdə yay şumunun aparılması davam edir. İyunun 6-dək ölkə üzrə 177725 hektar sahədə yay şumu aparılıb. Yay şumu aparılan sahələr növbəti il üçün proqnozlaşdırılan taxıl əkini sahələrinin 19,3 faizini, biçin başa çatmış ərazilərin isə 35,12 faizini təşkil edir.

### Ölkə üzrə 177,7 min hektardan çox sahədə yay şumu aparılıb



Biçilmiş sahələrdə ən çox yay şumu Neftçala (75,3%), Zərdab (67,9%), Samux (57,9%), Şabran (42,3%), Hacıqabul (41,4%), Bərdə (37,1%), Kürdəmir (35%), Salyan (31,9%), Qax (30,1%), Ağsu (28,7%) və Ağcabədi (25.3%) rayonlarında aparılıb. Yay şumu davam edir.

## Səudiyyə Ərəbistanı Krallığının səfiri Lənkəranda olub

Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dr. Həməd bin Abdulla bin Xudeyr Lənkəranda işgüzar səfərdə olub.

Bölgə ilə tanışlıq, iqtisadi-ticari, investisiya və mədəniyyət-turizm sahələrində iki ölkənin müxtəlif müəssisə və orqanları arasında əlaqələrin təşviqi məqsədi daşıyan səfər çərçivəsində qonaq əvvəlcə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovla görüşüb. T.Qaraşov Səudiyyə Ərəbistanı-Azərbaycan dostluq və əməkdaşlıq əlaqələrinin inkişafından söz açaraq səfirə rayonun tarixi, coğrafi mövqeyi, turizm potensialı, ictimai-siyasi və sosial-iqtisadi həyatı barədə məlumat verib.

Səmimi görüşə görə təşəkkürünü bildirən səfir Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasəti yüksək qiymətləndirərək bu siyasətin Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasındakı əlaqələrin etibarlı tərəfdaşlıq səviyyəsinə yüksəlməsindəki rolunu qeyd edib.

Lənkəranda olduğu müddətdə xarici diplomat Heydər Əliyev Mərkəzinə, Xan evinə, Xalça fabrikinə, Hirkan Milli Parkına, Xanbulançay dəryaçasına, rayondakı çiyələk bağlarına baş çəkib, "Green east" MMC-də çəltik əkini prosesi və çəltik zavodu, həmçinin "Yaşıl Çay" Fermer Təsərrüfatında çay plantasiyası və emal prosesi ilə tanış olub.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## Naxçıvanda arxeoloji qazıntılar aparılır

Naxçıvan şəhəri ərazisində yerləşən Naxçıvantəpə qədim yaşayış yerində arxeoloji qazıntılara bu ilin iyun ayından yenidən başlanılıb.

AZƏRTAC xəbər verir ki, arxeoloji qazıntılar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin tövsiyəsi ilə AMEA Naxçıvan Bölməsində yaradılan yerli arxeoloji ekspedisiya tərəfindən davam etdirilir.

Naxçıvantəpə yaşayış yerinin tədqiqi olduqca əhəmiyyətli nəticələr verir. Tədqiqatlar zamanı Naxçıvan şəhəri ərazisində eramızdan əvvəl VI minillikdən başlayaraq məskunlaşma olduğu müəyyən edilib. Həmçinin indiyədək Cənubi Qafqaz və Azərbaycanda məlum olmayan, dünya alimlərinin marağına səbəb olan Dalmatəpə mədəniyyəti aşkarlanıb.

Yaşayış yerində aparılan araşdırmalar zamanı basmanaxışlı keramika ilə xarakterizə olunan Qarabağın Neolit mədəniyyətinin Dalmatəpə mədəniyyətinin formalaşmasında mühüm rol oynadığı müəyyənləşib. Həmçinin Naxçıvan, Qarabağ, Zəngəzur və Urmiya hövzəsinin Azərbaycanda formalaşan mədəniyyətlərin arealına daxil olduğu, Zəngəzur və Göyçə obsidianının başlıca olaraq Naxçıvan, Qarabağ və Urmiya hövzəsinin sakinləri tərəfindən istifadə olunduğu təsdiq edilib. Tədqiqat işləri zamanı yarımqazma tipli evin qalıqları, basmanaxışlı və boyalı keramika nümunələri aşkar olunub. Naxçıvantəpə yaşayış yerində aşkar olunan arxeoloji tapıntılar Naxçıvan şəhərinin hələ qədim zamanlardan Azərbaycanın tərkibində yer aldığını və Azərbaycanda yayılan mədəniyyətlərin əsas mərkəzi olduğunu təsdiq edir.

**Azərbaycanda ipəkçiliyin tarixi qədim olsa da, əsaslı dönüş keçən əsrin 70-ci illərindən başlamışdır.**

## Qısa zamanda yüksək qazanc

Həmin dövrdə respublikaya rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Azərbaycanda ipəkçiliyin gələcək inkişafına dair tədbirlər" haqqında 17 mart 1971-ci il tarixli qərar bu sahənin inkişafına böyük təkan verməklə maddi-texniki bazasını, sənaye potensialını genişləndirmiş və nəticədə az sonra barama tədarükü 36,1 faiz artmışdır.

O illər kolxoz və sovxozlara məxsus istifadəyə yararsız torpaq sahələrində, yol kənarlarında, şəhər və qəsəbələrdə çoxlu sayda tut tingləri əkilib becərilməklə baramaçılığın yem bazası möhkəmləndirilmiş və bu sahədə elmi-tədqiqat işlərinə diqqət artırılmışdır. Nəticədə respublika üzrə ildə 5-6 min ton yaş barama və ondan 350-400 ton xam ipək istehsal olunaraq 10 milyonlarla kvadratmetr müxtəlif çeşidli ipək parça toxunmuşdur. İpəkqurdunun bəslənməsi və barama istehsalında isə 150 mindən artıq kəndli ailəsi məşğul olmuşdur.

Təkcə respublikanın ipək sənayesində 14 min nəfərdən çox, o cümlədən "Şəki-İpək" kombinatında 7 min nəfərə yaxın daimi işçi var idi. Azərbaycan barama istehsalına görə keçmiş sovetlər birliyində Özbəkistandan sonra ikinci, istehsal olunan ipəyin keyfiyyətinə görə birinci yeri tuturdu. "Şəki-İpək" kombinatı SSRİ-nin 75 müəssisəsinə ipək parça, 84 müəssisəsinə ipək sap göndərirdi. Şəki ipəyindən hazırlanan parçalar Yaponiya, İsveçrə, İtaliya və digər xarici ölkələrə ixrac olunurdu.

Bütün bunlar tarixdir. Bəs bu gün sahədə vəziyyət necədir?

İpəkçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi, barama istehsalı ilə bağlı əhalinin məşğulluğunun artırılması və sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında" Prezidentin 15 sentyabr 2016-cı il tarixli sərəncamı baramaçılığın və ipəkçiliyin dirçəldilməsinə stimul vermişdir. Cari ildən isə yaş barama tədarükünə görə dövlət tərəfindən verilən subsidiyanın məbləği və məhsulun alış qiyməti artırılıb. Kümçülər yaş baramanı kiloqramı 5 manatdan "Azəripək" MMC-yə təhvil verirlər. Dövlət əlavə olaraq hər kiloqram yaş barama istehsalına görə fermerlərə 6 manat subsidiya ödəyir. Ümumilikdə kümçü təhvil verdiyi hər kiloqram yaş baramanın əvəzində 11 manat alır.

Məlumdur ki, barama istehsalında yem bazası tut yarpağıdır. O da bəllidir ki, köhnə bağların çox hissəsi məlum səbəbdən məhv edilmişdi. Bunun üçün də yeni tut bağlarının salınması vacib idi. Odur ki, hazırda ölkə ərazisində kütləvi şəkildə yeni tut bağları salınır. Bu, 2025-ci ildə hədəf kimi götürülən 6 min ton barama istehsalına imkan verməsinə hesablanıb.

2020-ci ildə ilk dəfə Qax Damazlıq İpəkçilik Stansiyasında 5 min qutu ipəkqurdu toxumu (146 kq) istehsal olunub. Ötən il isə ipəkqurdu toxumunun inkubasiya prosesi Qax Damazlıq İpəkçilik Stansiyası ilə yanaşı, ilk dəfə olaraq Bərdə, Ağsu, Füzuli və Zaqatala rayonlarında inşa edilmiş yeni baramaqurutma müəssisələrində də həyata keçirilib.

Ölkədə baramaçılığı inkişaf etdirməkdə əsas məqsəd Azərbaycan ipəyini dünya bazarına çıxarmaqdır. Dünya bazarında isə bu sahədə ciddi rəqabət var. Ona görə də biz yeni bazarlara yüksək keyfiyyət və sərfəli qiymətlə çıxmalıyıq. "Azəripək" Məhdud Məsuliyyətli Cəmiyyətindən verilən məlumata görə, dünya bazarında Azərbaycan ipəyinə tələbat var. O da bildirilir ki, hazırda Azərbaycanda istehsal olunan xam ipəyin maya dəyəri dünya bazarındakı qiymətə uyğundur.

"Azəripək" MM-nin ötən il ən çox istehsal etdiyi məhsul xam ipək olub. Keçən il müəssisə 1 milyon 748 540 manat dəyərində



24,8 ton xam ipək istehsal edib: "Xam ipəyin istehsalının artırılması üçün müəssisədə baramadan xam ipək açan istehsal avadanlıqları quraşdırılmalıdır. Hazırda istehsal olunan malların tam hazır məhsula qədər işlənməsi üçün yeni avadanlıqların alınaraq quraşdırılması istiqamətində işlərin görülməsi nəzərdə tutulur". Bu barədə məlumat verən MMC-dən onu da açıqlayıblar ki, ilin yanvar-mart ayları ərzində "Azəripək" dəyəri 493 211 manat olan 7,3 ton xam ipək istehsal edib. Bu dövr eyni zamanda dəyəri 208 293 manat olan 4,4 ton vata, dəyəri 15 480 manat olan 701 güllü kələğayı, 8341 manatlıq 582 güllü çitmə, 8948 manatlıq 566 güllü şərf, 1493 manatlıq 0,72 kvadratmetr xalça, 37654 manatlıq 612 kq əriş sapı, dəyəri 9 119 manat olan 114 kq utok istehsal olunub.

Son dövrlər ölkədə baramaçılığa maraq xeyli artıb. Səbəb bu sahənin qısa zamanda az zəhmətlə yaxşı gəlir gətirməsidir. Əvvəllər barama istehsalı ilə məşğul olmayan rayonlardakı fermerlər də bu məhsulun istehsalına maraq göstərirlər. Prezident İlham Əliyev bu barədə demişdir: "Barama istehsalı indi ölkəmizin bütün bölgələrində geniş vüsət alıb. ...Lənkəranda tut tingləri sahəsinə də baxış keçirdim. Görürəm ki, Lənkəranda da bu sahəyə böyük maraq var. Baxmayaraq ki, sovet vaxtında baramaçılıq Lənkəranda və bu zonada inkişaf etdirilmirdi. Bu sahələrin inkişafı məşğulluğu artırır, idxaldan asılılığı azaldır, ixrac potensialımızı gücləndirir. Bizim məqsədimiz bundan ibarətdir".

Sonda onu da bildirək ki, Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin 5 ayı üzrə ölkədə barama istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə artaraq 32,7 tona çatıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Ekoloji layihəyə yekun vurulub

"Sumqayıt məktəblilərinin ekoloji düşərgəsi - 4" adlı layihə başa çatıb. Layihə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və Fransanın Azərbaycandakı Səfirliyinin maliyyə, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Sumqayıt nümayəndəliyi və şəhər Gənclər Evinin təşkilati dəstəyilə həyata keçirilib.

İki mərhələdən ibarət olan layihədə Sumqayıt məktəblərində təhsil alan 56 şagird iştirak edib. Hər iki mərhələdə keçirilən təlim sessiyaları qeyri-formal təhsil metodlarına əsaslandığından məktəblilər əylənərək öyrənmə şansı qazanıblar.

Birinci mərhələdə məktəblilərə düşərgə həyatı ilə bağlı və ekoloji təlimlər, sonra isə onlar arasında ekoloji mövzuda intellektual yarış keçirilib. İkinci mərhələsi İsmayıllıda düşərgə formatında keçirilən layihədə iştirakçılar bir sıra sessiyalarda iştirak ediblər. Onlara ekoloji savadlılıq, plastik tullantılar və növləri, dayanıqlı inkişaf məqsədləri, sağlam düşüncə, sağlam həyat tərzi və məktəblərdə mental sağlamlıq və digər mövzular haqqında ətraflı məlumat verilib. Eyni zamanda şagirdlər təşkilatın müəllifi olduğu EKOmiks layihəsi haqqında geniş məlumat əldə ediblər.

Bundan başqa, düşərgədə şagirdlərə Fransanın Azərbaycandakı səfiri Zaxari Qros tərəfindən ekologiya ilə bağlı təqdimat keçirilib. Təqdimatdan sonra səfir şagirdlərin ekologiya və Fransa təhsili haqqında suallarını cavablandırıb. Düşərgənin son günündə şagirdlərlə ekoloji klublar şəbəkəsi ilə bağlı müzakirələr və layihənin qiymətləndirilməsi aparılıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Hacıqabulda qarğıdalı əkini davam edir

Bu ilin məhsulu üçün yazda Hacıqabul rayonunun Padar qəsəbəsində, Ələtli və Meyniman kəndlərində 198 hektarda dənlik qarğıdalı əkilmişdir.

Sahələrdə aqrotexniki tədbirlər lazımi səviyyədə həyata keçirilmişdir. Hazırda əkinlərə 3-cü su verilir. Becərmə işlərinin vaxtında və keyfiyyətli görülməsi nəticəsində tarlalardan yüksək qarğıdalı dəni gözlənilir.

Bundan əlavə, taxılı biçilmiş 480 hektara yem üçün qarğıdalı əkilir. Gələcək məhsul "Azərsun" şirkətinin rayon ərazisindəki "Şamaxı aqroparkı"nda saxlanılan 5 min baş mal-qaranın keyfiyyətli yemlə təmin olunmasına kömək edəcəkdir.

## Əliabad-Xırmandalı-Bəydili avtomobil yolunun tikintisi yekunlaşmaq üzrədir

### Cəlilabadda da 14 kəndi birləşdirən yol yenidən qurulur

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) cari il üçün kənd təsərrüfatının inkişafını hədəfləyən yol infrastrukturu layihələrindən biri də Biləsuvar rayonunun Əliabad-Xırmandalı-Bəydili avtomobil yoludur.

Uzun illər istismar olunmasına baxmayaraq, əsaslı şəkildə təmir edilməmiş yol çınqıl örtükdən və torpaq əsasdan ibarət idi. Bu səbəbdən yolda əmələ gələn çalalar, çökmələr, qabarmalar nəqliyyatın hərəkətində, ən əsası, 3 yaşayış məntəqəsinin 19 mindən çox əhalisinin yoldan istifadəsində çətinliklər yaradırdı. Bu səbəbdən uzunluğu 11 kilometr, eni 5 metr olan yol IV texniki dərəcəyə uyğun bərpa edilir.

Artıq növbəti mərhələ üzrə qum-çınqıl və optimal-qırmadaş qarışıqlarından istifadə olunmaqla yol əsasının alt və üst layı inşa edilib. Hazırda yolboyu 2 qat olmaqla, 12 sm qalınlığında asfalt-beton örtüyün döşənməsi son mərhələdə icra olunur.

Tikinti zamanı 63 mövcud suötürücü boru da bərpa edilib. Balharı çayı üzərində uzunluğu 10 və 20 metr olmaqla inşa edilən 2 suötürücü qurğunun tikintisi isə yekunlaşmaq üzrədir.

AAYDA tərəfindən aparılan genişmiqyaslı layihələr sırasında hazırda Cəlilabad rayonunda 14 yaşayış məntəqəsini birləşdirən kəndlərarası avtomobil yollarının əsaslı yenidən qurulmasını da qeyd etmək istərdik.

Uzunluğu 36,2 km, eni ortalama 10 metr olan yolların örtüyü, əsasən, torpaq əsaslı idi. Bu səbəbdən kəndlərarası yollar nəqliyyatın və vətəndaşların rahat hərəkətində problemlərə səbəb olurdu.

Cəlilabadın Təklə-Abazallı, Təklə-Şorbaçı-Mədətli-Novruzallı-Şötüklü-Bayxanlı-Məlikqasımlı, Şötüklü-Dostallı-Məşədilər-Məmmədrzalı-Şorbaçı, Şiləvəngə-Adnalı-Bədirli marşrutu üzrə kəndlərarası avtomobil yollarını əhatə edən layihə çərçivəsində görülən işlər "İnşaat Norma və Qaydaları" çərçivəsində texnoloji ardıcıllığa riayət olunmaqla keyfiyyətlə aparılır. AAYDA tikinti ərazilərinə kifayət qədər canlı qüvvə və texnika cəlb edib. Bu isə 14 mindən çox əhalini yol sarıdan rahatlığa çıxaracaq layihənin vaxtında başa çatdırılacağına zəmanət verir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 20 oktyabr (bazar günü) tarixli XVII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 13 məhərrəmülhəram sənə 1337. 20 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Edadi məktəblərin əlifba; birinci, ikinci şöbələri və sinifləri milliləşib ibtidai və aliibtidai məktəblərdən bu şöbə və siniflərə imtahan verərək mütəəllimlər [şagirdlər] qəbul olunacaq. Binaileyh, Azərbaycanda yaşayan müsəlman əhalisinə ixtar olunur ki, edadi məktəblərin milli şöbə və siniflərinə imtahan vermək arzusunda olanlar, həmin oktyabr ayının iyirmisinədək edadi məktəblərin müdirləri namına [adına] şu barədə ərzihal versinlər.

*Maarif naziri: Yusifbəyli Nəsib bəy*

## ELAN

Şəhərdəki mağaza və dükan və bilümum [ümumən] lövhə bulunan məhəllərdə bəyaz lövhə üzərinə qırmızı yazı ilə türkcə olaraq yazılacaqdır. (Lövhənin yuxarısında türkcə olmaq üzərə aşağısına da rusca yazıla bilər.) Bu xüsus bu on beş gün zərfində xitam bulmuş olacaqdır.

*Mərkəz Komandanlığı*

## ƏRAZİ NƏZARƏTİ DƏFTƏRXANASINDAN

Bir çox məhəlli ərazi və dövlət əmlakı idarəsindən asılı olan ərizələrin Ərazi naziri adına verildiyindən naşi elan olunur ki, bu növ ərizələrin Nəzarət dəftərxanasında saxlamayıb tez həll edilməsi üçün bilavasitə məhəlli topraq və dövlət əmlakı idarələrinə verilməsi mütəmənnadır [xahiş olunur].

Gəncə Şəhər İdarəsinə Otaq vergisi (kvartirni naloq) şöbəsində müvəqqəti olaraq 3 nəfər məmur (agent) lazımdır. Şərait və təfsilatı iş vaxtında Gəncə Şəhər İdarəsinin kargüzarından bilə bilər.

## ELAN

Ərzaq naziri həzrətlərinin binagüzarlığına [sərəncamına] görə noyabr ayının 2-si səhər saat 10-da Gəncə şəhərində Arakelovun evində həcz [müsadirə] olunmuş və iləridən qalmış şeylər müzayidə [hərrac] ilə satılacaqlardır. Satılan şeylər bunlardır: fərş, ipək yaylıq, ipək parça, çit, mis qab, zibilli qənd, yaramaz un, şlanq rezin şinlə, sandalya əqsamı [hissələri], pianino, kəpək, yun, zibilli buğda, körük, inək və qoyun dərisi, duz, qarçs və sairə.

*Ərzaq nazirinin quberniya vəkili*
*Katib*

Əhməd paşa həzrətləri Qafqaz İslam Ordusu komandanlığı dairəsində saat doqquzdan on ikiyə qədər ziyarət edəcək zəvatı [şəxsləri] qəbul edəcəkdir.

## İKİ SİMAYİ-SİYASİNİN MÜHARİBƏ HAQQINDAKI MÜTALİƏLƏRİ MÜNASİBƏTİLƏ

Bütün ənzari-miləl və əqvamın [millətlərin və qövmlərin nəzərlərinin] kəmali-diqqətlə bəkləməkdə olduqları bir həqiqət var. O həqiqət də 51 aydan bəri cahan səhnəsində oynanılmaqda olan bu fəcayeyi-hailənin [qorxunc faciələrin], bu qiyaməti-xuninihərbin [müharibənin qanlı qiyamətinin] son pərdəsidir. Fəqət bu son "pərdeyi-hərb"in qarşısında çeşmduzi-intizar olan [intizarla gözlərini dikən] bədbəxt tamaşaçıların çırpınmalarına, ayaq döyməlerinə, vəlvələ qaldırmalarına rəğmən, faciə aktyorları pək laqeyd, pək məğrur... Aktyorlar: "İstədiyiniz qədər bağırın, əzilin, üzülün! Həpsi əbəs, həpsi beyhudə... Pərdə öz vaxtında açılacaqdır" sözlərinə bir də xəndeyi-istehzalarını [istehzalı gülüşlərini] tərfiq edirlər [qoşurlar]. Aktyorlar müstəğni [etinasız], tamaşaçılar istecalkar [səbirsiz]... Ara-sıra ənzari-tamaşagəranı [tamaşaçıların nəzərlərini] tənvir edən [işıqlandıran] elektrik ziyaları da dəqiqəvi... yenə işıqlar parladı, söndü. Pərdə qalxmır. Müntəziri-tamaşa olanlardakı [tamaşanı gözləyənlərdəki] xələcan [səbirsizlik] və həyəcanı təsəvvür et! Zavallı tamaşaçılar artıq məyus və dil-şikəstə [qəlbi sınmış]... Aktyorlar yenə də məsnədnişin olanlar [yüksək bir mövqeyə çatanlar] kimi məğrur və laqeyd... Pərdə açılmayır. Nə vaxtda açılacaq?! Burası da məchul... Hal böyləcə davam edərək gedir. İstiqbaldan də səs yox. Orası da bir cahani-mübhəm, bir aləmi-əbkəm [lal bir aləm]... Ati – bir xamuşiyi-mütləq [mütləq bir sükunət]. Öylə isə halı [indiki zamanı] gözdən keçirəlim:

Həyatımızın üfüqlərində təraküm etmiş olan [toplaşan] buludların, o qaranlıq və kəsif səhabələrin [buludların] yavaş yavaş dağılmaları şöylə dursun, sanki gündən-günə, dəqiqədən-dəqiqəyə bir qat daha peydayi-zəlam [zülmətlər meydana gətirmək] və təşdidi-təkasüf etməklə [kəsifliyi artırmaqla] gələcək həyatımıza bir sətreyi-zülmət və mübhəmiyyət [zülmət və bilinməzlik pərdəsi] örürlər (hörürlər); div-əndam [div boyda] və cəhənnəmnümun [cəhənnəmi andıran] topların ağızlarından çıxan rüudlar [göy gurultuları], bərqlər [şimşəklər], ölümlər yaradan atəşlər, cəhənnəmlər hələ də afaqi-müqəddərati-miləldə [millətlərin müqəddəratının üfüqlərində] müənnidanə [inadcıl] bir surətdə peydayi-təkasüf edən [kəsiflik göstərən] şu buludların dağılmadıqlarını, yenə də cəhənnəmi [cəhənnəm kimi alovlu] bir bəlağət və təlaqətlə [səlisliklə] elan edib dururlar. Əvət, topların bəlağəti-cəhənnəmiyyəsi müharibənin davamını bizə anladır; pək çox da atəşin bir bəlağətlə... Son pərdeyi-hərb və qital [müharibə və qırğınların son pərdəsi] hələ qapalı, tamaşaçılar da açılmasına didəduzi-intizar [intizarlı nəzərlərini dikmişlər]...

Hərbi-cahanşümulun dört ilini ikmal edərək [başa vuraraq], beşinci sənəsinin də rübünə daxil olması mənə iki siyasi simanı xatırlatdı. Müharibeyi-ümumiyyə haqqındakı əfkar və bəyanati-siyasiyyələrinin nə qədər doğru, nə qədər müsib [yerində] olduğu həqayiqi-vaqeə [hadisələrin həqiqəti] ilə sabit və mübərhən [sübut olunmuş, dəlillərlə sübuta yetirilmiş] olan bu iki siyasidən biri İngiltərənin Hərbiyyə naziri-qəriqi [suda boğulmuş Hərbi naziri] Lord Kitçener, digəri də almanların "xüdavəndi-cəng – hərb tanrısı" Feldmarşal Hindenburqdur. Məlum olduğu üzrə, cahansuz [dünyanı yaxan] ümumi müharibənin elanını mütəaqib [elan edilməsinin ardınca], bir çox haizi-məlumat siyasilər [məlumatlı siyasi xadimlər] hərbin nə vaxtda xitam-pəzir ola [başa çata] biləcəyi haqqında pək çox əfkar və mütaliatda bulundular [mülahizə yürütdülər]. Fəqət onların əfkar və mütaliatları müvafiqi-həqiqət olmadı. Hərbin bu günə qədər imtidadı [uzanması] isə bütün o zünun və təxminati-siyasiyyələri [siyasi zən və təxminləri] təkzib edən dəlail və bərahini-müqneədəndir [qənaətbəxş dəlil və sübutlardandır]. Bir çox siyasiyyun, hərbin nə vaxtda qurtaracağına dair belə vaxt təyin etmişlərdi. Şu zənlər həp xəyaldan ibarət olub qaldı. Lakin Kitçener və Hindenburqun təxminati-siyasiyyələri isə boşa getmədi, doğru çıxdı. Nasıl doğru çıxdı? İştə:

– Müharibeyi-ümumiyyə nə vaxta qədər davam edə bilər? Bu xüsusdakı mütaliatınız, əfkari-siyasiyyəniz nə mərkəzdədir?

Fərdayi-hərbdən [müharibənin başlamasından] bir az sonra Kitçenerdən böylə bir sual sorulmuş, naziri-qəriq də müxatəbinə [xitab edilən şəxsə] şu cavabı vermişdi: "Bu böyük müharibə beş sənə davam edə biləcək mahiyyəti haizdir [mahiyyətdədir]. Çünki almanlar beş illik bir mübarizəyə hazırlanmışlardır. Binaileyh [ona görə], Almaniya haqqındakı bir taqım şayiat [şayiələr], müvafiqi-həqiqət olmaqdan pək uzaqdır. Məsələn, deyilir ki, Almaniyanın mənbeyi-qüvvəsi bitmək, tükənmək üzrədir. Almaniya aclıq saiqəsi [səbəbi] ilə təslimə məcbur olacaqdır. Bu sözlərlə ciddən kəndimizi aldatmış olarız. Düşmən güclüdür. Son dərəcə mətanətlidir. Xəyalat və indiyyatı [xəyalları və uydurmaları] buraxaraq, həqiqətə inanmalıyız!"

İştə dəfini-dəryayi-əbədiyyət olan [əbədiyyət dənizində basdırılan] Kitçenerin məhsulizəkayi-siyasisi [siyasi zəkasının məhsulu]...

– Bu aləmşümul müharibədə hangi tərəf qalib və hangi tərəf məğlub olacaqdır?

Müharibədən bir qaç ay keçmiş bulunurdu. Mətbuat mühərririndən bir zat Hindenburq ilə mülaqatda bulunmuş [müsahibə aparmış], fövqdəki [yuxarıdakı] suala cavab istəmişdi. Müşarileyh [adı çəkilən] general dəxi atidəki [aşağıdakı] mənidar [mənalı] cavabı vermişdi: "Bu təxribkar dünya müharibəsində hangi millətin, hangi müharib dövlətin üruqü-ə'sabı [hissləri və əsəbləri] mətin və sağlam isə o, zəfəryab olacaqdır." Bundan anlaşılan şudur ki, ə'sabü-üruqu sağlam və mətin olmayan millətlərin də məğlubiyyəti mühəqqəqdir [qaçılmazdır]. Veyl olsun [vay halına] həyatda məğlub olanlara!

İştə xüdavəndi-cəng Hinderburqun da səməreyi-dəhayi-siyasisi! Filhəqiqə [doğrudan da], millətlər arasında sərzədeyi-zühuri-dəhşət olan [dəhşətləri meydana çıxaran] bu məhşəri-hərbücidaldan öylə qanlı vaqeə və faciələr törədi ki, –hələ də törəməkdədir– şu fəcayeyi-xunin [qanlı faciələr] qarşısında mətanətli dura bilmək üçün çox sağlam üruqü-ə'saba ehtiyacımız vardır. Mətanəti-qəlbiyyəyə malik olmayan, üruqü-ə'sabı zəif olan bir millət, bir heyəti-ictimaiyyə, "xüdavəndi-cəng"in dediyi kimi, bu hərbi-haildə [qorxunc müharibədə] məğlub olacağı bütünbütünə şübhədən varəstə bir həqiqətdir. Türklərin ədibi-ə'zəmi [ən böyük ədibi] Namiq Kamal bəy də "hərb ilahı" Hinderburqun söylədiyi mənada xamərani-irfan olmuş [irfanla qələm oynatmış], demişdi ki:

Edər tədviri-aləm bir məkinin qüvveyi-əzmi
Cahan titrər səbati-payi-ərbabi-mətanətdən

Bir heykəlsazı-mümtazın [görkəmli bir heykəltəraşın] da şu sözlərinə ətfi-nəzəri-diqqət edəlim [diqqətlə nəzər yetirək]: "Gözəlliklə çirkinlik qarşı-qarşıya duracaq olarlarsa, gözəllik zəfəryab olar. Təbiət ilahi xətvələrlə [addımlarla] daima iləriyə doğru gedir, daima gözəlliyə meyl edir." Hüsn [gözəllik] qüvvətin səmərəsi, çirkinlik də zə'f [acizlik] və mərəzin məhsulu deyilmidir? Öylə isə miləlşümul [bütün millətləri əhatə edən] hərb qarşısında qayətdə [son dərəcə] qüvvətli və mətanətli bir mövcudiyyətlə durmalıyız ki, hüsnara [gözəllikləri artıran] bir həyati-zəfərpərvəranəyə [zəfərə çatdıran bir həyata] bəhəqq [doğrudan da] məzhər [nail] ola biləlim. Nasıl ki, böyük qardaşımız olan Osmanlılar beş yaşına qədəm qoymuş şu müdhiş müharibeyi-üzmada [ən böyük müharibədə] nə dərəcədə sağlam olduqlarını bütün mənası ilə göstərmiş oldular. Və hərb davam etdiyi müddətcə də göstərəcək, səməreyi-müzəffəriyyətlərini də iqtitaf eyləyəcəklərdir [qələbələrinin meyvələrini toplayacaqlar]. Bütün yar və əğyara [dosta-düşmənə] isbat etmiş olacaqlardır ki, türklərin üruqü-ə'sabı heç bir zaman, heç bir hərbdə titrəmədi, titrəməyir və titrəməyəcəkdir.

*Bakı, 12 məhərrəm 1337*
*[19 oktyabr 1918]*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## LALƏ

*(Səlma Səlim Sirriyə)*

Bir çiçəyəm, adım lalə
Gül, bənəkşə bana halə
Bağçaların məlikəsi
Çıldırtaram bən hər kəsi

Sarı, mor, al, bəyaz, pənbə,
Bularsan hər rəngi bəndə.
İncə ruhlu əski türklər
Sünbüldən çox bəni sevər.

Xəlifələr əllərində
Ehtişamla daşırlardı.
Sultanların bellərində
Lalələrdən kəmər vardı.

Rənglərimə baxarlardı,
Bir çox isim taxarlardı,
Simtənlər, duşizələr,
Şahbanular, nələr, nələr...

İlhamıydım bən Nədimin,
Sevgilisi İbrahimin,
Bayılardı şən vəzirlər,
Sıra-sıra bizi dizər.

Bağçıvanlar müştəriyə:
"Buyrun, üç yüz altun" deyə.
On üç bahar fəqir, zəngin
Lalələrlə yapdı ayin.

İsmi[mi] bir dövrə verdim,
Öylə məqbul bir çiçəkdim.
Sonra bəni unutdular,
Toprağımı qurutdular.

Heç olmazsa xatirəmi
Siz çocuqlar saxlamazmı?

*İstanbul, 1918*
*Ruşən Əşrəf*

*Məktəblərə dair*

## YENƏMİ QƏFLƏT?

Hər nə qədər şu iyirminci əsri-tərəqqidə məktəb və mədrəsələrin lüzumundan bəhs etmək gülünc bir şey isə də, fəqət bir qaç gündən bəri Maarif Nəzarətinin milliləşən edadi siniflərinə çocuqlarımızın yazılmaları haqqında verdiyi elanlara qarşı hələ xalqımızın canlı cənazə kimi durmaları və övladlarını o siniflərə yazdırmamaları, bizi on-on iki sənə bundan müqəddəmə [əvvələ] qədər milli məktəblər haqqında etdiyimiz fəryadlar kimi, yenə bu gün bir taqım fəryadlar etməyə məcbur edir.

Halbuki bu yolda ediləcək fəryadlar o millətə yaxışır ki, o, məktəb və mədrəsələrin lüzumunu, təhsili-ülum və fünunun [elm və fənlərin təhsilinin] əhəmiyyətini anlamasın və onu təqdir etməkdən aciz olsun. Binaileyh, bu gün artıq millətimiz məktəb və mədrəsələrin lüzumunu anlayır. Ülum və fünunun əhəmiyyətini bilib, onu təqdir edir. Buna görə, bədəvi bir millətə bağırır, çağırır kimi bir taqım fəryadlar qoparmaq istəməyiriz. Odur ki, doğrudan-doğru sədədə [əsas mətləbə] keçərək deyiriz:

Əfəndilər!

Bu gün artıq əsrlərdən bəri o alçaq missionerlərin təhti-əsarətində [əsarəti altında] bulunan məktəblərimiz və baxüsus edadilərimiz o əsarətdən qurtuldu və o zalımların o məktəblərdə təqib etdiyi o mənhus məfkurələr bərbad edildi. Onun yerinə şimdi türk qayələri, islam məfkurələri doğmağa başladı.

Xülasə, bu gün Maarif Nəzarəti artıq o əski məktəbləri, o zəhərli proqramları yıxıb dağıtdı və bu surətlə əsrlərdən bəri övladlarımızın çəkdiyi o ruhi əziyyətlərə, o mənəvi məşəqqətlərə xatimə çəkdi. Bir tərəfdən Hərbiyyə Nəzarəti vətəni müdafiə etmək üçün qüvvət orduları təşkil etdiyi kimi, digər tərəfdən Maarif Nəzarəti də vətənin ehtiyacati-milliyyə və mənəviyyəsini [milli və mənəvi ehtiyaclarını] təsviyə etmək [aradan qaldırmaq] üçün şanlı bir mərifət ordusu təşkil edir ki, bu ordu ancaq bizi və vətənimizi rahi-nicata [qurtuluş yoluna] sövq edə biləcək.

Binaileyh bir vətənin ki belə bir ordusu olmaz, bir millətin ki belə bir ləşkəri bulunmaz, o vətən, o millət heç bir vaxt səadətə nail olammaz. Daima həqir, səfil, zəlil olub başqalarının yumruqları altında əzilər.

Bu gün vətəni sevirəm, milləti istəyirəm deməklə vətən sevilməz, millət istənilməz. Vətənini sevən, millətini istəyən, onlara fədakar övlad yetişdirməyə çalışar. Bir kəndi-kəndinizə, daha doğrusu vicdanınıza sorunuz, sorunuz ki, nədən biz Qafqaziyada yaşayan müsəlmanlar, bütün millətlərdən ziyadə olduğumuz halda, daima onların təərrüzlərinə [hücumlarına], təcavüzlərinə, sərzənişlərinə [danlaqlarına] hədəf olmuşuz?!

Əgər bu sualı vicdanınıza vermiş olsanız, onda əmin olunuz ki, vicdanınız: "Onlar yatmadı, çalışdı, istiqbalı [gələcəyi] düşündü; onunçün övladlar yetişdirdi. Heyhat ki, sən yatdın, çalışmadın, istiqbalı düşünmədin, onunçün övladlar yetişdirmədin. Odur ki, onların təərrüzlərinə, təcavüzlərinə, sərzənişlərinə hədəf oldun" deyə cavablar verəcək. Fəqət bilməm ki, siz bu cavablardan mütəəssir olacaqmısınız?!

İştə, vicdanınızın sizə verdiyi şu cavablardan mütəəssir olduğunuzu o vaxt isbat edə biləcəksiniz ki, vətəni-müqəddəsimizə müqtədir övladlar yetişdirmək üçün qəzetəmizin baş tərəfində Maarif naziri Nəsib bəy Yusifbəyli həzrətlərinin edadi məktəbləri haqqında verdiyi elanı oxuyub, onu bir an fövt etməyərək [bir an belə itirmədən] icraya atılasınız və dərhal çocuqlarınızı edadi məktəblərinə verməklə amali-milliyyə və vətəniyyəmizi təmin etməyə çalışarsınız!

*Rza Zaki*

*"Azərbaycan"ın təfriqəsi 3*
*Zəfər yolunda*
*Ənvər paşa həzrətlərinə!*

## Məhməd Əmin bəy
## ORDUNUN DASTANI

Çanaqqala qəhrəmanlarına

Nasıl olur, hər üfqündə Kamalların,
Sinanların
Cameləri parıldayan,
Nədimlərin, Nəf'ilərin sazlarını
hayqırtdıran
Bu dünyanın ən sevimli, gözəl şəhri
əldən çıxsın?
Bir böyük türk xaqanının yüksəltdiyi
bir hasarda
Rus çarının qara quşlu bayraqları
dalğalansın?
Peyğəmbərin, fatehini mədh etdiyi bir
diyarda
Bu fatehin sənduqəsi, kəmikləri
parçalansın?
Mümkünmü ki, beş əsrdir bizə xütbə
dinlətdirən
O mübarək məbədlərin o minlərcə
minbərindən
Bizə öc, kin duyanların
Çirkin bayquş qəhqəhəsi kimi məlun
səsi gəlsin?
O tarixi düşmənlərin
Qılıcları, süngüləri gözlər oysun,
qəlblər dəlsin?
Və o zalım kazakların pəncəsində pak
qadınlar,
Türk və islam gəlinləri saç yolsunlar,
hıçqırsınlar?

* * *

Ey atalar, ey yurd üçün uğraşanlar!
Ey ölümə yalınqılıc yürüyənlər!
Ey divlərin leşlərini sürüyənlər!
Ey mərama qan içində ulaşanlar!

Fərat, Seyhan, Çorox, Meriç...
Bu irmaqlar
Bizə sizin ömrünüzü nəql eylədi,
O minlərcə xatirəli saf ocaqlar
Xoyunuzu, törənizi həp söylədi.

Bu gün bizim ruhumuzda siz varsınız,
Bir qındakı qılıc kimi köksümüzdə,
Bir qəlbdəki iman kimi özümüzdə
O atəşli dəhanızla yaşarsınız.
Biz sizlərin yaxdığınız həmiyyəti
Bir mehrabın nuru kimi
söndürmədik,
Qəlbimizə saçdığınız fəziləti
Sədəfdəki inci kimi əsirgədik.

Bu xilafət, bu səltənət, bu məmləkət,
Onun altun bəldələri, kə'bələri,
Sarayları, məbədləri, türbələri,
Bütün vətən sizdən bizə bir əmanət!

Bunlar üçün silahlara sarılmayan
Biləkləri qara ilan zəhərləsin!
Düşmənlərə gərilməkdən qısırqanan
Köküsləri zalım dərdlər, qurdlar yesin!

Bizə sizin yatdığınız qanlı torpaq,
Yeddi qat göy, tanrı şahid olsunlar ki,
Düşmənlərin bizdən almaq istədiyi
Torpaqlara yad ayaqlar basmayacaq!

Biz həpimiz sipərlərə giriyorkən
Bu yerləri birər məzar biləcəyiz.
Həyatını, hüququnu biz gənclərdən
Dava edən vətən üçün öləcəyiz!

* * *

Baxın, bütün Çanaqqala qızıl-qara,
Dörd üfüq də yara kimi qanamada.
Şu Rumeli bir anasız öksüz kimi,
Anadolu hicran dolu köküs kimi.

Dün tac kimi yanan səhər
Bu gün kəsik bir baş kimi qana batmış,
Dün uzaqdan qızlar kimi gülən yerlər
Bu gün birər timsah kimi suya yatmış.

O sürülər gəzən yaşıl ovaların
Hər birində canavarlar,
Pərilərin dolaşdığı adaların
Həpsində də ifritlər var.
Baxın, hər yer qan qoxulu bir məzarlıq,
Şu dalğalar, şu rüzgarlar həp hıçqırıq.
Dün laciverd, durğun dəniz nur
sərpərkən,
Eşqə dalmış gözlər kimi gülümsərkən,
Qərbin qanlı, xain əli
Şimdi onun sularını kirlətməkdə.
O nur, çiçək diyarını xəzan yeli
Şaha qalxmış əjdər kimi titrətməkdə...
O yanardağ kimi lavlı ağızları
Atəş qusan donanmalar,
Beş dünyanın bəyaz, siyah, qızıl, sarı
Vəhşiləri həp burdalar!..

*Sonu var*

## TELEQRAF XƏBƏRLƏRİ

Təşrini-əvvəlin [oktyabrın] 15-dən Almaniya mətbuatının verdiyi məlumat.

Valansyen[in] bombardmanı ehtimalı mövcibincə [ehtimalına görə], bu şəhərin 30000 əhalisi şərqə tərəf qaçmağa başlamışdır. Almaniya Hökuməti bundan naşi [ötrü] İsveçrə Hökumətinə müraciət edərək Fransa və müttəfiqlərinin şimali Fransa əhalisi mənafeyini nəzərə almaqla, böyük şəhərləri atəşə tutmaq xəyalından daşınmağı təklif etmişdir. Almaniya Hökuməti əhalinin bir hissəsinin xətti-hərbdən [cəbhə xəttindən] Fransa torpağına keçməsinə razılıq verir. Bu məsələ bir cəbhənin o biri cəbhə ilə sazişi ilə olacaqdır. Müttəfiqlər bu təklifi rədd edərlərsə, Almaniya Hökuməti, sülhcu [mülki] əhaliyə üz verə biləcək bütün bədbəxtliklər[in] məsuliyyətini kəndi üzərindən atır.

"Havas" acentəliyi məlumatına görə Fransa Finlandiya ilə bütün əlaqeyi-siyasiyyəni qət edir.

Berlin – Təşriniəvvəlin 18-də Kronprins Ruprext ordusundan verilən hərbi xəbər: Biz xətti-hərbimizi Torhut İngelmünsterdən şərqə tərəf Lis arxasına doğru çəkdik. Tərəfimizdən təxliyə edilmiş istiqamətləri düşmən dəhşətli atəşə tutduqdan sonra işğal etmişdir.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 20 oktyabr (bazar günü) tarixli XVII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Koolskampın hər iki tərəfi düşmən tərəfindən atəşə tutulmuşdur. Düşmən bir çox yerlərdə təərrüzlər [hücumlar] yaparsa da, dəf edilmişdir. Düşmən Sel xətti-hərbində bizim siperlərə soxulduysa da, bisikletçilərimiz [velosiped batalyonu] tərəfindən dəf edilmişdir. Denen şəhərinin ingilislər tərəfindən bombardmanı davam etməkdədir. Düşmən atəşi Fransa qaçqınlarına tələfat vermişdir.

– En cəbhəsində bəzən top müharibələri vaqe olmadadır. Bren şimalında başlanan fransız hücumları dayandırılmışdır. Qrandpredən qərbə tərəf Qalvitsin ordusu bizim təzə xətlərimiz qarşısında məğlub olmuşdur. Eyer şərqində ümdə zərbələri Şampoil və Landr tərəfinə çöndərilmiş olan Amerika əsgərlərinin hücumu dəf edilmişdir. Hər iki məntəqə müdafiə ilə saxlanmışdır. Landr cənub-şərqində olan təpə, təbəddülatlı müvəffəqiyyətlərdən sonra [bir neçə dəfə əldən-ələ keçdikdən sonra] düşmən əlində qalmışdır. Düşmənin Maas çayının şərq sahilindəki hücumları həmçinin müvəffəqiyyətsiz olmuşdur. Flaxas qərbində zirehli avtomobillərlə düşmənin dəf edilməsində Birinci Landver firqəsi [diviiyası] şücaət göstərmişdir.

– Cənub-şərq müharibə meydanından xəbər verirlər ki, Yaqodina ilə Niş arasındakı təzə cəbhəmizdə düşmən Morava qərbində Kruşevaç ilə Aleksinaça çatmışdır. Həmin xətdə vaqe olan düşmən hücumları dəf edilmişdir.

– İstanbul, 10/17. Bütün cəbhələrdə əhval təbəddülatsızdır [dəyişməmişdir].

– Berlin, 10/17. Axşam alınan rəsmi xəbərlərdə deyilir ki, Le-Kato ilə Uaza arasında düşmən təzə hücumlar başlamışdır. 36 kilometr məsafəsindən ziyadə olan cəbhədə düşmən böyük güc ilə cəbhəmizi yarmaq istəmişsə də, müvəffəqiyyət qazana bilməmişdir. Hücum edən düşmən əsgərlərinin bir hissəsi bizim xətlərimiz qarşısında, digər hissəsi isə topxanamız mövqeyi qarşısında məğlub olmuşlardır.

– Vyana, 10/17. Alınan rəsmi əsgəri xəbərlərdə deyilir ki, Zibenqeymen yanında İtalya kəşfiyyat dəstələri dəf edilmişlərdir. Albaniyada Tirana şimalında müharibələr vaqe olmuşdur. Serbiyalılar Morava qərbində irəli hərəkət etmişlərdir. Kruşevaç şərqində vaqe olan hücumlar dəf edilmişdir.

– Lion, 10/16. Fransa simsiz teleqrafının verdiyi xəbərə görə Kral Albertin komandasında vaqe olan İngiltərə-Belçika hücumları çaharşənbə günündə müvəffəqiyyət ilə davam etmişdir. Hücum edilən bütün cəbhə boyu beş-altı kilometr məsafəsində irəli edilən hərəkat dayandırılmışdır. Belçika əsgərləri Torhutun yaxınlığındadırlar. Cənuba tərəf fransız əsgərləri Lixtervelddən Rulerə gedən dəmiryol xəttini keçmişlərdir. İngilis əsgərləri Kortreykə qədər irəliləyib Meneni almışlardır. Bu əməliyyati-hərbiyyələr [hərbi əməliyyatlar] əsnasında bir çox əsir alınmışdır.

– Vyanadan xəbər verirlər ki, Avstriya Hökuməti ərzaq şeyləri əvəzinə Lehistana büsbütün muxtariyyət verməyə hazırdır.

– Berlindən xəbər verirlər ki, Vilson tərəfindən Almaniyaya verilən notada 14 maddənin bilamümaniət [maneəsiz] əmələ gətirilməsi təkid edilməkdədir.

– Xristianiyadan xəbər verirlər ki, Portəgizdə böyük iğtişaşlar vaqe olmaqdadır. Mühasireyi-əsgəriyyə [hərbi blokada] elan edilmişdir.

– Stokholmdan verilən xəbərlərə görə, Türkiyə Hökuməti Amerikaya nota göndərib, Vilsonun notası əsasınca sülh müzakiratı başlanması təklifində bulunmuşdur.

– Berlindən bildirildiyinə görə, Varşava sosial-demokratları ümumi tətil elan etmişlərdir. Demokratik tələbatını haiz olan tətil, müvəffəqiyyətli keçmişdir.

– Vyanadan verilən məlumata görə, Polşa-Venqriya Şurası Varşavada mühüm işlər müzakirəsindən ötrü Polşa sosial-demokrat nümayəndəsini dəvət etmişdir.

## TƏBLİĞİ-RƏSMİ [RƏSMİ MƏLUMAT]

1. Dərbənd cəbhəsində: 16/10/34. Tərəfeyn arasında xəfif topçu atəşi təati edildi. [İki tərəf arasında qarşılıqlı yüngül topçu atəşləri meydana gəldi.] Bir düşmən təyyarəsi mövazemiz [mövqelərimiz] üzərində bir müddət təyəran etdi [uçdu]. Bütün sükunət vardır.

2. Digər məntəqələrdə sükunət vardır.

## BAKI XƏBƏRLƏRİ

**Ruşən Əşrəf bəy şəhərimizdə**

İstanbulda çıxan "Yeni gün" qəzetəsi mühərrirlərindən, türklərin incə və zərif şairlərindən Ruşən Əşrəf bəy şəhərimizi təşrif buyurmuşlardır. Kəndiləri burada bulunduğu müddətcə Bakı əhalisinə bir qaç konfrans verməklə bərabər, qəza və qəsəbələri do-laşaraq oralardakı qardaşlarımızın da fikirlərini açacaq konfranslar verəcəyi istixbar edilmişdir [xəbər verilmişdir]. Bu hərəkət və irşadından dolayı qəzetəmiz millətimizin mədyun [borclu] olduğu təşəkküratı şimdidən əda etmək üçün pək böyük bir hissi-minnət-dari duyur və kəndisini alqışlayır.

**Hacı Əhməd paşanın Bakıya vürudu [gəlişi]**

Bir qaç gün bundan müqəddəm Qafqaziya İslam Ordusu Baş komandanı, fəriq Nuri paşa və Ənvər paşa həzrətlərinin pədərləri [ataları] Hacı Əhməd paşa həzrətləri xüsusi qatarla Bakı şəhərinə varid olmuşdur. Hacı Əhməd paşa həzrətlərini istiqbal üçün Azərbaycan Hökumətinin Daxiliyyə naziri Behbud bəy Cavanşir və Hökumət kontrolu Əbdüləli bəy Əmircanov "Ələt" mövqifinə [stansiyasına] getmişdilər. Şəhər mövqifində Hacı Əhməd paşa həzrətlərini şəhər əhalisi tərəfindən Bələdiyyə İdarə nümayəndələri pişvaz etmişlərdir. Bələdiyyə İdarəsi rəisi əvəzində M. Y. Mehdiyev və islam əhalisi nümayəndələri möhtərəm müsafirə təbrik nitqləri ilə müraciətdə bulunub, əsgəri qitəat [hərbi hissələr] isə bu möhtərəm müsafiri musiqi ilə qarşılamışlardır. Hacı Əhməd paşa həzrətləri şəhər mövqifindən Nuri paşa həzrətlərinin nəzdi-alilərinə təşrif buyurmuşlardır.

**Əhməd paşanı ziyarət**

– Baron fon der Qolts, Əhməd paşa həzrətlərini ziyarət eyləmişdir və əsnayi-mülaqatda [söhbət əsnasında] türk və islam aləmində inqilabati-əzimə və mühimmə [böyük və mühüm inqilablar] vücuda gətirən iki generalın babası [atası] və bir generalın qardaşını ziyarət etməklə məhzuz [məmnun] olduğunu dərmiyan [ifadə] eyləmişdir.

– Bakı erməni camaatı tərəfindən Bakı erməni mürəxxəsəsi [nümayəndəsi] ilə müsyö Kukasov və digər bir zat Əhməd paşa həzrətlərinə bəyani-xoşamədi [xoş gəlmişsiniz demiş] və Osmanlıların Azərbaycanda bila-təfriqi-dinü-məzhəb [din və məzhəb fərqi olmadan] bilcümlə əhaliyə hüququnu mühafizə xüsusunda siyyanən [bərabər] müamilə [rəftar] eylədiklərindən dolayı ərzi-təşəkkürat eyləmişlərdir.

***

Necə ki məlumdur, Maliyyə nazirinin əmrilə Bakı xəzinəsindən Bakı bonu əvəzinə Zaqafqaz pulu dəyişilməsi fəsx edilmişdir. Şimdi isə bu qanuna baxmayaraq Bakı şəhərinə ərzaq gətirmək arzusunda olan tacirlərə nisbətən yenə də bu qanunun iadə edilməsi hökumət tərəfindən qət edilmişdir. Uyezd naçalnikləri məhəllələrdə satılıb, yaxud alınan malların müəyyən qiymətini bilməlidirlər ki, məhdud əndazədə pul dəyişdirmək mümkün olsun.

Maliyyə nazirinin əmrilə "Kazyonnaya palata" [Xəzinə palatası] Gəncədən Bakıya köçürülmüşdür.

***

Bakı Ticarət məktəbi bununla xəbər verir ki, məktəbin hamı siniflərinə yeni mütəallimlər [şagirdlər] qəbul olunur. Xahiş edənlər saat 10-dan birədək Merkuryev caddəsində 34 nömrəli evdə Şefferlinskin musiqi məktəbində yazılmalıdırlar. Telefon nömrə: 82-5.

***

Maarif nazirinin müavini H[əmid] b[əy] Şahtaxtinski Gəncədən Bakıya gəlmişdir.

***

Təşrini-əvvəlin [oktyabrın] 15-də Bakıdan Dərbəndə birinci yük və sərnişin qatarı göndərilmişdir. Gələcəkdə vaqonların ədədi artarsa, Dərbənd-Bakı arasında müntəzəm bir surətdə qatarlar işləyəcəkdir.

***

Azərbaycan dəmiryolunun müdiri Gürcüstan dəmiryolu müdirinə xəbər vermişdir ki, Gürcüstan mövqiflərinə [stansiyalarına] sərnişin və yük qəbul edilir. Gürcüstan dəmiryol idarəsi də bu növ müamilatda bulunmalıdır [bu cür əməliyyatları həyata keçirməlidir].

## QƏZETƏLƏRDƏN

"Yedineniye" nam Tiflis qəzetəsində işbu teleqramlar dərc edilmişdir:

**Amerika cəbhəyə nə verir?**

Amerika Konqresinin Avropada iqamət edən [yaşayan] 9 nəfər üzvü elan etmişlər ki, Amerikanın hal-hazırda 20 milyon əsgərliyə çağrılacaq qüvvəsi vardır. Hər sənə bu rəqəmin üzərinə bir milyon da əlavə edilir. Hal-hazırda cəbhədə iki milyon əsgər vardır. Bir milyon əsgər də ordugahda təlim edilir. Hər gün Amerikadan 10000 əsgər çıxır. Amerikada hesabsız tüfəng, pulemyot və ləvazimati-hərbiyyə hazırlanır. 25 min təyyarə hazırlanmaqdadır. Bu təyyarələrdən ötrü 100 min kişi təlim edilmişdir. Avropada hal-hazırda 500 hərb makinamız iştirak etməkdədir.

Sualtı müharibəsi önünü almaq qəsdilə atidə [gələcəkdə], biz bir milyon tonilatoluq gəmi inşa edirik. Ən yaxın zamanda dəryada, qarada, havada belə Almaniyanı geri atmağa müvəffəq olacağız.

"Yedineniye" qəzetəsi işbu sözləri əlavə edir:

Bu rəqəmlərlə Almaniya daxili və xaricində baş qalxızmış bir çox məsələləri müqayisə etdikdə, işlərin dəyişməsi ehtimalı görünür.

İdarədən: Tiflisdə nəşr edilən "Borba" və "Yedineniye" kimi qəzetələrin yazdıqları həqiqətə səbəb olsaydı, şimdi ingilislər Berlin, İstanbul, Vyananı tutmuş olmalı idilər. İşbu qəzetələrin məslələri [əqidələri] qareini-kirama [hörmətli oxuculara] artıq məlum olduğundan, bu yolda artıq məlumat verməyi zaid [lüzumsuz] görürüz.

**Petroqradda**

Alınan məlumata görə, Petroqradda əski Sədrəzəm [Baş Nazir] Vladimir Trepov güllələnmişdir.

Orşa mövqifində [stansiyasında] Fövqəladə Komitə əmrilə Ukraynaya gedəcək jandarmaların əski şərifi Cunkovski ilə əski polis müdiri Vissarionov öldürülmüşdür.

Əski nazir Makarovun Petroqradda öldürülməsi xəbəri alınmışdır.

***

Tiflisdə nəşr olunan "Kavkazskoye slovo" qəzetəsinin mühərriri Qafqaziyada olan alman heyətindəki məlumat bürosunun müdiri professor Tsuqmayer ilə görüşüb bir para işlər haqqında böylə məlumat almışdır:

**Vilsonun cavabı**

Vilsonun cavab notasında göstərilən sülh müzakiratı şəraiti Almaniya üçün naməqbuldur. Sülh müzakiratının mütarikə [atəşkəs] əqd edilmədən [sazişi bağlanmadan] başlanması ehtimalı vardır.

**Sofiyanın zəbti**

Bolqariya paytaxtı Sofiya şəhəri müttəfiq dövlət əsgərləri tərəfindən zəbt edilmişdir.

**Qərb cəbhəsində**

Burasını qeyd etməlidir ki, hərgah müharibə uzun müddət davam edərsə, payız fəsli yavuqlaşdığına görə qərb cəbhəsindəki alman əsgərlərinin halı artıq dərəcədə yaxşılaşacaqdır. Çünki növbənöv əsgərlərdən ibarət olan müttəfiq dövlət əsgərlərinin çox hissəsi yavuqlaşmaqda olan qış fəsli üçün hazırlanmamışlardır.

Amerika-ingilis və Fransa əsgərlərinin bu axır vaxt ciddi hücumlarda bulunmaları, qış fəslinə qədər bir nəticəyə müvəffəq olmaq arzusunu andırır. Səy və təlaşa baxmayıban, indiyə qədər düşmən əqəllən [ən azı] bir ordunu mühasirə və mühimmati-hərbiyyə [hərbi ləvazimat] zəbt etməyə müvəffəq olmamışdır. Müharibənin davamı Şimali Fransa və Belçika şəhərlərinin xarabazara döndərilməsinə bais olacaqdır.

Müttəfiq Dövlətlər qış fəslinə qədər bir nəticəyə müvəffəq olmasalar, ingilis hökuməti daha da artıq Amerikanın nüfuzu altına keçər.

**Əsgərlərin əvəz edilməsi**

Zaqafqaziyada olan alman süvari əsgərlərinin bir hissəsi Ukraynadan gələcək piyada əsgərləri tərəfindən əvəz ediləcəkdir.

**Vyanada məscidi-came**

Vyanadan "Sabah" qəzetəsinə xəbər verirlər ki, Avstriya Hərbiyyə naziri Vyanada islam əsgərləri ehtiyacatı üçün bir came məscidi tikilməsini qərara almışdır. Bu münasibətlə islam əsgərlərinə müraciətən verilən xüsusi əmrdə Hərbiyyə Nəzarəti bu müharibə müddətində müsəlmanlar tərəfindən məmləkətə göstərilən xidmətləri və müsəlmanlarla hökumət arasında bərpa edilən mehribançılığı ayrıca qeyd etmişdir.

## RUSİYADA

Hacı-Tərxan təriqi ilə Orenburqdan gəlmiş müsafir, Orenburq müsəlmanları haqqında belə məlumat verir:

4 min silahlı əsgərə malik olan tatarlar kazaklar ilə bolşeviklər arasında olan müharibələrdə iştirak etməmişlərdir. Məzkur əsgərlər ancaq şəhər asayişini mühafizə etməkdə olub, mühariblərin [döyüşənlərin] şəhərə daxil olmasına mümaniət [maneçilik] göstərmişlərdir. Buna binaən, hamı müharibələr şəhər ətrafında vaqe olmuşdur. Şəhərdə dəfələrlə hökumət əldən-ələ keçib, nəticədə bolşeviklər tamamilə şəhərə sahib olmuşlardır. Tatar əsgərləri arasında bolşevik ruhu oyanmağa başladığından, tatar və rus bolşevikləri birləşib, şəhəri büsbütün qarətə başlamışlardır. Xüsusən şəhərin müsəlmanlar yaşayan hissəsindən təzminat tələb edilməklə bərabər, məzkur [adı çəkilən] hissə böyük xəsarətə uğramışdır. Bu əhvalatı nəql edən müsafir, may ayı ibtidalarında [əvvəllərində] Orenburqdan çıxıb, ancaq sentyabr axırlarında Hacı-Tərxana gəlib çata bilmişdir. İdil çayı münasibatı [rabitəsi] qət edilmiş imiş. Orenburqdan hamı müsəlman fəaliyyunu [fəalları] ictimai işlərdən kənar edilib, iş başına ancaq cavan fəhlələr keçmişlərdir.

"Yana vakıt" qəzetəsi çıxmaqda davam edir. Bundan əlavə, bolşevik tatar qəzetələri çıxmaqdadırlar. Tatar mühərrirlərindən məşhur Kərimov Orenburqadır. Hacı-Tərxanda büsbütün aclıqdır. Şəhərin bir hissəsi yandırılmışdır. Bolşeviklər arasında İran təbəələrindən də az deyildir. Şəhərin bütün cinayətkar ünsürləri bolşevik firqələrinə daxildir.

## XARİCİ XƏBƏRLƏR
### Bolqariya hadisatına dair

**Fəlakətin səbəbi**

Vyanada nəşr edilən "N. F. P." qəzetəsi yazır ki, Bolqariyada vaqe olmuş hadisat[a], Bolqariya əsgərlərinin aclığı, paltarsızlığı və bunların arasında baş qalxızmış bir çox ə'raz [xəstəliklər] səbəb olmuşdur. Bolqariya ordusunda elə firqələr var ki, davanın əvvəlindən öz səngərlərində dururlar. Bolqariyanın keçən ilki məhsulatı çox az olmuşdur. Bu il də 3 ay müddətində yağış yağmadığından və quraqlıqdan naşi yenə çox az məhsulat gözlənir. Quraqlıq o qədər şiddətlidir ki, paytaxtda həftələrlə su tapılmayıb, elektrik işığının və tramvayın dayandırılmasına səbəb olur. Məhsulat azlığından və ərzaq yoxluğundan, əhali arasında ərzağı hökumət kartoçka ilə təqsimə [paylamağa] məcbur olmuşdur. Bu yeni üsulu camaat artıq təəssüflə qarşıladı. Çünki Bolqariyanın əkinçi camaatı gündə 250 qram çörək aldığından xeyli narazı idi. Evlərindən cəbhəyə qayıtmış saldatlar, qoşun arasında məmləkətin bu vəziyyətini nəql etdikdə, Bolqariya əsgərlərinin ruhu büsbütün öldü.

**Vilson və Bolqariya**

Parisdən, Londradan, Vaşinqtondan xəbər verildiyinə görə, Bolqariyanın sülh çıxışı eylülün [sentyabrın] 10-da Vaşinqtonda Vilson ilə Bolqariya səfiri arasında qət edilmişdir. Eylülün 16-da Balfur Balkanda böyük zəfərlər gözləndiyini xəbər verdikdə, Bolqariyanın qarşıda durmayacağını bildirmiş.

"Jurnal-de-Jenev" xəbər verir ki, Bolqariya Vilsona nota göndərərək, onun məramnaməsinə razı olduğunu bəyanla, sülh konferansında Bolqariyanın mənafeyi gözlənərsə, tərki-silah edəcəyini izhar etmişdir.

**Avstriya-alman mətbuatı Bolqariya hadisatı haqqında**

Nemes mətbuatında "B. T." qəzetəsi yazır ki, bu axır vaxtda Bolqariyanın sülhə tərəf yaxınlaşdığı aşkar idi. Burası Sofiyaya getmiş Bavariya kralı Lüdviq və Berlin Müstəmləkat [Müstəmləkələr] naziri Solfa da məlum oldu. Zəif çar Ferdinand bu axırıncı hadisata tamaşaçı idi.

Malinov dəstəsi çar hökumətini yıxıb, sülh bağlamaq arzusunda olduğunu çar bilmiş idi.

Bitərəf dövlətlər mətbuatının verdiyi məlumata görə, Malinov sülh barəsində müzakirəyə girişmişdir. Müttəfiqlər Ferdinandın xəl' edilməsini [taxtdan endirilməsini] tələb edirlər. Çar Ferdinand bunu bildiyi halda, Malinovun hökumət başına keçməsinə mümaniət [maneçilik] edə bilmədi.

Malinovun Müttəfiqlərlə əqd edəcəyi sülhdə Bolqariyanın işğal etdiyi Serbiya torpağını təxliyə edib [boşaldıb], əvəzinə Türkiyənin Avropa hissəsini işğalı tələb edilir.

"F. T." qəzetəsi yazır ki, Malinov neçə vaxtdır ki, Müttəfiqlərlə sülh danışığına girişmişdir. Qəzetə əmindir ki, siyasi dairələrdə Malinovun əleyhinə mübarizə başlanıb və bu mübarizədə Malinovun əksinə qalxışanlar müzəffəriyyətinə əmindir. Çar Ferdinand Malinovun təşəbbüsü önünü almaq istəyir. Güman edilir ki, Malinovun təşəbbüsü Müttəfiqlərin verdiyi təminatdan baş vermişdir. Malinov sülh şəraitinin [Malinovun sülh şərtlərinin] Müttəfiqlər tərəfindən rəddinə ehtimal vardır. Bu surətdə Malinov hökumət başından düşəcəkdir.

**Almaniya mətbuatının verdiyi məlumat**

"K. M." yazır ki, təşrini-əvvəlin [oktyabrın] 10-da Ukrayna ilə Krım arasında danışıq olmuşdur. Rəisi-vükəla Ukrayna bəyannaməsini oxuyub, Ukrayna ilə Krım arasındakı etilafın [razılaşmanın] şəraitini [şərtlərini] elan etmişdir. Krım heyətinin sədri Vomatoviç demişdir ki, Ukrayna tərəfindən verilən şərtlər Krım üçün qeyri-məqbuldur.

Əleyhində maddələrə cavab verməkdən ötrü təşrini-saninin [noyabrın] 10-na kimi vaxt istənilmişdir.

3-dən 11 gücəcən elektrik velosipedi lazımdır. Hər kimdə varsa, xahiş olunur adresini "Azərbaycan" idarəsində qoysun. L.M. üçün.

## ELAN

Dinlərin[in], vətənlərinin mühafizəsi üçün İslam ordusuna qeyd olunmaq üzrə Bakı şöbəsinə və digər kənd və qəsəbələrdəki komandanlara müraciət edənlərin miqdarı gün-gündən çoxalmaqda, hər kəsin ətrafımızı saran din, vətən, irz və namus düşmənlərinə qarşı hazırlanmaqda olduğu böyük şükranla görülməkdədir.

1-ci maddə – Cavanların ata və analarına və özlərinə bəyan olunur ki, müəyyənsizlər indi İslam ordusuna alınmayacaqdır. Hər kim ki, ərizə yazdıracaq olarsa, kəndini, qəsəbəsini, məhəlləsini, mövlud tarixini, əsgər olan çocuğunun və atasının ismini gözəlcə qoysun, ərizənin zirində [altında] imzası xoşca oxunsun.

2-ci maddə – Mollalara və heyəti-möhtərəməyə [ağsaqqallar heyətinə] bəyan olunur ki, bir cavanın əsgərlik müayinəsində bütün erkək qardaşlarını, əqrəbalarını kətm etməsin [gizlətməsin]. Cavanların sənətini, oxuyubyazmasını, məktəblərdə isə hangi məktəbdə və hangi sinifdə olduqlarını gözəlcə bilsin və zabit əfəndilərə hekayə eyləsin və cavanların özlərindən sual olunmasa belə, yenə zabit əfəndilərin başlarına düşürsün, anlatsın.

3-cü maddə – Xəstə cavanlar dəxi şöbələrinə məhəlləsi cavanları ilə bərabər gəlsin, vaxt keçirməsinlər. Gəlməyənlər haqqında xatalı müamilə olmaq ehtimalı olacağından, özlərini əsirgəsin. Hangi gün, hangi məhəllələr kəndi əxzi-əsgər şöbəsinə gələcəkdir – bunlar Bakı şöbəsi tərəfindən mollalara və heyəti-möhtrəraməyə elan olunmuş və olacaqdır.

*İslam Ordusu Əxzi-əsgər rəyasəti*
*15 təşrini-əvvəl [oktyabr] 34*

Azərbaycan Dəmiryolu İdarəsi elan edir ki, bu ilin 4 təşrini-əvvəl[in]də Bakı ilə Tiflis şəhərləri arasında 3 və 4 nömrəli qatarlar bu qərarla hərəkət edəcəklər:

| Mövqiflərin [stansiyaların] adı | Qatar nömrə 3 | | | |
|---|---|---|---|---|
| | gəlir | | çıxır | |
| | saat | dəqiqə | saat | dəqiqə |
| Bakı | - | - | 7 | 7 axşam |
| Hacıqabul | 11 | 22 axşam | 11 | 57 axşam |
| Yevlax | 5 | 35 sabah | 6 | sabah |
| Gəncə | 8 | 3 sabah | 8 | 23 sabah |
| Ağstafa | 11 | 15 günüz | 11 | 23 günüz |
| Tiflis | 3 | 56 günüz | - | - |

| Mövqiflərin [stansiyaların] adı | Qatar nömrə 4 | | | |
|---|---|---|---|---|
| | gəlir | | çıxır | |
| | saat | dəqiqə | saat | dəqiqə |
| Tiflis | - | - | 11 | 10 axşam |
| Ağstafa | 4 | 22 günüz | 4 | 47 axşam |
| Gəncə | 7 | 34 axşam | 7 | 59 axşam |
| Yevlax | 9 | 44 sabah | 2 | 4 sabah |
| Hacıqabul | 3 | 24 günüz | 3 | 39 günüz |
| Bakı | 7 | 36 axşam | - | - |

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Elan***

"Şəhərdəki mağaza və dükan və bilümum lövhə bulunan məhəllərdə bəyaz lövhə üzərinə qırmızı yazı ilə...": Eyni elan, qəzetin 18-ci nömrəsində belə getmişdir: "… qırmızı lövhə üzərinə bəyaz yazı ilə…"

***Adsız xəbər***

"Əhməd paşa həzrətləri…": Ənvər və Nuri paşaların atası Hacı Əhməd paşa nəzərdə tutulur.

***İki simayi-siyasinin müharibə haqqındakı mütaliələri***

səh. 264. "Edər tədviri-aləm bir məkinin qüvveyi-əzmi / Cahan titrər səbati-payi-ərbabi-mətanətdən": "Nüfuzlu bir kimsənin əzmkarlığı dünyanı fırladar / Mətanət sahibinin ayağını möhkəm basması cahanı titrədər."

"12 məhərrəm 1337": burada tarix, hicri təqvimlə verilmişdir; miladi təqvimlə 19 oktyabr 1918-ci ilə uyğundur.

***"Lalə" şeiri üçün lüğət***

bənəkşə: bənövşə
mor: bənövşəyi
sünbül: sünbülçiçəyi
məqbul: bəyənilən

***Lalə***

Şeirdə Osmanlı İmperiyası tarixində 1718-1730-cu illər arasını əhatə edən və "Lalə dövrü" adıyla bilinən dövrdən bəhs edilir.

"Simtənlər, Duşizələr, Şahbanular": Lalə dövründə geniş yayılmış qadın adlarıdır (Simtən "gümüş bədənli", duşizə "bakirə qız", şahbanu "padşah xanımı" mənasına gəlir).

"Nədim": Klassik Osmanlı ədəbiyyatının ən məşhur şairlərindən olan Əhməd Nədim nəzərdə tutulur. Nədim "Lalə dövrü şairi" və "İstanbul şairi" kimi tanınmışdır.

"İbrahim": Lalə dövründə Osmanlı sədrəzəmi (baş vəziri) olan Nevşehirli Damad İbrahim paşa nəzərdə tutulur. Lalə dövrünə son qoyan Patrona Xəlil üsyanı əsnasında öldürülərək cəsədi üsyançılara verilmişdir.

***"Ordunun dastanı" şeiri üçün lüğət***

kəmik: sümük
uğraşmaq: çalışmaq, səy göstərmək
yalınqılıc: siyirməqılınc
xoy: adət-ənənə; xarakter
qısırqanmaq: əsirgənmək
öksüz: yetim, anasız
canavar: div, qorxunc xəyali məxluq
yanardağ: vulkan

***Ordunun dastanı***

"Kamalların, Sinanların": "Memar Kamaləddin" kimi tanınan Əhməd Kamaləddin və Memar Sinan nəzərdə tutulur.

"Nədimlərin, Nəf'ilərin": Klassik türk ədəbiyyatının ən böyük simaları arasında yer alan Əhməd Nədim (XVIII əsr) və Ömər Nəf'i (XVII əsr) nəzərdə tutulur.

"Bu dünyanın ən sevimli, gözəl şəhri": İstanbul nəzərdə tutulur.

***Bakı xəbərləri: Hacı Əhməd paşanın Bakıya vürudu***

"Fəriq Nuri paşa": səh. 10-dakı izaha baxın.

***Bakı xəbərləri: Əhməd paşanı ziyarət***

"…iki generalın babası [atası] və bir generalın qardaşını…": Əhməd paşanın oğulları Ənvər və Nuri paşalar, qardaşı Xəlil paşa (Xəlil Qut) nəzərdə tutulur.

***Qəzetələrdən: Petroqradda***

"…əski Sədrəzəm [Baş Nazir] Vladimir Trepov güllələnmişdir.": 1918-ci ildə bolşeviklər tərəfindən güllələnən Vladimir Trepov, Baş Nazir olmamışdır. Çox güman ki, 1916-cı ilin noyabr-dekabr aylarında Rusiyanın Baş Naziri olan Aleksandr Fyodoroviç Trepovla qarışdırılır. Aleksandr və Vladimir Trepovlar qardaşdır.

"Orşa mövqifində… Cunkovski… öldürülmüşdür.": Cunkovski Ukraynaya gedərkən Orşa stansiyasında həbs edilərək qatardan düşürülmüş, fəqət güllələnməmişdir. Cunkovski daha sonra, 1937-ci ildə yenə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir.

***Qəzetələrdən: Sofiyanın zəbti***

"…müttəfiq dövlət əsgərləri…": Antanta bloku nəzərdə tutulur.

***Qəzetələrdən: Qərb cəbhəsində***

"…müttəfiq dövlət əsgərlərinin…": Antanta bloku nəzərdə tutulur.

***Rusiyada***

"Tatar mühərrirlərindən məşhur Kərimov…": Fatih Kərimi nəzərdə tutulur.

***Xarici xəbərlər: Fəlakətin səbəbi***

"N. F. P.": "Noye fraye pres" qəzeti nəzərdə tutulur.

***Xarici xəbərlər: Avstriya-alman mətbuatı Bolqariya hadisatı haqqında***

"B. T.": "Berliner taqeblatt" qəzeti nəzərdə tutulur.

"Müttəfiqlər Ferdinandın xəl' edilməsini…": burada və davamında (xəbər boyu) "Müttəfiqlər" deyərkən Antanta bloku nəzərdə tutulmuşdur.

"F. T.": "Fossişe zeytunq" (tseytunq) qəzeti nəzərdə tutulur.

***Xarici xəbərlər: Almaniya mətbuatının verdiyi məlumat***

"K. M.": "Kiyevskaya mısl" qəzeti nəzərdə tutulur.

***Elan***

"15 təşrini-əvvəl 34": burada il, rumi təqvimlə verilmişdir (1334-cü il); miladi təqvimlə 15 oktyabr 1918-ci ilə uyğundur.



# Yayın istisi yox, qidası təhlükəlidir

## Təkcə meyvə və tərəvəzlərdən deyil, hətta sudan belə zəhərlənmə halı qeydə alına bilər

Qida zəhərlənmələri halları fəsil tanımadan hər kəsin başına gələ bilər. Zəhərlənmələr isə qidanın keyfiyyətsizliyi, yararlılıq müddətinin keçməsi, saxlanma şəraiti və ya tərkibindəki hər hansı maddəyə qarşı allergik reaksiya ilə bağlı olur.

Mövsümlə əlaqədar zəhərlənmə verən qidalar fərqli olur. Məsələn, yay aylarında mövsümi meyvələr, dondurma, hətta sudan belə zəhərlənmə halı qeydə alınır. Sudan zəhərlənmə qəribə səslənsə də, amma plastmas qablarda açıq havada, günəş şüaları altında qalmış suların tərkibində dəyişiklik getdiyi üçün belə hallar müşahidə olunur. Buna əsas səbəb suyun saxlanma şəraitidir. Ümumiyyətlə, isti aylarda qida zəhərlənmələrinin başlıca səbəbi məhsulun düzgün temperaturda və şəraitdə saxlanılmaması olur.

Yay aylarında zəhərlənmə halları ilə bağlı həkimə müraciətlər də artır. Qida zəhərlənməsinin inkubasiya dövrü bir neçə saat çəkə bilir. Zəhərləndikdə isə əsas müşahidə olunan simptomlar zəiflik, halsızlıq, ürək bulanması, qusma, ishal və bədən hərarətinin qalxmasıdır.

### Zəhərlənmələrin əsas səbəbi sanitariya-gigiyena qaydalarına riayət edilməməsidir

Kliniki Tibbi Mərkəzin (KTM) 2-ci Yoluxucu xəstəliklər şöbəsinin müdiri Gülnarə Babayeva qəzetimizə açıqlamasında deyib ki, yay aylarında qida zəhərlənmələri ilə bağlı 2 müraciət olub ki, bunlar da qarpızla zəhərlənmə hallarıdır. Onun sözlərinə görə, həmin şəxslər xəstəxanaya hosbitalizasiya edilməyib, vəziyyətləri yüngül olduğundan ilkin tibbi yardım göstərilərək evə buraxılıblar. Həkim qeyd edir ki, mövsümdən asılı olmayaraq ilboyu, demək olar ki, bütün meyvə və tərəvəzlərə rast gəlinir. Aydındır ki, bunlar gübrə ilə süni şəkildə yetişdirilir. Qış aylarında qarpıza, yemişə, digər yay meyvələrinə də rast gəlirik. Ona görə də yay aylarında zəhələnmənin mövsümi meyvəylə əlaqədar olduğunu demək düzgün deyil. Zəhərlənmələrin əsas səbəbi insanların sadə sanitariya-gigiyena qaydalarına riayət etməməsidir.

Gülnarə Babayeva vurğulayır ki, meyvəni aldıqdan sonra yaxşı yumaq lazımdır. Qarpızı kəsdikdən sonra üstüaçıq şəkildə soyuducuya qoymaq olmaz: "Meyvənin yumşaldığını hiss edəndə belə yeməyə davam edirlər. Hesab edirəm ki, zəhərlənmələrin 95-96 faizinin səbəbi gigiyenik qaydalara əməl olunmamasıdır".

Həkim bildirir ki, qəribə səslənsə də, qatıqdan, pendirdən belə zəhərlənmə halları qeydə alınır. Qida qəbulundan 30 dəqiqədən 24 saata qədər ürəkbulanma, başgicəllənmə, öyümə, qusma, mədəaltı nahiyədə ağrı, ishal olursa, buna zəhərlənmə deyilir. Qida zəhərlənməsi daha çox kollektiv xarakter daşıyır, yəni bir evdə eyni məhsuldan istifadə edən 5 nəfərin ikisində bu hal varsa, bu da qida zəhərlənməsi sayılır. Bir nəfərdə bu hal özünü göstərirsə, onda həmin şəxsin xroniki mədə-bağırsaq problemi var.

Şöbə müdiri deyir ki, insanlar öz xroniki mədə-bağırsaq, qaraciyər, öd kisəsi problemlərini bilməlidirlər. Məsələn, yüksək təzyiq də eyni şəkildə ürəkbulanma, qusma halları ilə müşahidə edilə bilər. Hər kəs bu halları qida zəhərlənməsi ilə əlaqələndirir, amma belə deyil. Doğru toplanmış anamnez düzgün diaqnoz qoyulmasına səbəb olur.

Gülnarə Babayeva qida zəhərlənməsinin yüngül, orta-ağır, ağır formada olduğunu deyir. O bildirir ki, botulizm bura daxil deyil, bu, ağır, qida toksiinfeksion xəstəlikdir, əsasən hisə verilmiş balıq, ət, konservlər vasitəsilə yaranır.

Həkim zəhərlənmə zamanı ilkin tibbi yardım barədə tövsiyələrini də verib. Belə ki, əgər evdə soda məhsulu yoxdursa, adi ılıq su ilə mədə təmizlənməlidir. Yüngülləşmə olmursa, mədə ağrısı davam edirsə, bu zaman təcili tibbi yardım çağırmaq lazımdır. Amma həkim bu tövsiyələrin cavanlara aid olduğunu deyir. Xüsusən xroniki xəstəliyi olan yaşlı insanlarda zəhərlənmə halı olan kimi dərhal təcili yardım çağırmağın vacib olduğunu vurğulayır.

### Ötən ay 844 nəfər zəhərlənib, 9 nəfər dünyasını dəyişib

Kliniki Tibbi Mərkəzin məlumatına görə, iyun ayında mərkəzə zəhərlənmə ilə bağlı 844 nəfər müraciət edib. Onlardan 170-i toksikologiya şöbəsinə qəbul edilib, qalanları isə ilkin tibbi yardım alaraq evə buraxılıb.

Qəbul olunan xəstələrdən 89-u dərmandan, 29-u sirkə turşusundan, 8-i dəm qazından, 1-i göbələkdən, 5-i etil spirtindən, 6-sı isə kimyəvi məhluldan zəhərlənib. Müraciət edənlərdən 1-i anafilaksiya səbəbindən, 7-si allergik reaksiyadan, 2-si isə botulizm səbəbindən xəstəxanaya yerləşdirilib. Onlardan 21-ni ilan, 1-ni isə həşərat sancıb. Zəhərlənən şəxslərin 69-u qadın, 92-si kişi, 9-u uşaq olub. 170 nəfərdən 5-i kişi, 4-ü qadın olmaqla, 9 nəfər dünyasını dəyişib.

### Özümüzü qorumaq üçün diqqət edilməli məqamlar

Mütəxəssislərin də qeyd etdiyi kimi, qida zəhərlənmələri əsasən gigiyenik qaydalara riayət edilməməsindən baş verir. Bunun əsasında isə insanların məsuliyyətsizliyi durur. Yəni vaxtı keçmiş, düzgün şəraitdə saxlanılmayan, eyni zamanda temperatur dəyişikliyinə məruz qalmış qidaların diqqət edilmədən və ya ciddiyə alınmadan qəbulu bəzən yaxşı nəticələnmir.

Qida zəhərlənmələrinə müəyyən simptomlarla müşahidə olunan keçici hal kimi baxsaq da, bəzən gecikmiş müdaxilə insanın ölümünə də səbəb ola bilir. Xüsusən isti aylarda yediyimiz hər bir məhsula diqqət yetirməliyik, çünki mütəxəssislər hesab edirlər ki, yay aylarında temperaturun qalxması patogen mikrobların da inkişafını sürətləndirir.

Bu səbəbdən marketlərdən aldığımız bütün qida məhsullarının qablaşdırılmasına, istehsal tarixi və yararlılıq müddətinə diqqət etməliyik. Açıq məhsul almaqdan isə mümkün qədər çəkinmək lazımdır. Hər bir halda sağlamlığımızı qorumaq məsuliyyətini özümüz daşıyırıq. Bu baxımdan sadə sanitariya-gigiyena qaydalarına əməl etməklə, təmizliyi qorumaqla, müəyyən məqamlara diqqət etməklə bəzi təhlükələrdən yan keçə bilərik.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***


## Lənkəran Dövlət Universiteti açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir:

GRAND layihəsi üçün laboratoriya avadanlıqlarının alınması işlərinin satın alınması

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "Asan ödəniş" vasitəsilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "Asan ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 150.00 (bir yüz əlli) AZN**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2022-ci ilin iyun-iyul ayları ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır);*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2022-ci ilin iyun-iyul ayları ərzində verilmiş olmalıdır;*
- *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar);*
- *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması. Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir);*
- *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması. Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin iyun-iyul ayları ərzində verilmiş olmalıdır;*
- *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması. Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin iyun-iyul ayları ərzində verilmiş olmalıdır;*
- *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən);*
- *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə;*
- *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasın Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) **29 iyul 2022-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə **08 avqust 2022-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09 avqust 2022-ci il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Qeyd:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# Ermənistanın "Şimal-Cənub" dəhlizinə qoşulmaq ümidi puç olur

Ermənistan uzun müddətdir ki, "Şimal-Cənub" dəhlizinin ərazisindən keçməyə can atır və bunu özü üçün xilas yolu kimi görür. Bu dəhliz Hindistandan Orta Şərq və Qafqaza kimi uzanaraq Mərkəzi Asiya və Avropanı birləşdirir. Gəmi, quru və dəmir yolları Hindistanın Mumbay limanı ilə İranın Bəndər Abbas limanlarını, həmçinin Bakı, Həştərxan, Moskva, Sankt-Peterburq yollarını birləşdirərək Skandinaviyaya kimi uzanır.

İran, Hindistan və Rusiyadan əlavə, bu nəqliyyat şəbəkəsi Azərbaycan, Belarus, Qırğızıstan, Qazaxıstan, Ukrayna, Türkiyə, Tacikistan, Oman, Suriya və Bolqarıstan arasında da inteqrasiyanı asanlaşdırır. Ermənistan dəhliz üzrə magistral yolun onun ərazisindən keçməsinə çalışır. Amma Ermənistanda bu magistral yolun tikintisinə Asiya İnkişaf Bankı ilə ilk kredit sazişinin imzalandığı 2009-cu ildə başlanılsa da, indiyə qədər hansısa ciddi iş görülməyib.

Ötən dövr ərzində "Şimal-Cənub" yolunun cəmi 5-6 faizi tikilib. Yolun yalnız 31 kilometrlik hissəsi, yəni İrəvan-Artaşat (19,6 km) və İrəvan-Aştarak (11,4 km) hissələri hazırdır. Yolun bu hissələri qəbul və təhvil aktı olmadan və bəzi qeyd-şərtlərlə 2016-cı ildə istifadəyə verilib. Yolun bu hissələrindən faktiki istifadə olunsa da, müqaviləyə əsasən tam istismara verilməyib. Çünki yolun tikintisində müəyyən nöqsanlar var və podratçı şirkət onları tam aradan qaldırmayıb. Betonlanmış hissələrdə hələ də çatlar, pozuntular müşahidə olunur.

"Şimal-Cənub" dəhlizi üzrə magistral yolun İrəvan-Artaşat hissəsinin tikintisinə Asiya İnkişaf Bankının ayırdığı 60 milyon dollar xərclənib. Amma bu yol da hazır deyil. İndi yolun tikintisini Çinin "Sinohidro Corporation" təşkilatı həyata keçirir. Lakin işlər yenə yarımçıq qalıb. "Şimal-Cənub" magistralının ümumi uzunluğunun 5-6 faizini təşkil edən hissələrə dövlət artıq 260 milyon dollar xərcləyib. Yolun ümumi dəyərinə gəlincə, təxmini hesablamalara görə, tikinti Ermənistan büdcəsinə 3,5 milyard dollara başa gələcək. Buna isə Ermənistanın gücü çatmır.

Rusiyadan Hindistana qədər uzanan "Şimal-Cənub" nəqliyyat dəhlizində Cənubi Qafqaz regionu mühüm yer tutur. İndiki halda regionda yalnız Azərbaycan "Şimal-Cənub" dəhlizinin həyata keçirilməsi istiqamətində zəruri addımlar atır. Xüsusən də Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xəttinin istifadəyə verilməsi "Şimal-Cənub" dəhlizinin reallaşmasında, eləcə də Azərbaycan vasitəsilə Rusiya və İran arasında ticarət dövriyyəsinin artmasında mühüm rol oynayıb. Ancaq dəhlizin tam işə düşməsi üçün Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu Qəzvin-Rəşt dəmir yoluna birləşməlidir. Bunun üçün hazırda Rəştdən İran Astarasına dəmir yolu inşa edilir.

İranın yol və şəhərsalma naziri Rüstəm Qasemi qeyd edir ki, müasir dünyada tranzit yükdaşımaların əhəmiyyəti çox artıb: "İran da buna uyğun olaraq addımlar atmalı və 162 kilometrlik Rəşt-Astara dəmir yolunun inşasını başa çatdırmalıdır. İran hökuməti tranzit sahəsində qonşuları, xüsusilə Azərbaycanla əməkdaşlıq əlaqələrinin artırılması istiqamətində addımlar atır. Bu baxımdan İran Çabahar-Sərxəs, Çabahar-Rəşt və Çabahar-Astara, eləcə də İnçə-Burun dəmir yollarının tikintisinə və təkmilləşdirilməsinə xüsusi diqqət ayırır. Çabahar limanı İranın Hind okeanına çıxışı və böyük həcmdə yük aşırımına malik olan limanıdır. Bu gün Çabahar-Zahidan dəmir yolunun tikintisi davam edir. Bu yolun inşası başa çatdıqdan sonra Çabahar ilə Astara arasında dəmir yolu xətti yaranacaq ki, bu da Asiyadan yüklərin tranzit olaraq İran və Azərbaycan üzərindən Avropaya daşınmasına imkan verəcək. İranın çox böyük tranzit potensialı var. Avropa ilə Cənub-Şərqi Asiya və Fars körfəzi ölkələrinin nəqliyyat əlaqəsi İran üzərindən həyata keçirilərsə, büdcəyə valyuta axını təmin edilər".

Bundan başqa, rəsmi Tehran Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran ərazısindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya xətlərinin yaradılmasında da maraqlıdır. Bu barədə imzalanan saziş üzrə işlərin həyata keçirilməsinə başlanıb. Sazişə görə Araz çayı üzərində 2 piyada dəmir yolu və avtomobillər üçün 4 körpü tikiləcək. Rüstəm Qaseminin sözlərinə görə, yaxın gələcəkdə ilk körpünün tikintisinə başlanılacaq və bu münasibətlə təməlqoyma mərasimi keçiriləcək.

Bütün bunlar Ermənistanda ciddi narahatlıq yaradır. Ötən illərdə Ermənistan İrandan magistral yol, dəmir yolu xətti çəkmək niyyətində olub. Amma bunların heç biri həyata keçməyib. Ermənistanın "Şimal-Cənub" dəhlizinə qoşulmasını indiki şərtlər daxilində təmin edə bilən yeganə ölkə Azərbaycandır. Lakin bunun üçün Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, sərhədlərin delimitasiya və demarkasiya prosesinə başlamalı, ölkəmizlə sülh müqaviləsi imzalamalıdır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan şüşə paketlərin satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan linoleum, brezent və müxtəlif növ parçaların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 iyul 2022-ci il saat17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Fazil Mustafaya əmisi

**FƏRHAD MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və İcraiyyə Komitəsi AHİK sədrinin birinci müavini İlyas Əliyevə əzizi

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə

e-mail:

secretary@azerbaijan-news.az

az.reklam@mail.ru

azerbaijan-news@mail.ru

www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,

Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,

Məsul katib - 539-43-23,

Məsul katib müavinləri - 539-44-91,

Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,

İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,

Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68

Humanitar siyasət şöbəsi - 538-56-60

İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,

Fotoillüstrasiya şöbəsi - 538-84-73,

Kompüter mərkəzi - 538-20-87,

Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4494

Sifariş 1865

Qiyməti 40 qəpik